İRFAN

№ 72 Noyabr 2012 İctimai fikir jurnalı 3 AZN

XEYRİYYƏÇİLİK
Tarixi Mirasımızdır

Redaktordan

İRFAN
Noyabr/2012/№:72
ictimai fikir jurnalı
Dövlət Reyestr №: 1763

Təsisçi:
İpəkyolu MMC

Redaktor:
Nurlan MƏMMƏDZADƏ

Məsul katib:
Elşən RZAYEV

Məsləhətçi:
Dr. Abbas QURBANOV

Redaksiya heyəti:
Akademik
Vasim MƏMMƏDƏLİYEV
Prof.Dr. Şahin XƏLİLLİ
Dr.Siracəddin HACI
Dr.Alpay ƏHMƏDOV
Seyid Camal ƏZİMBƏYLİ
Eldəniz SALMANOV
Ramiz MƏMMƏDOV
Səadət MÜRŞÜDOVA
Arif HEYDƏROĞLU
Akif HÜSEYNOV
Fuad QULİYEV

Kompyuter dizaynı:
Ülvi MƏMMƏDOV
Copyright 2012 © All Rights Reserved
Created and supported by "irfan"
Foto:
«İRFAN»

İllik abunə qiyməti:
Ölkədaxili 35 AZN
Xarici ölkələr üçün 60 Avro

Ünvan:
Bakı şəhəri,
Cəfərov Qardaşları küç. 16
Tel: (+994 12) 492 32 23,
493 02 93

www.irfandergisi.com
E-mail
irfandergisi@yahoo.com

Abunə və reklam işləri
Tel: 050 379 01 79

Şikayət və təkliflərniz üçün
bu nömrəyə müraciət edə bilərsiniz

Jurnalın materiallarından istifadə edərkən istinad zəruridir. Müəllifin mövqeyi ilə redaksiyanın mövqeyi üst-üstə düşməyə bilər.

Əziz Oxucu!

Xeyriyyəçilik ənənələrinin kökü insanlığın tarixi qədər qədim dövrlərə gedib çıxır. İnsanlar arasında yardımlaşma ən nəcib bəşəri əməllərdən biridir. Tarixən əcdadımız bu nəcib ənənəni yaşatmış və hər zaman xeyirxahlıq yolunda başqalarına nümunə olmuşlar. Qarşılıqlı yardımlaşma və bir-birinə dayaq dedikdə isə ilk növbədə ağla Azərbaycan və qardaş Türkiyə arasındakı yaxın əlaqələr gəlir. Çünki dünyanın heç bir yerində bu iki dövlət qədər bir-birinə bağlı dövlətlər yoxdur. Səbəb isə kapitalistləşən dünyada bu iki qardaş ölkə arasındakı əlaqələrin maddi mənfəətlərə deyil, sırf qardaşlıq prinsiplərinə əsaslanmasıdır. Diqqətinizə çatdıraq ki, yaxın günlərdə ölkə paytaxtında "Keçmişdən Günümüzə Azərbaycan və Türkiyədə Xeyriyyəçilik Ənənəsi" adlı beynəlxaq simpozium keçiriləcəkdir. Simpozium iki dövlət arasındakı münasibətlərin bir az da yaxşılaşdırılmasına xidmət edir. Eyni zamanda keçən əsrin əvvəllərində Anadolu türklərinə yardım məqsədilə nəşr olunan **"Qardaş Köməyi"** məcmuəsinin də tezliklə işıq üzü görəcəyini nəzərinizə çatdıraraq ana mövzumuzu da məhz bu məqsədlə qarşılıqlı yardımlaşma və mədəniyyətimizdə xeyriyyəçilik anlayışına həsr etdiyimizi bildiririk.

Bu sayımızda *"Xeyriyyəçiliyin Təməlləri"*, *"Sosial Məsuliyyət Nümunəsi"*, *"Sədəqə Bəlanı Dəf Edər"* başlıqlı yazılar birbaşa xeyriyyəçilik və yardımlaşmanın mahiyyətindən bəhs edir. Cəmiyyətimizdə alicənab ziyalılarımızdan olan Seyid Camal Əzimbəylinin *"Azərbaycanda Xeyriyyə Vəqfləri"* adlı məqaləsi ənənəvi xeyriyyəçilik mədəniyyətimiz haqda ətraflı bilgi verməsi baxımından çox mühüm yazılardandır. Hörmətli millət vəkili Prof. Dr. Nizami Cəfərovun *"Qardaşlıq Abidəsi – Qafqaz İslam Ordusu"* məqaləsi Azərbaycan və Türkiyə arasında yuxarıda bəhs etdiyimiz qarşılıqlı dostluq və yardımlaşmadan danışır. *"Azərbaycan Qadınlarının Xeyriyyəçilik Fəaliyyətləri"* cəmiyyətimizdə tarixən qadınların da bu kimi işlərə təşəbbüs etmələrindən xəbər verir. Möhtərəm Osman Nuri Topbaşın qələmindən sətirlərə süzülən *"Mədəniyyətimizdə Xeyriyyəçilik"* yazısı isə çox geniş olan bu mövzunu yığcam dəqiqliklə oxucuya təqdim edir. Yuxarıda keçiriləcəyini xəbər verdiyimiz beynəlxalq simpoziumun icraçı katibi Dr. Abbas Qurbanovdan aldığımız müsahibə də ana mövzumuz baxımından böyük əhəmiyyət daşıyır.

Artıq 9-cu ilinə qədəm qoyan İrfan jurnalı 2013-cü il üçün yeni Abunə Kampaniyasını elan edir. Bu il də abunəçilərimizə çox maraqlı kitablar hədiyyə etməyi planlaşdırırıq. Qarşıdan gələn ildə verəcəyimiz hədiyyə möhtəşəm bir əsər, 900 səhifəlik, nəfis tərtib olunmuş "Peyğəmbərlər Tarixi" və "Son Nəfəs" kitabı olacaqdır. Eyni zamanda Ramazan ayında vermək üzrə gözəl bir çalışma nəticəsində ərsəyə gəlmiş "Ramazani-Şərif" adlı səsli CD də hədiyyələrimiz arasındadır. Abunə qiyməti isə yenə əvvəlki kimi olaraq qalır. Məqsədimiz dəyərli oxucularımızı məmnun etməkdir. 2013-cü ili bizimlə keçirməyə nə deyirsiniz?

Sorma hər kişinin əslin izzətindən bəllidir
Söhbəti irfan görənlər xidmətindən bəllidir.
Nəsimi

Qardaşlıq Abidəsi – Qafqaz İslam Ordusu
Prof. Dr. Nizami CƏFƏROV 6

Tənha Məzar
Bəxtiyar VAHABZADƏ 9

"Qardaş Köməyi"
Prof. Dr. Betül ASLAN 13

Sosial Məsuliyyət Nümunəsi
Dr. Əhməd NİYAZOV 18

Tariximizdə Azərbaycan qadınlarının xeyriyyəçilik fəaliyyətləri
Prof. Dr. Minəxanım NURİYEVA 20

Yaxşı Adamlar Yaxşı Atlara Minmədən
Nurlan MƏMMƏDZADƏ 24

İnsan Olmağın Məsuliyyəti
Mübariz ƏLİOĞLU 26

Mərhəmət
Niyaməddin MÜZƏFFƏROV 34

Sədəqə Bəlanı Dəf Edər
Müşfiq XƏLİLOV 36

Günahsız Məhkum
Eldar KƏRİMOV 38

Zikr və Hüzur
Salih Zeki MERİÇ 40

Ağsaqqal Nəsihəti 42

Qardaşlığı Zədələyən Qısqanclıq
Aqil Əliyev 44

Olmaq
Adem Şahin 46

Hər Şey Göründüyü Kimi Deyil
Polad POLADOV 48

Hikmət Lövhələri
Kamran MƏMMƏDOV 50

Həyat Dəftərindən
Ülvi MƏMMƏDOV 52

Vicdan Nədir?
Zamir Erkin AĞAZADƏ 54

XƏBƏR 55

XEYRİYYƏÇİLİYİN TƏMƏLLƏRİ
Elşən RZAYEV 3

Dr. Abbas QURBANOVLA REPORTAJ 10

MƏDƏNİYYƏTİMİZDƏ XEYRİYYƏÇİLİK
Osman Nuri TOPBAŞ 28

AZƏRBAYCANDA XEYRİYYƏ VƏQFLƏRİ
Seyid Camal ƏZİMBƏYLİ 16

Elşən RZAYEV
elshanrza@hotmail.com

XEYRİYYƏÇİLİYİN TƏMƏLLƏRİ

Nizam yaradılışın sirridir. Nizam məxluqatın tabe olduğu ən böyük qanundur. Nizam sünnətullahdır. Kainat ilahi bir nizamla hərəkət edir. Nizamsızlığın bir adı da qiyamətdir. Fərdi nizamsızlıq insanın qiyamətinə, sosial nizamsızlıq isə cəmiyyətin qiyamətinə səbəb olur.

Hər bir müsəlman Allahın "Salam" adının bir təcəllisi olaraq yaradılışın qanunu olan nizamı qorumalıdır. Tarix nizamı pozanlarla nizamı qorumaq istəyənlər arasındakı amansız mübarizənin adıdır. Peyğəmbərlər ilahi nizamı davranışları ilə nümayiş etdirən ideal örnəklərdir. Kitablar isə nizam qanununu öyrədən ilahi mətnlərdir.

Quranda iman və namazdan sonra xeyirxahlıq zikr edilir. Quran xeyirxahlıqdan o qədər çox bəhs edir ki, "vəhy insana Allah yolunda xərcləməyi öyrətmək üçün gəlmişdir" deyilsə, yerinə düşər. Xeyirxahlıq insanın sanki Allahı öz qazancına ortaq etməsidir. Qazancı artırmanın ən etibarlı və ən ağıllı yolu Allah yolunda xərcləməkdir. Allah yolunda xərcləmək əskiltmək deyil, çoxaltmaqdır.

Xeyriyyəçilik - insanların təfəkküründə şəfqət, ehtiyacı olanlara könüllü və təmənnasız kömək etmək, halına yanmaq kimi keyfiyyətlərlə ehtiva olunur. Xeyriyyəçilik fəaliyyətinin dairəsi məhdud mənada əhalinin zəif sosial təbəqəsinin üzvlərinə müxtəlif yöndə yardımlarla əhatələnir. Bu isə sübut edir ki, xeyriyyəçiliyin kökü qədim zamanlara gedib çıxır.

Allah insanları malları və canları ilə sınayır. Mal sınağından keçməyənlər can sınağına girə bilməzlər. Eynilə Qabil kimi... O, mal sınağından keçmədi və məhv

Xərcləyə bildiyimiz şey bizimdir. Çünki insan ancaq sahibi olduğu şeyi verə bilər. Əgər vermirsə, deməli, o malın deyil, mal onun sahibidir. Elə bu baxımdan da möminlə münafiqi bir-birindən ayıran xüsusiyyətlərdən biri də xeyirxahlıqdır.

oldu. Habil isə mal sınağından keçərək can sınağına girdi və onu da qazanaraq ölümsüzləşdi.

Qulluqda ucalmağın iki qanadı var: Biri quldan Allaha doğru açılan qanaddır ki, bunun adı namazdır. Digəri isə quldan qula doğru açılan qanaddır ki, bunun adı da xeyirxahlıqdır. Bu iki qanad ən gözəl ifadəsini Maun surəsində tapır. Aşağıdakı ayə də bu həqiqəti ifadə edir:

"O kəslər ki, Allahın adı çəkiləndə (zikr ediləndə) qəlbləri (qorxudan) titrəyər, üz verən müsibətlərə səbir edər, namaz qılar və onlara verdiyimiz ruzidən (ehtiyacı olanlara) sərf edərlər." (Həcc, 35)

Bir müsəlmanın dərdinə dərman olmağı dünyalar dolu qızıl və gümüşdən üstün tutanların fəzilət ənənəsi öz əsasını uca kitabımızdan aldığı kimi, onun davam etməsi də əlbəttə ki, eyni qaynaqdan olacaq. Ayeyi-kərimədə buyurulur: **"...Yaxşı əməl sahibi əslində Allaha, axirət gününə, mələklərə, kitaba və peyğəmbərlərə inanan, (Allaha) məhəbbəti yolunda (və ya mal-dövlətini çox sevməsinə baxmayaraq) malını (kasıb) qohum-əqrəbaya, yetimlərə, yoxsullara, müsafirə (yolçulara), dilənçilərə və qulların azad olunmasına sərf edən, namaz qılıb zəkat verən kimsələr, eləcə də əhd edəndə əhdinə sadiq olanlar, dar ayaqda, çətinlikdə və cihad zamanı (məşəqqətlərə) səbir edənlərdir.."** (Bəqərə, 177)

Xeyirxahlıq etməyin yolu vəhyin inşa etdiyi bir sərvət təsəvvürünə sahib olmaqdan keçir. Bu təsəvvürün istinad edəcəyi əqidə tövhid əqidəsidir. "Mülk kimindir?" sualına Quranın qətiyyətlə verdiyi cavab açıq-aşkardır: "Mülk Allahındır!" Bəs onda bu mülkdən insanın payına düşən nədir? Bu bir həqiqətdir ki, bu pay da insana verilən bir əmanətdir. Çünki insan bu dünyaya sahib olmaq üçün deyil, şahid olmaq üçün gəlmişdir. Sərvəti imana şahid tutmaq lazımdır. Bu isə sərvətə mülkiyyət deyil, əmanət gözü ilə baxmaqla olur.

Qeyd edək ki, şəfqət, başqasının halına yanmaq, xeyirxah işlər görmək, qonaqpərvərlik və səxavət kimi keyfiyyətlər həmişə Azərbaycan xalqının ən mühüm həyati dəyərləri olub və bu gün də olmaqdadır. XIX əsrin sonu XX əsrin əvvəllərində bu tarixi-mədəni və mənəvi təməl üzərində Azərbaycanda mesenatlıq geniş vüsət almışdı. Olduqca qənaətcil sahibkarlar kimi tanınmış insanlar cəmiyyətin rifahı naminə - maarif və təhsilə, mədəniyyət və incəsənətin inkişafına, mülki tikinti işlərinə külli miqdarda vəsait sərf etmişdilər. Hacı Zeynalabdin Tağıyev, Musa Nağıyev kimi xeyirxah insanların adı bu siyahıda xüsusilə seçilir. Azərbaycanın xeyriyyəçilik institutunun formalaşdırılması istiqamətində qadın xeyriyyə cəmiyyətləri də böyük işlər görmüşdü. Bu sıraya Gövhər xanım Qacar, Həmidə xanım Cavanşir, Nigar xanım Şıxlinskaya və başqalarının yaratdıqları qadın xeyriyyə cəmiyyətlərini aid etmək olar.

Keçmişdən günümüzə çox şey dəyişdi... Xeyirxahlıq və yaxşılıq etmək anlayışımız da bunlardan biridir. Artıq başqalarından çox özümüzü düşünür, nəfsimizin "mənə yardım edənə yardım edərəm, yaxşılıq edənə yaxşılıq edərəm" təlqinləri ilə özümüzü haqlı çıxarırıq. Başqalarının bizim haqqımızda deyəcəyi "yaxşı insandır" ifadəsini belə özümüz haqda "mən yaxşı insanam" deyirik. Sözümüz nəfsimizə xoş

gəlir, ancaq **"Sevdiyiniz şeylərdən (haqq yolunda) sərf etməyincə savaba çatmarsınız. Şübhəsiz ki, Allah (Onun yolunda) xərclədiyiniz hər bir şeyi biləndir!"** (Ali İmran, 92) buyuran Rəbbimizə necə gəlir onu düşünmürük.

Xərcləyə bildiyimiz şey bizimdir. Çünki insan ancaq sahibi olduğu şeyi verə bilər. Əgər vermirsə, deməli, o malın deyil, mal onun sahibidir. Elə bu baxımdan da möminlə münafiqi bir-birindən ayıran xüsusiyyətlərdən biri də xeyirxahlıqdır. Təəccüblü haldır ki, "infaq" ilə "nifaq" kəlməsinin kökü ərəb dilində eynidir. Hər iki kəlmə də "iki tərəfində iki dəliyi olan yeraltı keçidi" ifadə edir. İnfaq kəlməsində iki dünyalığa aid bir işarə vardır. Sanki dəliyin biri bu dünyaya, digəri o biri dünyaya açılan tuneldən nə isə göndərməyi bildirir. Xeyirxah şəxs əslində infaq etdiyini zahirən özündən vermiş kimi görünsə də, həqiqətdə verdiyini axirətə öz hesabına göndərir. Nifaqda isə bu məna özünü "ikiüzlülük" olaraq göstərir.

İnfaq və nifaq kəlmələrinin kökü eyni olmaqla yanaşı, dəlalət etdikləri mənalar etibarı ilə bir-birinə ziddir. Nifaq ikiüzlülüyün, infaq isə iki dünyalılığın adıdır. Nifaq əhli tək dünyalı olduğu üçün infaq edə bilməz. Çünki xeyriyyəçi insanlar axirətdə əvəzini alacaqlarına inananlardır.

Quran xeyirxahlığı sahibini cənnətə aparan bir yol, xəsisliyi də sahibini cəhənnəmə aparan bir yol olduğunu aşağıdakı ayələrdə bildirir:

"Kim (malını Allah yolunda) versə, (Allahdan) qorxsa və ən gözəl sözü (lə iləhə illəllah kəlməsini) təsdiq etsə, Biz ona ən asan olanı (cənnəti) müyəssər edəcəyik! Amma kim (malını Allah yolunda xərcləməyə) xəsislik etsə, (maldövlətinə güvənib Allaha) möhtac olmadığını sansa və ən gözəl sözü yalan saysa, Biz ona ən çətin olanı (cəhənnəmi) müyəssər edəcəyik!" (Leyl, 5-10)

"Mülk kimindir?" sualına Quranın qətiyyətlə verdiyi cavab açıq-aşkardır: "Mülk Allahındır!" Bəs onda bu mülkdən insanın payına düşən nədir? Bu bir həqiqətdir ki, bu pay da insana verilən bir əmanətdir. Çünki insan bu dünyaya sahib olmaq üçün deyil, şahid olmaq üçün gəlmişdir. Sərvəti imana şahid tutmaq lazımdır. Bu isə sərvətə mülkiyyət deyil, əmanət gözü ilə baxmaqla olur.

Prof. Dr. Nizami CƏFƏROV
millət vəkili

QARDAŞLIQ ABİDƏSİ QAFQAZ İSLAM ORDUSU

XX yüzilin əvvəlləri xalqımız üçün həm sevincli, həm də kədərli günlərin yaşandığı bir dövr oldu. Bir tərəfdən ermənilərin dinc əhaliyə soyqırım dəhşətini yaşayarkən, digər tərəfdən Qoca Şərqdə ilk dəfə demokratik dövlət qurmağın sevincini daddıq. Eyni zamanda tarixin keşməkeşli sınaqlarından çıxmış iki qardaş dövlətin, Azərbaycan-Türkiyə münasibətlərinin bir daha ağır imtahandan alnıaçıq çıxmasının şahidi olduq.

1918-ci ildə Azərbaycan Xalq Cümhuriyyətinin əsası qoyuldu. Bu hələ hər şey demək deyildi, xalqı çox ağır və məşəqqətli günlər gözləyirdi. Azərbaycan hər tərəfdən düşmən qüvvələrinin təzyiqlərinə məruz qalmışdı. Bir tərəfdən türk qanına susamış rus bolşevikləri, bir tərəfdən onların əlaltıları olan erməni daşnak birləşmələri, başqa bir tərəfdən də ingilis imperialistləri Azərbaycan üzərində öz maraqlarını təmin etmək uğrunda mübarizə aparırdı. Hələ nizami ordusu olmayan və yeni yaranmış dövləti qorumaq üçün Azərbaycanın yardıma ehtiyacı vardı. Belə bir ortamda isə yalnız qardaşların birbirinə yardım etməsi düşünülə bilərdi və məhz elə də oldu.

Anadolu və Azərbaycan türkləri hər zaman bir-birinə maddi və mənəvi dəstək olmuşdu və bu dəstək heç bir qarşılıq gözləmədən həyata keçirilmişdi. 1915-ci ildə Osmanlının Qurtuluş Savaşı üçün Bakıda minlərlə insan bir yerə yığışaraq öz imkanları nisbətində kimisi qızıl, kimisi pul, kimisi də ailələrinin zinət əşyalarını İstanbula göndərməyə can atırdı. Hələ bundan bir neçə il öncə Çanaqqala savaşında da Azərbaycanın mərd övladları Osmanlı igidləri ilə dastan yazmışdılar. Bu gün isə yerlər dəyişmişdi. – İndi Azərbaycan türkü çətin durumda idi. Qafqazdan gələn bu fəryad səslərinə Anadolu türkləri cavab verməliydi. Məhz belə bir vaxtda Qafqaz İslam Ordusu qardaş yardımına özünü yetirməkdə gecikmədi.

Qeyd edək ki, Qafqaz İslam Ordusu Osmanlı dövlətinin qurduğu bir ordu idi. Bu,

Atatürkəqədərki bir ordu idi. Osmanlının Azərbaycana bu köməyi, ümumiyyətlə türk xalqlarının, türk dövlətlərinin yeni dövrdə, ən yeni dövrün başlanğıcında birbirinə tarixdən gələn köməyinin davamı idi. Yəni qarşılıqlı yardımlaşma idi. Burada ümumi türkçülük düşüncəsi vardı. Ümumi türkçülük düşüncəsindən daha çox islamçılıq düşüncəsi vardı. Çünki Osmanlı padşahı eyni zamanda xəlifə idi. Ona görə də İslam məmləkətinin istənilən yerində İslama və İslam xalqlarına qarşı hər hansı çətinlik, problem yaranardısa, Osmanlı həmin bölgəyə müdaxilə edirdi. Bu, rus-sovet imperializminin təzyiqinə məruz qalan Azərbaycan xalqına Osmanlı dövlətinin qardaşlıq yardımı, başqa sözlə desək, türkçülük və ümmətçilik baxımından göstərilən kömək idi. Bu ordunun yaradılmasının, Azərbaycan xalqına, ümumiyyətlə Qafqaz müsəlmanlarına göstərilən bu köməyin strateji bir məqsəd daşıdığını qaynaqlardan bilirik. Bu ordu təsadüfən yaranmamışdı. Qafqaz İslam ordusu Osmanlı dövlətinin hərbi naziri Ənvər Paşanın xüsusi təkidi ilə yaradılmışdı. Bu orduya onun şəxsən özünün nə qədər ciddi münasibət bəsləməsinin bir göstəricisi də o idi ki, gənc və hələ təcrübəsiz olmasına baxmayaraq öz qardaşı Nuru Paşanı bu ordunu yaratmaq üçün görəvləndirmişdi. Nuru Paşa kiçik bir qüvvə ilə öncə durumu öyrənmək üçün Təbrizə gəlmiş, bundan sonra yenə həmin qüvvə ilə Zəngəzura, oradan Qarabağa və nəhayət, 1918-ci ilin yay aylarında Gəncəyə gələrək orada öz qərargahını qurmuşdu. Beləliklə Qafqaz İslam Ordusunun hərəkatına start verilmişdi. Nuru Paşa Gəncəyə gələnə qədər ordu tam formalaşmamışdı. Ordu qüvvələrinin yerlilərdən, yəni Azərbaycandan, ümumilikdə Qafqazdan yığılması nəzərdə tutulurdu. Lakin rus-erməni-daşnak orduları çox güclü qüvvəyə malik idi. Rus-erməni birləşmələri Azərbaycanın əksər bölgələrində yetərincə qüvvəyə malik idi və ən əsası o idi ki, Bakı onların əlində idi... Belə bir dövrdə müəyyən bir zabit heyəti ilə gələn Nuru Paşa düşmənə qarşı gücün zəif olduğunu başa düşürdü. Durum çox mürəkkəb və əlverişsiz idi.

Durumun getdikcə daha da mürəkkəbləşdiyini görən Nuru Paşa yenidən İstanbula müraciət edərək texnika və əsgəri

qüvvə istədi. Ənvər Paşa Osmanlının şərq ordularını birləşdirərək əmisi oğlu Tələt Paşanı rəhbər təyin etdi. Tələt Paşaya tam bir göstəriş verildi ki, Qafqaz İslam Ordusu hər cür təchizatla təmin edilsin. Bununla da Şərq ordularından toplanmış böyük bir ordu yenidən Azərbaycana göndərildi və Qafqaz İslam Ordusu möhkəmləndirildi. Bütün yay ayları ərzində Qafqaz İslam Ordusu Gəncədən Bakıya qədər döyüşdü. Onu da qeyd etmək lazımdır ki, düşmən tərəf çox güclü idi. Qafqaz İslam Ordusu rus-daşnak birləşmələriylə mübarizə aparırdı. Düşmən hər tərəfdə güclənmişdi. Təkcə Gəncənin özündə yerləşmiş ermənilər böyük bir orduya malik idi. Almanlar da bu bölgədə idilər və böyük bir orduları vardı. Onlar da Gürcüstandakı gürcü menşevikləri ilə birlikdə Azərbaycanın qərb bölgələrini təhdid edirdi. Digər tərəfdən İrandan həyata keçirilən ingilis müdaxiləsini də qeyd etmək lazımdır. ...Bütün bunlara baxmayaraq Nuru Paşa 1918-ci il sentyabr ayının 15-də Bakını azad etməyi bacardı! Türk-Azərbaycan birləşmələrinin birgə mücadiləsi nəticəsində Bakı xilas olundu. Artıq Bakı səmalarında Azərbaycan Cümhuriyyətinin üçrəngli bayrağı dalğalanırdı. Beləliklə də Azərbaycanın müstəqil dövləti olan Azərbaycan Xalq Cümhuriyyəti öz mərkəzini Bakıya köçürdü!..

Bu möhtəşəm ordu erməni quldur dəstələrinin Azərbaycanın müxtəlif bölgələrində törətdiyi qırğınların qarşısını alaraq Bakının azad olunmasında müstəsna və əvəzolunmaz xidmətlər göstərdi. Qətiyyətlə deyə bilərik ki, Qafqaz İslam Ordusu Azərbaycanın müstəqilliyinin əsasını qoyan bir ordudur. Xilaskar Ordu bu torpaqların istiqlalı üçün çox şəhid verdi. Həmçinin qeyd etmək lazımdır ki, Azərbaycanın müxtəlif bölgələrində döyüşən və bu döyüşlərdən üzağlığı ilə çıxan bir çox türk əsgər və zabiti Türkiyəyə qayıtmadı, özlərinə ikinci vətən bildikləri bu torpaqlarda qaldı. Onlar mənəviyyatca o qədər yüksək insanlar idi ki, məzarları sonralar övliya məzarları kimi qorunub saxlandı..! Siyasi təzyiqlərin olduğu dövrlərdə də xalq bu məzarları ziyarət edərək onların itib-batmasının qarşısını aldı. O qəbirlər bir növ müqəddəs ziyarətgah sayılırdı.

Xilaskar Ordu bu torpaqların istiqlalı üçün çox şəhid verdi. Həmçinin qeyd etmək lazımdır ki, Azərbaycanın müxtəlif bölgələrində döyüşən və bu döyüşlərdən üzağlığı ilə çıxan bir çox türk əsgər və zabiti Türkiyəyə qayıtmadı, özlərinə ikinci vətən bildikləri bu torpaqlarda qaldı. Onlar mənəviyyatca o qədər yüksək insanlar idi ki, məzarları sonralar övliya məzarları kimi qorunub saxlandı..!

Qafqaz İslam Ordusunun verdiyi şəhidlər torpağa atılan toxum kimidir. Ümidlərin tükəndiyi yerdə var oluş və yenidən diriliş müjdəsidir..! Qafqaz İslam Ordusu bu gün də fəaliyyət göstərir. Bu ordu bir vaxtlar hərbi missiyasını həyata keçirirdisə, bu gün öz mənəvi missiyasını həyata keçirməyə davam edir. Belə deyə bilərik ki, Qafqaz İslam Ordusu bu gün iki müstəqil dövlət arasında mövcud olan qardaşlıq duyğularının şərəfinə ucaldılmış möhtəşəm bir abidədir.

TƏNHA MƏZAR

1918-ci ildə erməni basqınına məruz qalmış Azərbaycana köməyə gələn türk ordusunun zabiti şücaətlə döyüsmüş, Şamaxı ətrafında erməni gülləsinə tuş gəlmişdir. O, öz, arzusu ilə yaralandığı yerdə də dəfn olunmuşdur.

Yolun kənarında tənha bir məzar
Üstündə nə adı, nə soyadı var.
Ey yolçu, masını əylə bu yerdə
Soruş kimdir yatan tənha qəbirdə?

O, bir türk zabiti, qəhrəman, mətin!
Doğma qardaşına yardıma gəldi.
Qırğına tutulan millətimizin
Haqlı savaşına yardıma gəldi.

Uzaqdan hay verib sənin səsinə,
Gəldi, qayıtmadı öz ölkəsinə.
Düşmən səflərini o, soldan sağa
Biçib dəstəsiylə cəbhəni yardı.
Torpağın yolunda düşüb torpağa
Sənin torpağını sənə qaytardı.

Özü qoruduğu, həm can verdiyi
Yolun kənarında dəfn edildi o.
Uğrunda canını qurban verdiyi
Torpağı özünə vətən bildi o.

Yolçu, masınını bu yerdə əylə
O məzar önündə sən təzim eylə.
Səcdə qıl, dua ver onun ruhuna
Ayaq basdığın yer borcludur ona.

Bəxtiyar VAHABZADƏ

"Keçmişdən Günümüzə Azərbaycan və Türkiyədə Xeyriyyəçilik Ənənəsi" beynəlxalq simpoziumunun icraçı katibi DR. ABBAS QURBANOV:

"QARDAŞ KÖMƏYİ" İKİ QARDAŞ ARASINDAKI YAXIN ƏLAQƏLƏRİN KONKRET NÜMUNƏSİDİR.

İrfan: *Bildiyimizə görə bu yaxınlarda "Keçmişdən Günümüzə Azərbaycan və Türkiyədə Xeyriyyəçilik Ənənəsi" beynəlxalq simpoziumu Belə bir tədbirin keçirilməsi hansı səbəbdən irəli gəlir?*

Dr. Abbas Qurbanov: Azərbaycan və Türkiyə xalqı çətin günlərdə çiyin-çiyinə verərək qardaş köməyini bir-birlərindən heç vaxt əsirgəməmişlər. İlahi qədər bu iki qardaş ölkəni bir-birinə dərindən bağlamışdır. Belə ki, Azərbaycan dünyaya Türkiyə üzərindən, Türkiyədə Qafqazlara və Orta Asiyaya Azərbaycan üzərindən açılmaqdadır. Yəni mərhum Prezidentimiz Heydər Əliyevin *"Biz bir millət iki dövlətik"* sözü tarixən özünü göstərmişdir. Bu birlik sadəcə iqdisadi cəhətdən deyil, millimənəvi cəhətlərdə də yaxınlığı özü ilə gətirmişdir.

Bu gün Azərbaycan xalqı istər əsrin əvvələrində, 1918-ci ildə qurulmuş Azərbaycan Xalq Cümhuriyyətini, istərsə də əsrin sonunda, 1991-ci ildə dövlət müstəqilliyini əldə etmiş Azərbaycan Respublikasını tanıyan ilk dövlətin qardaş Türkiyə olduğunu böyük bir minnətdarlıq hissi ilə xatırlamaqdadır. 1915-ci ildə Bakıda Anadolu Türkünün Qurtuluş Mübarizəsinə dəstək vermək məqsədiylə Bakı Müsəlman Xeyriyyə Cəmiyyəti liderliyində ***"Qardaş Köməyi (Yardımı)"*** fəaliyyəti başlamışdır. Bu təşkilatın ***"Qardaş Köməyi"*** jurnalını nəşr etmə təşəbbüsü nəticəsində Anadolunun qurtuluş müharibəsinə dəstək məqsədiylə Bakıda minlərlə şəxs toplanmış, toplanan bu insanlar pullarını, qızıllarını və ailələrinin ziynət əşyalarını Anadoluya çatdırmaq üçün adı zikr olunan təşkilata vermişlər. Heç bir qarşılıq gözləmədən edilən qarşılıqlı yardımların tarixi dərinliklərdən real işlərlə gün üzünə çıxarılması lazımdır. Adı keçən bu layihə Türkiyə ilə dərin tarixi, mədəni, din və dil əlaqələri olan Azərbaycanla yaxın dövrdə də bu bağların güclənməsində tarixən var olan qardaşlıq və dostluq hisslərinin daha da möhkəmləşməsinə ciddi bir dəstək olacaqdır.

İrfan: *Tədbirin təşkilatçıları haqda məlumat verin zəhmət olmasa.*

Dr. Abbas Qurbanov: Tədbiri Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan - Türkiyə Parlamentlərarası Dostluq qrupu və onun rəhbəri Prof. Dr. Nizami Cəfərov, Türkiyə Böyük Millət Məclisi Türkiyə-Azərbaycan Parlamentlərarası Dostluq qrupu, Türkiyə Cümhuriyyəti Türk İşbirliği və Kalkınma İdarəsi Başkanlığı (TİKA), Azərbaycan Respublikası Gəncliyə Yardım Fondu (GYF), Azərbaycan Türk Sənayeci və İşadamları Beynəlxalq Cəmiyyəti (TÜSİAB) və Azərbaycan Dillər Universiteti (ADU) təşkil edir. "Qardaş Köməyi" kitabının transliterasiya, sadələşdirmə və nəşrini isə İpəkyolu nəşriyyatı həyata keçirir.

İrfan: *"Qardaş Köməyi"nin Azərbaycandakı xeyriyyəçilik ənənəsindəki rolu nədir?*

Dr. Abbas Qurbanov: Çar Rusiyasının hakimiyyət qurduğu digər türk ellərində olduğu kimi, Azərbaycanda da hərbi və siyasi islahatlarla yanaşı türk əhalini xristianlaşdırmaq, ruslaşdırmaq və kölə halına gətirmək siyasəti aparılmış və bunun nəticəsində də XIX əsrin ikinci yarısından etibarən Azərbaycan türkləri arasında "Milli Oyanış Hərəkətləri" başlamışdır. Bu dövrdə daha çox mədəni sahədə özünü göstərən milli oyanış hərəkətləri XX əsrin əvvəllərində siyasi sahədə də özünü hiss etdirmişdir.

Azərbaycan türkləri arasında milli oyanışın başlaması, "millət olma" şüurunun inkişafı, təbii olaraq eyni irqdən gəldiyi, eyni dili danışdığı, eyni din və mədəniyyətə sahib olduğu Türkiyə türklərinə qarşı əlaqənin artması və qardaşlıq duyğularının ön plana çıxması nəticəsini də doğurmuşdur.

Bundan sonra Türkiyədə yaşanan hər hadisə, hər inkişaf Azərbaycanda əks-səda göstərməyə başlamışdır. Necə ki, bu inkişaflar Balkan Döyüşləri əsnasında ilk meyvələrini vermişdir. Bu döyüşlər əsnasında, Azərbaycan türkləri istər maddi, istərsə də mənəvi olaraq Türkiyəyə kömək etmiş, bir qisim Azərbaycan türkləri könüllü olaraq Türkiyəyə gələrək Balkan dövlətlərinə qarşı döyüşmüşlər.

26 Yanvar 1915də Bakıda "Müsəlman Cəmiyyəti-Xeyriyyə"nin Başçısı Mirzə Əsadullayev başçılığında edilən yığıncaq ilə kömək fəaliyyətləri başladıldı. Toplantıda bu işin Bakı Müsəlman Cəmiyyəti Xeyriyyəsi tərəfindən icra ediləcəyini, kömək etmək istəyənlərin Cəmiyyəti-Xeyriyyəyə qəbz qarşılığında köməklərini təslim edə biləcəkləri ifadə edilərək, doğrudan cəmiyyətin başçısının idarəsi və nəzarəti altında işləyəcək xüsusi bir kömək komitəsi qurulması qərarlaşdırıldı. Mirzə Əsadullayevin başçılığında 9 üzvdən

ibarət "Hərbzədə Müsəlmanlara Muavənət Komitəsi" yaradıldı.

Döyüş boyunca hər təbəqədən insanların qatıldığı bu kömək fəaliyyətlərinə ən böyük yardımı təqdim edənlərin başında Azərbaycan türk mətbuatı gəlmişdir. İlk günlərdən etibarən Azərbaycanda çıxan qəzetlərdə Anadolu fəlakətzədələrinə kömək edilməsi üçün yüzlərlə məqalələr yazılaraq, Azərbaycan xalqının bu mövzuda məlumatlandırılması və şüurlandırılmasına təşəbbüslər olunmuşdur.

1917-ci ilə gəlindiyində isə Bakıda bir yığıncaq təşkil edən azərbaycanlı yazarlar, gəliri "hərbzədələrə" xərclənmək üzrə "Qardaş Köməyi" adıyla bir jurnal çıxarmağı qərarlaşdırdılar. Azərbaycanlı türk yazarlar tərəfindən bir ədəd olarak

"Qardaş Köməyi" *jurnalını nəşr etmə təşəbbüsü nəticəsində Anadolunun qurtuluş müharibəsinə dəstək məqsədiylə Bakıda minlərlə şəxs toplanmış, toplanan bu insanlar pullarını, qızıllarını və ailələrinin ziynət əşyalarını Anadoluya çatdırmaq üçün adı zikr olunan təşkilata vermişlər.*

1917-ci ilin mayında çıxarılan jurnalın sorumlu müdiri eyni zamanda Cəmiyyəti-Xeyriyyənin də başçısı olan Mirzə Əsadullayev idi. Əski əlifba ilə çıxarılan "Qardaş Köməyi" jurnalının baş qismində çıxarılma məqsədi bu şəkildə ifadə edilməkdə idi:

"Hasilatı hərbzədələr faidəsinə getmək üçün müharrirlər tərəfindən nəşr olunmuş siyasi, ədəbi, ictimai bir məcmuədir."

İrfan: *Bu gün belə bir məcmuənin geniş oxucu kütləsinə çatdırılması cəmiyyətimizə nə kimi töhfələr verəcəkdir?*

Dr. Abbas Qurbanov: Bu toplu sözün ən yüksək anlamında nəcib və ülvi insaniyyət vəzifəsinin, təmənnasız qardaşlıq borcunun, yurdundan-yuvasından didərgin düşmüş, məşəqqətli qaçqın həyatı sürən, min bir izdiraba düçar olmuş biçarələrə vicdanlı ziyalıların mənəvi və maddi yardımının parlaq örnəyi idi.

Məcmuədə verilmiş yazıların bir çox baxımdan bu gün də aktual olduğunu, müəlliflərin ədəbiyyat, siyasət, mədəniyyət sahəsindəki nüfuzunu nəzərə alaraq, qardaş Türkiyəylə qarşılıqlı yardım əlaqələrimizin bariz rəmzi, çətin gündə dost köməyinin nəcib timsalı olan bu kitab var olan əlaqələrin daha da möhkəmlənməsinə səbəb olacaqdır. "Qardaş köməyi" bir çox cəhətdən unikal, misilsiz kitabdır. Birincisi ona görə ki, bu topluda yazıları dərc olunmuş müəlliflər XX əsrin əvvəllərində Azərbaycan ədəbiyyatının, elminin, siyasətinin ən mümtaz simalarıdır. Bu fikri təsdiq etmək üçün onlardan bir neçəsinin adlarını çəkmək yetər:

Hüseyin Cavid, Talıbzadə Abdulla Şaiq, Ömər Faiq Nemanzadə, Əhməd Cavad, Məmməd Əmin Rəsulzadə, Abbas Səhət, Salman Turxan (Mümtaz), Məmməd Səid Ordubadi və s.,

Bəs bu qədər müxtəlif əqidəli, müxtəlif yaşlı, müxtəlif sosial duruma malik olan,



müxtəlif, hətta ən uzaq şəhərlərdə yaşayan insanları birləşdirən ümumi məqsəd nə idi? Yüksək humanizm amalı, məzlumlara, əziyyət çəkənlərə, ehtiyacı olanlara qardaş əli uzatmaq, yardım göstərmək, maddi və mənəvi dəstək olmaq istəyi...

Doğrudur, qanlı müharibələr, işğallar zamanı qaçqınların qisməti çeşidli millətlərin taleyinə düşür. Ancaq qaçqınların aqibətinə indi olduğu kimi o vaxt da dünya, özəlliklə, Qərb, Avropa və Rusiya ictimaiyyəti ikili standartlarla yanaşırdı. Məcmuədə dərc olunmuş yazılarda bu açıq-aydın göstərilir.

Bu yazılarda qaldırılan məsələlər bu gün də o vaxtkı kimi gündəmdədir. Bu gün qarşımıza çıxan bir çox problemlərin səbəbini və kökünü də bu məcmuədə tapa bilərik. "Tarixi unudanlar onu bir daha yaşamağa məhkumdurlar" -deyiblər. Tariximizin acı səhifələrini unutmamağımız onları bir daha yaşamayacağımızın xəbərçisidir.

Prof. Dr. Betül ASLAN

Azərbaycan Türklərinin Anadolu Türklərinə

"Qardaş Köməyi"

XX əsrin əvvəllərində Türkiyədə yaşanan hər hadisə, hər inkişaf Azərbaycanda əksəda göstərməyə başlamışdır. Necə ki, bu inkişaflar Balkan Döyüşləri əsnasında ilk meyvələrini vermişdir. Bu döyüşlər əsnasında Azərbaycan türkləri istər maddi, istərsə mənəvi olaraq Türkiyəyə kömək etmiş, bir qisim Azərbaycan türkü könüllü olaraq Türkiyəyə gələrək Balkan dövlətlərinə qarşı döyüşmüşdür.

Azərbaycan türkləri arasında milli şüurun inkişaf etdiyi bu dövrdə Birinci Dünya müharibəsi başlamışdı. Daha Balkan Döyüşlərinin oyandırdığı milli həyəcanın təsirləri Azərbaycan türkləri arasında təsirini qoruduğu bu günlərdə Osmanlı Dövlətinin Rusiyaya qarşı döyüşə girərək, ilk başlarda kiçik müvəffəqiyyətlər qazanması Azərbaycan türklərinin milli müstəqillik yolunda böyük ümidlərə qapılmalarına gətirib çıxardı. Ancaq Türk ordusunun Sarıqamışda böyük bir məğlubiyyətə uğraması, bu istiqlal arzularını puç etmiş və onların bu mövzudakı ümidlərinin azalmasına səbəb olmuşdur.

Sarıqamış məğlubiyyəti Qafqaz Cəbhəsi Döyüşlərində bir dönüş nöqtəsini təşkil etmişdir. Bu döyüş əsnasında türk ordusu böyük güc itkisinə uğradığı üçün artıq Şərqi Anadolu və Qaradəniz sahili rus işğallarına açılarkən, bu bölgələrdə yaşayan türklər üçün də qara günlər başlamışdı. Rus işğalına uğrayan və döyüş sahəsi olan bölgələrdə müsəlman-türk əhalisi rus, erməni və rum birləşmələrinin təzyiq, təcavüz, hücum və qırğınlarına məruz qalmış, Qars, Ərdəhan, Kağızman, Oldu, Artvin, Ardanuç və s. kimi bir çox bölgədə yüzlərlə kənddə minlərlə müdafiəsiz insan qətl edilmişdir.

Bütün Azərbaycan türklərinin fərd və cəmiyyətlər olaraq böyük bir həyəcan və istəklə başlatdığı bu Qardaş Köməyi fəaliyyətində Qafqaz Cəbhəsi Döyüşlərindən zərər görmüş, çətin vəziyyətdə olan minlərlə müsəlman-türk "hərbzədə" və qaçqına kömək edilmişdir. Minlərlə sahibsiz və yetim uşaq küçələrdən, xarabalardan toplanılaraq, bunlar üçün açılan sığınacaqlara yerləşdirilmişlər.

Anadoluda türklərin yaşadığı bu fəlakətlər çox keçmədən, Rus Hökumətinin ciddi senzurasına baxmayaraq, xüsusilə Azərbaycan türk mətbuatının fədakarlığı nəticəsində bütün reallığı ilə Azərbaycan ictimaiyyətinə çatdırıldı. Bu hadisə Azərbaycan türklərində böyük kədər və həyəcan yaratmışdır. Qardaşlarının yaşadıqları bu fəlakətlərə qeydsiz qala bilməyən Azərbaycan türkləri bir tərəfdən bu qırğın və haqsızlıqların dayandırılması üçün hökumət nəzdində cəhdlər etmiş, digər tərəfdən "Qardaş Köməyi" şüarıyla tarixdə çox az rast gəlinən bir yardım kampaniyası başlatmışdılar. Bütün Azərbaycan türklərinin fərd və cəmiyyətlər olaraq böyük bir həyəcan və istəklə başlatdığı bu Qardaş Köməyi fəaliyyətində Qafqaz Cəbhəsi Döyüşlərindən zərər görmüş, çətin vəziyyətdə olan minlərlə müsəlman-türk "hərbzədə" və qaçqına kömək edilmişdir. Minlərlə sahibsiz və yetim uşaq küçələrdən, xarabalardan toplanılaraq, bunlar üçün açılan sığınacaqlara yerləşdirilmişlər. Tək əhali deyil, Qafqaz Cəbhəsi Döyüşlərində ruslara əsir düşən hərbi türk əsirləri də bu kömək işindən nəsibini almışdır.

Bu kömək işində ən böyük vəzifəni isə 1905-ci ildə Bakıda qurulmuş olan "Bakı Müsəlman Cəmiyyəti Xeyriyyəsi" boynuna götürmüş, kömək işlərini təşkil etmiş və

Qarsda siyahı olunmaq üçün Bakı Cəmiyyəti-Xeyriyyəsi şöbəsinin qarşısında toplanmış hərbzədələr

köməklərin yerlərinə çatmasını təmin etmişdir.

Kömək işləri iki mərhələli şəkildə reallaşmışdır. Birinci mərhələsi Azərbaycan və bütün Qafqazda edilən fəaliyyətlər; Azərbaycan Türklərinin Qafqaza köçən müsəlman qaçqınlara, döyüş bölgələrindən toplanan müsəlman yetim uşaqlara və Rusiyaya əsir düşən türk əsgərlərinə etdiyi kömək işləridir. İkinci mərhələsi isə şəxsən döyüş bölgələrinə gedilərək rus işğalına uğrayan Anadolunun şəhər və qəsəbələrində reallaşdırılan kömək işləridir ki, Bakı Müsəlman Cəmiyyəti Xeyriyyəsinin nümayəndələri Birinci Dünya müharibəsinin sonuna qədər rus işğalı altındakı bu bölgələrdə faaliyətlərini sürdürəcəkdilər.

Kömək işlərinin ilk ayağını meydana gətirən Azərbaycan və Qafqazdakı işlərdə vəziyyət ilk olaraq 1914-cü ilin dekabr ayında Petroqradda edilən "Bütün Rusiya Müsəlman Cəmiyyətləri İctiması"nda gündəmə gətirilmişdir. Bu yığıncağa Bakı Müsəlman Cəmiyyəti Xeyriyyəsi adına qatılan Mirzə Əsadullayev müsəlmanların yaşadıqları fəlakətləri dilə gətirərək, Türkiyə sərhədinə yaxın olan yerlərdən müsəlman əhalinin döyüş səbəbiylə qaçmaq məcburiyyətində qaldıqlarını, bu Müsəlman qaçqınların vəziyyətlərinin çox pis olduğunu ifadə etmiş, Bakı Müsəlman Cəmiyyəti Xeyriyyəsinin təsbitlərinə görə hal-hazırda Qafqazda 5000-ə yaxın müsəlman ailəsinin Türkiyə sərhədlərindəki yerlərdə ac və çılpaq vəziyyətdə olduqlarını bildirmişdir. Daha sonra Qafqaz Cəbhəsi Döyüşlərində zərər görmüş, fəlakətə uğramış müsəlmanlara kömək edilə bilməsi üçün rəsmi icazə alınması barəsində bir sıra cəhdlərə baş vurulmuşdur. Xüsusən Mehmed Yusif Cəfərovun Rus Hökuməti və Dövlət Duması nəzdində etdiyi cəhdlər nəticəsində hökumətdən rəsmi icazə alınmışdı.

26 Yanvar 1915-ci ildə Bakıda Bakı Müsəlman Cəmiyyəti Xeyriyyə başçısı Mirzə Əsadullayev başçılığında edilən yığıncaq ilə kömək fəaliyyətləri başladıldı. Toplantıda bu işin Bakı Müsəlman Cəmiyyəti Xeyriyyəsi tərəfindən icra ediləcəyini, kömək etmək istəyənlərin Cəmiyyəti Xeyriyyəyə qəbz qarşılığında köməklərini təslim edə biləcəkləri ifadə edilərək, doğrudan cəmiyyətin başçısının idarəsi və nəzarəti altında işləyəcək xüsusi bir kömək komitəsi qurulması qərarlaşdırıldı. Mirzə Əsadullayevin başçılığında 9 adamdan ibarət yaranan "Hərbzədə Müsəlmanlara Müavinət Komitəsi" seçildi. Kömək işini daha yaxşı

təşkil etmək üçün İrəvan, Quba, Gəncə, Şamaxıda hərbzədə müsəlmanlara kömək etmək üzrə bölgə komitələri və şöbələr təşkil olundu. İrəvan Qubernatorundan icazə alındıqdan sonra da fevral ayında Naxçıvan Komitəsi yaradıldı. Bu komitəyə Cəfər Qulu Xan Naxçıvanski başçılıq etdi.

Yaradılan komitələr vasitəsiylə Qafqazın dərhal hər yerində kömək toplama işləri başladılarkən, "Hərbzədə Müsəlmanlara Kömək Komitəsi" ilk yığıncağında ilk köməkləri fəlakət bölgələrindəki müsəlmanlara çatdırmaq üzrə bir heyət meydana gətirdi. Bu heyətin vəzifəsi köməkləri aparmaq və paylanmasına nəzarət etməkdən başqa, bölgədəki vəziyyəti araşdıraraq, ehtiyacın miqdarını təyin etmək idi. Bunların verəcəkləri məlumatlar istiqamətində kömək hazırlıqları ediləcəkdi. Heyət Qars, Sarıqamış, Xorasan və ətraf yerləri gəzərək gətirdikləri köməkləri xalqa payladıqdan sonra Bakıya döndü. Bölgədəki təsbitləri haqqında Bakı Müsəlman Cəmiyyəti Xeyriyəsinə bir hesabat təqdim etdi. Hesabatda bu bölgələrdəki müsəlman əhalinin pis vəziyyəti ifadə edildikdən sonra əgər ən qısa zamanda lazımlı köməklər edilməzsə buralarda olan müsəlman əhalinin aclıqdan və soyuqdan qırılacağı bildirilirdi.

Döyüş boyunca hər təbəqədən insanların qatıldığı bu kömək fəaliyətlərinə ən böyük yardımı təqdim edənlərin başında Azərbaycan türk mətbuatı gəlmişdir. İlk günlərdən etibarən Azərbaycanda çıxan qəzetlərdə Anadolu fəlakətzədələrinə kömək edilməsi üçün yüzlərlə məqalələr yazılaraq, Azərbaycan xalqının bu mövzuda məlumatlandırılması və şüurlandırılmasına təşəbbüslər olmuşdur. Azərbaycanda olan yazar və şairlərin cəhdiylə 11 Mart 1915-ci il tarixində, bir ədədlik "Kardaş Köməyi" adıyla bir qəzet nəşr olundu. Qəzetin gəliri "hərbzədələr"in faydasına istifadə edilərkən Novruz bayramının ikinci gününə rast gələn bu tarixdə Bakıda heç bir müsəlman qəzeti çıxarılmayıb, bu qəzetdən əldə edilən gəlirin hamısı müsəlman hərbzədələr üçün ayrıldı. Ayrıca Kardaş Köməyi qəzetinin çıxarılması üçün əməyi keçən yazar və işçilər də daxil, heç kim ödəniş almadı.

Azərbaycanlı türk yazarlar tərəfindən bir ədəd olaraq 1917-ci ilin mayında çıxarılan jurnalın məsul müdiri eyni zamanda Cəmiyyəti-Xeyriyyənin də başçısı olan Mirzə Əsadullayev idi. Ərəb hərfləriylə Türkcə olaraq çıxarılan "Qardaş Köməyi" jurnalının baş qismində məqsədi bu şəkildə ifadə edilməkdə idi:

"Hasilatı hərbzədələr faidəsinə getmək üçün mühərrirlər tərəfindən nəşr olunmuş siyasi, ədəbi, ictimai bir məcmuədir."

Cəmiyyəti-Xeyriyyənin könüllüləri un paylayarkən

Seyid Camal ƏZİMBƏYLİ
Qarabağ Seyyid Ocaqlarının təmsilçisi, şərqşünas

AZƏRBAYCANDA XEYRİYYƏ VƏQFLƏRİ

Azərbaycanda xeyriyyəçilik ənənələrinin tarixi olduqca qədimdir. Əhalisinin əksəriyyəti müsəlman olan millətimizin şərəfli tarixinə nəzər saldıqda müqəddəs dinimizin gətirdiyi dəyərlər içərisində xeyriyyəçilik ənənələrinin qorunub saxlanılmasında və mühafizə olunmasında vəqflərin ayrıca xidmətləri olmuşdur. Azərbaycanda Xalq Cümhuriyyəti illərində həqiqi inanc adamlarının sosial-iqtisadi durumunun müəyyən edilməsi milli hakimiyyətin dövlət siyasətinə çevrilmişdir. Milli hökumət bu sahədə müntəzəm olaraq tədbirlər həyata keçirərək gerçək din adamlarının sevgisini və etibarını qazana bilmişdir. Xalq Cümhuriyyəti illərində mövcud hökumət vəqf mülklərinin idarə olunması, dini vergilərin, sədəqə və ianələrin toplanmasına heç bir müdaxilə etmirdi. Belə mühüm sahələr hökumət tərəfindən din xadimlərinin ixtiyarına verilmişdi. Azərbaycan Xalq Cümhuriyyəti tarixində milli hakimiyyət bütün vəqf mülklərinin dövlət qeydiyyatına alınmasına cəhd etmişdi.

Bolşevik rus və milli dönüklərin işğalı nəticəsində müsəlman ruhanilərinin vəqf mülkləri müsadirə olundu. Bununla da ölkə ruhaniliyinin sosial-iqtisadi vəziyyəti çətin duruma düşdü. Azərbaycanda hələ xanlıqlar çağında ruhanilərlə yanaşı xalqın kasıb təbəqəsinin iqtisadi vəziyyəti vəqf mülklərindən əldə olunan gəlirlər hesabına yüksəlmişdir. Belə bir şəraitdə hətta ali ruhani zümrənin təmsilçiləri bəylərlə, ağalarla eyniləşirdi. Ali təbəqədən olan ruhanilərə xanlar tərəfindən xüsusi imtiyaz vəsiqəsi verilirdi. Həmin illərdə Fətəli xan tərəfindən Hacı Çələbi Əfəndiyə verilmiş təliqədə deyilirdi: "Hörmətli cənab, yaxşı axund, xeyirxah insan, atam yerinə hesab etdiyim Hacı Çələbi Əfəndi! Sizin məktubunuzu aldım… Məktubunuzda Taxta Körpü qışlağı haqqında yazırsınız… Mənim bütün mülklərim sizindir, sizdən heç nə əsirgəmərəm. Siz Taxta Körpü qışlağını istəyirsiniz və mən onu sizə əbədi olaraq bəxş edirəm və heç kəs ona toxunmağa cürət edə bilməz". Axirətini öz malı və mülkü hesabına qazanan millətimizin yüzlərlə belə örnək zəngin kişilərini bu gün də rəhmətlə anırıq. Vəqfin lüğəvi mənası "qoruyub saxlamaq", hüquq mənası isə "əmlakın saxlanılması və mənfəətin qaydaya salınması" deməkdir. Həmin dövrdə vəqf mülklərinə ayrı-ayrı kəndlər, torpaq sahələri, bağlar, evlər, dükanlar, hamamlar, daxil idi. Məhz orta əsrdə vəqflər hesabına çoxlu məscidlər, mədrəsələr və məktəblər inşa edilirdi. Azərbaycanda orta əsrlərdə minlərlə alim, filosof, şair, yazıçı və həkim vəqflərin gəliri hesabına fəaliyyət göstərən elm mərkəzlərinin layiqli yetirməsi olmuşlar. Həmin zamanda bir sıra kənd və şəhərlərdə vəqf əmlakından bəhrələnərək yoxsul təbəqənin ehtiyacları naminə pulsuz olaraq hamamlar, su anbarları, böyük yol ayrıclarında isə körpülər və kar-

vansalar yoxsulların ixtiyarına hədiyyə olaraq verilmişdir. Orta əsr Azərbaycan mədəniyyəti və elminə nəzər saldıqda vəqflərin gəlirləri hesabına xeyli sayda təhsil ocaqlarının dirçəlişinə səbəb olduğuna şahid olmaqdayıq. Nəsrəddin Tusinin səyi nəticəsində Marağa rəsədxanası, Qazan xan tərəfindən təsis edilən Təbriz rəsədxanası, Səmərqənddə yaradılan Uluğbəy rəsədxanası və II Sultan Murad tərəfindən İstanbulda inşa edilən rəsədxana vəqf əmlakından toplanan gəlirlər hesabına xidmət göstərmişdir. Vəqf mülkiyyətindən ictimai əhəmiyyətiylə təkcə inanc adamları deyil, həm də həmin dövrdə cəmiyyətin digər üzvləri də bütünlüklə faydalana bilmişlər. Orta çağda islami hökmlərə görə vəqf haqqında islami qaydalar bərabər hüquqla xristan və yəhudi məbədlərinin vəqf torpaqlarına da aid edilirdi. Bununla bağlı zamanın müctəhidi Mirzə Mehdinin 1812 ci ildə imzaladığı fətva mövcuddur. Burada zəruri qeyd etməliyəm ki, mübarək dinimizin mərhəmət və sevgi dəyərlərinə müdrik xalqımızın əsrlər boyunca sadiqliyinin, vəfasının sübutunu görməkdən qürur duymaqdayam. Ölkəmizin ərazisində tarixən onlarla müqəddəs ziyarətgahlar mövcud olmuşdur. Əksər hallarda belə müqəddəs qəbul edilən məkanlarda mübarək insanların, seyyidlərin, şeyxlərin qəbirləri yerləşmişdir. Qədir bilən, Əhli-Beytə vəfada sadiq olan müsəlman əhalimiz yüz illərdir ki, müqəddəs və toxunulmaz qəbul etdikləri belə ünvanları ziyarət etməklə öz mənəvi duyğularını qidalandırmaqdadır. Hələ xanlıqlar zamanında vəqflərin gəlirləri hesabına belə müqəddəs qəbirlərin yanında müridlərin yaşaması və qəriblərin rahat gecələmələrindən ötrü xüsusi binalar inşa edilərək xalqa ərməğan edilmişdir. Belə ən böyük vəqflərdən biri 7-ci imam Əli Rzanın bacısının qəbri olan Bibi Heybət məqbərəsinin vəqfi sayılırdı. Bibi Heybət məqbərəsi vəqfinin yerləşdiyi ərazi böyük torpaq sahələri, otlaqlar, Şıx kəndində 3 neft quyusu, Zığ kəndində bağlar və s. bu vəqfə məxsus idi. Bu məqbərənin və vəqfin başçısı Şeyx Bünyad nəslinin bu vəqfin gətirdiyi qazancın yarısından istifadə etmək hüququ vardı. Gəlirin yarısı isə Bibi Heybət məscidinə xərclənirdi. Qubalı Fətəli Xan burada dəfn olunduqdan sonra vəqfin torpaq sahələri daha da genişləndi. Belə olduqda vəqfin mütəvəllisi toxunulmaz elan edildi. Azərbaycanda məşhur vəqflər arasında Bakı yaxınlığında Şeyx Əbu Səid məqbərəsi də böyük vəqflərdən sayılırdı. Qarabağ xanlığında ən böyük vəqf Cövhər Ağa vəqfi qəbul edilirdi. Belə ki, Qarabağ xanı İbrahim Xanın qızı Cövhər Ağanın tikdirdiyi Cövhəriyyə məscidinə məxsus olan 4 kənd mövcud idi. Gəncə xanlığında "İmamzadə" vəqfi, Təbriz xanlığında Seyid İbrahim, Seyid Həmzə, Sahibul Əmir, Eynalı-Zeynalı və digər məşhur ziyarətgahların ixtiyarında xeyli vəqf mülkləri vardı. Bu gün ölkəmizdə dövlətimiz tərəfindən xeyriyyəçilik ənənələrinin, milli və mənəvi irsimizin mühafizə olunması sevindirici haldır. Son illər tarixi müqəddəs memarlıq abidəsi sayılan binaların dövlət qayğısıyla yüksək səviyyədə təmir edilməsi dövlətimizin xalqımızın keçmişinə göstərilən hörmətin əlamətidir.

Qeyd: yazıda göstərilən faktlar R. Hüseynlinin "Azərbaycan Ruhaniliyi" əsərindən götürülmüşdür.

Ölkəmizin ərazisində tarixən onlarla müqəddəs ziyarətgahlar mövcud olmuşdur. Əksər hallarda belə müqəddəs qəbul edilən məkanlarda mübarək insanların, seyyidlərin, şeyxlərin qəbirləri yerləşmişdir. Qədir bilən, Əhli-Beytə vəfada sadiq olan müsəlman əhalimiz yüz illərdir ki, müqəddəs və toxunulmaz qəbul etdikləri belə ünvanları ziyarət etməklə öz mənəvi duyğularını qidalandırmaqdadır.

Dr. Əhməd NİYAZOV
ahniyazov@hotmail.com

SOSİAL MƏSULİYYƏT NÜMUNƏSİ

Qədim tarixi İbrahim peyğəmbərə gedib çıxan vəqf mədəniyyəti və xeyriyyəçilk "mülkiyyəti Allaha, mənfəəti isə insanlara" fəlsəfəsinə dayanan sosial məsuliyyətdir.

Ölkəmizin şimal-qərb bölgəsi həm vəqf mədəniyyəti, həm də xeyriyyəçilik ruhu baxımından zəngin və dərin keçmişə malikdir.

Hər şeydən əvvəl qeyd etmək lazımdır ki, bu bölgədəki vəqflərin əksəriyyəti məscid, hücrə və bulaqlardan ibarətdir. Vəqfnamələrdən və bölgə tarixçilərinin məlumatlarından aydın olur ki, bu məscid və hücrələrin böyük hissəsi vəqf edilən torpaqlarla, şəxsin və ya ailənin mülkünə aid torpaqda bina tikərək birbaşa insanların istifadəsinə verməsi ilə olmuşdur. Qax rayonunun Suskan kəndi məscidinə aid vəqfnamə kimi sənədlər bunu göstərir.

Tarixi əhəmiyyətə malik məlumatlardan biridir ki, bölgədə 1820, 1830 və nəhayət, 1963-cü il üsyanlarının hamısında rusların torpaq siyasəti dururdu. Bunlara kəşkül torpaqlar da deyilirdi ki, hər bir islahat üçün insanlar üsyana qalxmış, əlindəki torpaqlardan vaz keçməmişdir. Mülkiyyəti üçün kafirə qarşı belə bir qarşıdurma göstərən bölgə insanı özünün mənəvi dəyərləri qarşısında həddindən çox comərd və xeyirxah davranmışdır.

Məsələn, bölgə ərazisində ən böyük məscid Tala məscididir ki, burada 1700 nəfər eyni anda ibadət bilir. Vəqfnaməsindən məlum olur ki, məscid ərazisi 1828-ci ildə Bayram oğlu Süleyman tərəfindən vəqf edilmiş, ərazidə Nəqşi şeyxi Talalı Əhməd Əfəndinin (1839-1903) başçılığı və Tala camaatının yardımları ilə tikilmişdir. Maraqlı bir məlumatdır ki, məscidin örtüsü üçün lazım olan ağ dəmir əhvalatı Quranın "Xeyirdə yarışın" ayəsinin xalq arasında təzahürünü göstərən bir nümunədir. Talalılar tikiləcək məscidin dam örtüyünə lazım olan dəmir təbəqə üçün Bakıya bir heyət göndərərək bunun ticarəti ilə məşğul olan Hacı Zeynalabdindən həmin malı satın almaq istəyirlər.

Tağıyev heyəti qarşıladıqdan sonra belə böyük və möhtəşəm binanın tikildiyini öyrənəndə dəmiri satmağa kəskin etiraz edir. Heyət Bakıdan əliboş qayıdıraq Tağıyevin Tala camaatına müraciətini belə çatdırır: "Dəmirin məccaniyən (pulsuz) Allah rizası üçün verilməsini dilərsəniz, göz üstündə yeriniz var. Ancaq pul ilə sizə heç vaxt dəmir satmaram."

Öz aralarında məsləhətləşən talalılar dəmiri başqa yerdən almaq qərarına gəlirlər. Tiflisə və Dərbəndə adam göndərirlər. Amma onlar da əliboş qayıdılar. Çünki getdikləri hər yerdə təbəqə dəmirin Tağıyev tərəfindən satın alındığını öyrənirlər. Yenidən Bakıya adam göndərərək Tağıyevin təmənnasız əta etdiyi 2000 ədəd ağ dəmir təbəqəsini qatarla Yevlaxa, oradan da arabalarla Talaya daşıyırlar.

Balakən mərkəz məscidi də həmçinin Hallac Məhəmməd oğlu Leko tərəfindən vəqf edilmiş böyük bir ərazidə tikilmişdir.

Bölgə ilə bağlı yazılar göstərir ki, burada xeyriyyəçilik işləri təkcə bu tikililərlə məhdud deyil. Burada həm də kütləvi yardımlaşma sözləşməsi ilə sosial məsuliyyət anlayışı ən yüksək səviyyədə gerçəkləşmişdir. Məsələn, XIX əsrə aid Qımır kənd camaatının yazılı bir sənədlə bir-biri arasında yardımlaşmaya dair təşkil etdikləri əhdnamə diqqəti xüsusi cəlb edir. Belə ki, kənd imamı Molla Mustafaya yazdırılmış və dövrün üç hakiminə təsdiq etdirilmiş yazıda əgər bir nəfərin başına bir müsibət gəlsə, evi, çardağı və ya bir tikilisi yanarsa, bütün kənd camaatı onun bərpası üçün həm maddi vəsaiti, həm də əl əməyi ilə iştirak edəcəkləri qeyd edilir.

Buradakı xeyriyyəçilik işlərindən biri də alimlərin öz elmlərini insanlardan əsirgəməmələri və elmdə xeyriyyəçilik ənənəsi ilə çıxış etmələridir. Əlyazma kitabların sonlarındaki qeydlər kitabların yazılaraq vəqf edildiyini, bunların satıla bilməyəcəyi, bağışlana bilməyəcəyi və hibə edilə bilməyəcəyini yazır. Bir alimə aid müxtəlif əsərlər bölgənin müxtəlif yerlərində yazılaraq oranın məscidi və ya mədrəsəsinə təqdim edilmişdir. Kim bunu dəyişdirərsə günahı ona aiddir ayəsi yanında "ömür fani, sətirlər isə əbədidir" kimi nəsihətlər qeyd edərək böyüklərimizdən birinin sözü ilə desək kitabların gələcəyə yazılmış məktublar olduğuna diqqəti yönəltmişdirlər. Qurban Əfəndi Meşləşi bu alimlərin ən məşhurudur ki, bir çox bölgədə öz dəsti-xətti ilə yazdığı nəhv-sərf əsərlərinə, kəhf cüzlərinə, fiqhlə bağlı risalələrinə rast gəlirik.

Tağıyev heyəti qarşıladıqdan sonra belə böyük və möhtəşəm binanın tikildiyini öyrənəndə dəmiri satmağa kəskin etiraz etdi. Heyət Bakıdan əliboş qayıdıraq Tağıyevin Tala camaatına müraciətini belə çatdırdı: "Dəmirin məccaniyən (pulsuz) Allah rizası üçün verilməsini dilərsəniz, göz üstündə yeriniz var. Ancaq pul ilə sizə heç vaxt dəmir satmaram."

Bölgəyə məxsus "Kəhf cüzləri" ənənəsi buna daha gözəl nümunədir ki, gözəl dəsti-xətt ilə yazılan cüzlər həm ibadət üçün oxunmuş, həm də dindarların məsciddə tilavət və mütaliə etmələri üçün məscidin də adı qeyd edilərək vəqf edilmişdir.

Bölgədə xeyriyyəçiliyin bir nümunəsi də ətraf-bayır, dağ-daş, hər tərəfdə ən çox gözə dəyən meyvə ağacı, tut ağacı olmasıdır. Sədəqə ağacı kimi baxılan bu ağacın meyvəsinin satılması günah hesab edilmişdir. Bu da yəqin ki, tutun insan da içində olmaqla bahara çıxmış canlıların ilk qovuşduqları ən şirin meyvə olmasıdır. Nə xoş təvafüqdür ki, bir neçə il əvvəl Zaqatala bazarında şahid olduğumuz mənzərə bunun ən gözəl isbatıdır. Bazarda tut meyvəsi satıldığını görən yaşlı qadın: "Tut bazara çıxıbsa qiyamət yaxınlaşıbdır" deyərək zehin dünyasındakı təəssüflərini bəyan etmişdi.

Prof. Dr. Minəxanım NURİYEVA*

Tariximizdə Azərbaycan qadınlarının xeyriyyəçilik fəaliyyətləri

XIX əsrin sonu XX əsrin əvvəllərində Azərbaycanın paytaxtı Bakı mədəni yüksəliş illərini yaşayırdı. Artıq bu dövr ərzində xeyriyyəçilik geniş miqyas almaqla forma və məzmunca dolğunlaşıb yeniləşir, hüquqi normaya çevrilməklə isə təşkilatlanırdı. Yəni Azərbaycanda 19-cu əsrin ikinci yarısından kapitalist münasibətlərinin sürətli inkişafı ölkədə ictimai-iqtisadi münasibətlərlə yanaşı, həm də əhalinin sosial-mədəni həyatına da öz təsirini göstərmişdi. Bakıda həmin dövrlərdə mədəni-maarif sahəsində bir-birinin ardınca "Nəşri - Maarif", "Nicat", "Şəfa", "Qafqaz Müsəlman Qadınları Xeyriyyə Cəmiyyəti" kimi qabaqcıl cəmiyyətlər meydana gəldi. Toplanan vəsait dərhal təminatsız, yoxsul əhalinin ehtiyaclarına sərf olunurdu.

Öz dolğun çağlarını sürməkdə olan bu mədəni-ictimai mühitdə Azərbaycan qadınlarının çiyinlərinə götürdükləri vəzifələr də böyük idi. Xeyriyyə işlərini təkcə yoxsulluqla mübarizədən ibarət görməyən və başlıca olaraq maarifçilik yolunu seçən qadınlarımız ictimai həyata fəal şəkildə müdaxilə etməli olurdular. Bu qadınların həyat və fəaliyyətlərini izlədikcə gözlər önünə məşələ çevrilən neçə-neçə ömür gəlir.

Azərbaycanda, xüsusən Bakıda müxtəlif xeyriyyəçilik fəaliyyəti ilə məşğul olan bu fədakar qadınlarımız xeyriyyə gecələri təşkil edir, şəfqət və mərhəmət aksiyaları keçirir, aclara, kimsəsiz və yetimlərə yardım etməklə bərabər müharibə fəlakətzədələrini-əsirləri, yaralıları da himayə edirdilər. Bu zaman xüsusilə Sona xanım Tağıyevanın, Liza xanım Tuqanova-Muxtarova, Sona xanım Hacıyeva, Hənifə Zərdabinin, İsmət xanım Aşurbəyli, Məryəm Bayraməlibəyova, Rəhilə xanım Qazıyeva, Sara xanım Vəzirova, Sürəyya Axundova, Pəri xanım Topçubaşovanın adlarına tez-tez rast gəlinirdi. Bu qadınlar məhz öz xeyirxah əməlləri ilə tarixdə qaldılar.

Onların fəal yardımı ilə Bakıda tibb sağlamlıq ocaqları açılır, uşaq evləri və pansionlar fəaliyyətə başlayır. Xalqın ictimai-siyasi həyatında mühüm mövqe qazanan xeyriyyə cəmiyyəti I Dünya müharibəsi illərində coşqun işə keçir; müharibənin başlaması ilə onların fəaliyyət meydanı daha da genişlənir, buraya Qafqaz cəbhəsində əsir düşən Osmanlı dövləti əsgərlərinin azad edilməsi və himayə edilməsi də daxil olur.

Respublika Dövlət Tarix Arxivində bu məzmunda materiallar sırasında əlimizdə olan sənədlər maraqlı bir hadisənin bu gün örnək olaraq diqqətə alınmasına səbəb oldu; bu yerli Bakı zənginləri cəmiyyətinə məxsus Duma üzvü kərbəlayi İsrafil Hacıyevin xanımı Sona xanım Hacıyevanın I Dünya müharibəsi hərbzədələrindən olan Nargin adasında saxlanan Osmanlı ordusu zabitlərinin buradan qaçırılmasında iştirakçı, bəlkə də onun təşkilatçılarından biri olmasındadır. Məhz belə fədakar insanların səyi ilə əsir zabitlər gizli şəkildə Təbriz yolu ilə Anadoluya qaçırılır və ya azad edilən bu zabitlər gələcək Azərbaycan ordusu üçün hərbi kadrlar kadrını hazırlamaqdan ötrü ölkədə qalmalı olurdu.

Burada Azərbaycanın maarifpərvər qadınlarından olan Həmidə xanım Cavanşir haqqında xüsusilə danışılmağa layiq bir hə-

yat yolu keçmiş xeyriyyəçi qadınlarımızdan biridir.

Həmidə xanım sırf xeyriyyəçilik tədbirləri ilə yanaşı bu işi həyat idealına çevirən və daha geniş miqyasda irəlilədən mərd, mübariz bir qadın olmuşdur. Qarabağ xanları nəslindən gələn Həmidə xanım atası Əhməd bəy Cavanşirin ölümündən sonra Qarabağda təkbaşına ailə mülkünü idarə etməli olmuşdu. Taleyini böyük demoktat yazıçı-mühərrir Mirzə Cəlillə bağladıqdan sonra tezliklə onun yaxın maarifçi silahdaşına, vəfalı dostuna çevrilir. Həmidə Cavanşir Azərbaycan maarifinin inkişafında müstəsna əhəmiyyəti olan "Molla Nəsrəddin" jurnalını himayə etmiş, bu yolda bir an olsun maddi dəstəyini kəsməmişdir. Onun həyat tarixçəsi əliaçıqlıq, xeyriyyəçilik təşəbbüsləri ilə doludur; Qarabağda yoluxucu xəstəliklər tüğyan edəndə bir tərəfə çəkilib gizlənmir; bir şəfqət bacısı kimi adamların sağlığının keşiyində durur, yaxud əkinləri çəyirtkə məhv edəndə xalqı aclıq təhlükəsindən müdafiə edir, hər zaman öz evində də yetim və tavanasız ailələrin uşaqlarını saxlayıb onlara əsl analıq edir. "Molla Nəsrəddin"çilərdən olan hər bir ziyalını, o cümlədən böyük şair Mirzə Ələkbər Sabiri Tiflisə gətirdib müalicə etdirir. Şair ondan gördüyü yaxşılıqları unuda bilmir, Abbas Səhhətə yazırdı: "Mirzə Cəlil və Həmidə xanım cənablarından çox razıyam. Bilmirsən mənə nə qədər ehtiram edirlər! Bu neçə müddətdə təmam məxaricimi və zəhəmatımı mütəhəmmil olmuşlar. Mənim mehmanxana, ya xəstəxanada yatmağıma razı olmadılar, öz evlərində mənzil vermişlər. Xülasə, bilmirəm nə dil ilə təşəkkür edim?!"

Həmidə xanımın xatirələrindən məlum olur ki, Tiflisdə nəcib qızlar məktəbi olan "Müqəddəs Nina" məktəbində Azərbaycan dili müəllimi olmadığından dərslərin keçilməməsindən narahat olan Həmidə xanım məktəbə müəllim təyin etdirib, maaşını özü verir. Daha sonralar, 1909-cu ildə Həmidə xanım Kəhrizlidə öz vəsaiti hesabına tibb məntəqəsi, toxuculuq emalatxanası, 30 oğlan və 10 qızın oxuduğu məktəb açdırmışdır.

Fədakar qadınlarımız xeyriyyə gecələri təşkil edir, şəfqət və mərhəmət aksiyaları keçirir, aclara, kimsəsiz və yetimlərə yardım etməklə bərabər müharibə fəlakətzədələrini-əsirləri, yaralıları da himayə edirdilər. Bu zaman xüsusilə Sona xanım Tağıyevanın, Liza xanım Tuqanova-Muxtarova, Sona xanım Hacıyeva, Hənifə Zərdabinin, İsmət xanım Aşurbəyli, Məryəm Bayraməlibəyova, Rəhilə xanım Qazıyeva, Sara xanım Vəzirova, Sürəyya Axundova, Pəri xanım Topçubaşovanın adlarına tez-tez rast gəlinirdi. Bu qadınlar məhz öz xeyirxah əməlləri ilə tarixdə qaldılar.

Bu yorulmaz fədakar qadın burada işə cəlb etdiyi müəllimlərlə bir sırada özü də dərs deyir. Yenə xatirələrindən məlumdur ki, Azərbaycan Xalq Cümhuriyyəti qurulma ərəfəsində Qarabağda milli qarşıdurmada öz vəsaiti hesabına yerli döyüşçü dəstələri təşkil edir.

Həmidə xanım Tiflisdə yerləşən Qafqaz Müsəlman Qadınları Xeyriyyə Cəmiyyətinin (1906-1917) yaradıcılarından idi. Xatirələrində göstərdiyi kimi Qafqaz canişini, general, qraf Voronsov-Daşkovun sərəncamı ilə yaradılan bu cəmiyyətdə Tiflisin adlı-sanlı qadınları- Sofiya xanım Şahtaxtinskaya, Mələksima Qacar, Gövhər Qacar, xanım Alixanova-Avarski birləşmişdilər. Cəmiyyət 1910-cu ilin əvvəllərində Qafqaz Müsəlman Qadınlarının Xeyriyyə Cəmiyyətinə çevrilir. Artıq cəmiyyətin işinə Tiflisin adlı-sanlı ailələrinə mənsub olan çoxlu sayda ziyalı qadın cəlb olunmuşdur; burada indi Gövhər xanım Qacar, Nigar xanım Şıxlinskaya, Məsumə xanım Talışinskaya, Mina xanım Talışinskaya, Həmidə xanım Cavanşir, Səltənət xanım Əhmədova geniş fəaliyyət göstərməkdədir. Çox keçmir ki, cəmiyyətin nəzdində bir neçə qız məktəbi yaradılır. Bu hərəkat çox keçmir ki, Azərbaycanın hər bir yerində maarifçilik məşəllərini alovlandırdı. Gəncə Müsəlman

Qadın Komitəsi üzvlərindən Mədinə xanım Vəkilova-Qiyasbəyli 1906-cı ildə Salahlı kəndində öz evində qadın məktəbi açır. Həmin ildə Gövhər Cəfərzadə-Şövqiyyə də Şamaxıda öz evində qadınları məktəbə cəlb edir.

Azərbaycanda maarifçilik ideyalarının yayılmasına və milli oyanışına təkan verən müsəlman xeyriyyə cəmiyyəti olan "Nicat"dan (burada ilk açılmış qadın bölmələrindən) doğan, onların təcrübəsi əsasında meydana gələn Müsəlman Qadın Xeyriyyə cəmiyyəti öz ətrafında ölkənin parlaq simalarını birləşdirməklə bu cəmiyyətin fəaliyyət tarixi bu gün görkəmli qadınlarımızın pak amalından, xeyirxah əməlindən xəbər verən bir etibarlı sənəddir. Bu ənənənin dirçəldilməsi, ona geniş ölçüdə rəvac verilməsi düşünürəm ki, Azərbaycan cəmiyyəti daxilində davamlı bir harmoniyanın yaranmasına, halallığın təbliğ olunmasına, humanizm prinsiplərinin geniş şəkildə əks olunmasına və eyni zamanda sosial ədalətin, həmrəyliyin bərqərar olunmasına yardım edəcəkdir.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev "Azərbaycan Respublikası regionlarının 2009-2013-cü illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı"nın icrasının birinci ilinin yekunlarına həsr olunmuş konfransdakı çıxışı zamanı sahibkarların sosial təşəbbüslərə daha da fəal qoşulmalarının vacibliyini nəzərdə tutmaqla: "Bu gün Azərbaycanda çox böyük, regional, yəni, transmilli mahiyyət daşıyan şirkətlər vardır. Onların böyük dövriyyələri, böyük kapitalı vardır. Mən bunu ancaq alqışlayıram. Yəni, biznesin, sahibkarlığın sosial məsələlərin həllində də iştirakı, hesab edirəm ki, həm iş adamlarına mənəvi bir qida verəcək, həm də ölkəmizin inkişafına səbəb olacaq. Bu proseslər gedir və xüsusilə, bölgələrdə sahibkarlar öz maliyyə resurslarını məktəblərin tikintisi sahəsində işə salırlar. Mən istərdim ki, bu işlər başqa sahələrdə də, əlbəttə ki, imkan daxilində görülsün. Bu işlər, əlbəttə ki, məcburi xarakter daşıya bilməz. Ancaq imkanlı firmalar, şirkətlər, iş adamları ağır vəziyyətdə yaşayanlara əl uzatsalar yaxşı olar" Azərbyacandan xaricdə minlərlə tələbəmiz oxuyur. Onların müəyyən hissəsi dövlət proqramı çərçivəsində oxuyursa, müəyyən hissəsi dövlət proqramı çərçivəsində oxumur, kömək lazımdır. Azərbaycanda müalicəsi olmayan xəstələr var ki, onların vəsaiti yoxdur. Və yaxud da özəl xəstəxanalarda son texnologiyaları tətbiq etməyə ehtiyac duyurlar. Bütün bunların hamısının hüquqi əsaslarını yaratmaq lazımdır və ümumi bir məxrəcə gətirməkdən ötrü xeyriyyəçilik qanununun qəbul olunmasına ehtiyac var... Azərbaycandakı Heydər Əliyev fondu (2004) prezidenti Mehriban Əliyeva) ümummilli lider Heydər Əliyevin ideyalarının yaşadılması niyyətilə təsis edilmişdir. Məhz böyük öndərin ölkəmizin sosial-iqtisadi, mədəni tərəqqisi, sivil dünya birliyinə inteqrasiyası, xalqın maddi rifahının yaxşılaşması naminə müəyyən etdiyi siyasətin öyrənilməsinə, təbliğinə və bu ideyaların həyata keçirilməsini təbliğ etmək məqsədilə təsis edilmiş və fəaliyyətinin əsas istiqamətləri təhsil, səhiyyə, mədəniyyət, sosial, idman, elm-texnologiya, ekologiya və nəşr sahələrinə yönəlmişdir. Artıq Azərbaycanda qürurla: mükəmməl bir xeyriyyəçilik institutu yaradılmaqdadır deyilə bilər. Ənənələr yaşayır, yaşadılır...

Xeyriyyə işlərini təkcə yoxsulluqla mübarizədən ibarət görməyən və başlıca olaraq maarifçilik yolunu seçən qadınlarımız ictimai həyata fəal şəkildə müdaxilə etməli olurdular. Bu qadınların həyat və fəaliyyətlərini izlədikcə gözlər önünə məşələ çevrilən neçə-neçə ömür gəlir.

Qafqaz Universiteti Qafqaz Araşdırmaları institutu

Fanilər deyil, Baqi olan bilsin!

İslam tarixinin ilk illərində Mədineyi-Münəvvərədə bəzi kasıbların qapısına naməlum bir adam hər səhər bir çuval ərzaq qoyurdu. Həmin kasıblar bir gün səhər oyanıb gördülər ki, qapıya ərzaq qoyulmayıb. Səbəbini öyrənməyə çalışarkən həzin səla səsi eşidildi və Mədineyi-Münəvvərə Həzrət Əlinin nəvəsi Zeynəladbidin həzrətlərinin vəfat xəbəri ilə sarsıldı. Hamı dərin hüznə qərq oldu.

Bu Peyğəmbər övladına qarşı son vəzifələrin icrasına başladılar. Növbə mübarək cəsədinin yuyulmasına gələndə bu şərəfli vəzifəni görəcək adam mərhumun kürəyində suluqlamış böyük yaralar gördü. Səbəbini anlamadı. Yaxınlarından soruşduqda isə Əhli-Beytdən orada olan və bu sirrə vaqif bir nəfər belə dedi:

"Zeynəlabidin həzrətləri hər səhər hazırladığı ərzaq çuvallarını belində daşıyaraq ehtiyac sahiblərinin qapısına qoyar, heç kimin gözünə görünmədən geri qayıdardı. Camaat da bu çuvalları kimin qoyduğunu bilməzdi. Kürəyindəki həmin yaralar o çuvalları daşımaqdan olub".

QIZ MƏKTƏBİNDƏ

- Quzum, yavrum! Adın nədir?
- Gülbahar.
- Pəki, sənin anan, baban varmı?
- Var.
- Nasıl, zənginmidir baban?
- Əvət, zəngin, bəyzadə...
- Öylə isə, geydiyin geyim neçin böylə sadə?

Yoxmu sənin incilərin, altun bilərziklərin?
Söylə, yavrum! Heç sıxılma...
- Var əfəndim, var... lakin
Müəlliməm hər gün söylər, onların yox qiyməti,
Bir qızın ancaq bilgidir, təmizlikdir ziynəti.
- Çox doğru söz... Bu dünyada sənin ən çox sevdiyin
Kimdir, quzum, söylərmisən?
- Ən çox sevdiyim ilkin
O Allah ki, yeri-göyü, insanları xəlq eylər.
- Sonra kimlər?
- Sonra onun göndərdiyi elçilər.
- Başqa sevdiklərin nasıl, yoxmu?
- Var...
- Kimdir onlar?
Anam, babam, müəlliməm, bir də bütün insanlar...

Hüseyn CAVİD

İRFANİ BAXIŞ
Nurlan MƏMMƏDZADƏ
nmemmedzade@mail.ru

YAXŞI ADAMLAR YAXŞI ATLARA MİNMƏDƏN...

Bu yaxınlarda maraqlı bir hadisə ilə qarşılaşdım. Səhər saat 9 radələrində həmişə olduğu kimi işə gedirdim. Dayanacaqda avtobusa minib yoluma davam etdim. Yaxınlıqda biri oturan, digəri ayaq üstə dayanan iki məktəbli də vardı. Söhbətlərindən paralel siniflərdə oxuduqları anlaşılırdı. Təxminən 7-8-ci sinif şagirdi olan bu yeniyetmələr ətrafdakı sərnişinlərə əhəmiyyət vermədən hər şeydən danışırdılar. Araya qısamüddətli sükut girdikdən sonra birdən ayaq üstə olan digərinə hamının eşidəcəyi səs tonu ilə "ikinci dərsdən qaçarsan da bu gün", -dedi. Qarşı tərəf səbəbini və hara gedəcəklərini soruşdu. Qaçma təklifini edən isə "heç, elə belə, bir az gəzərik", -cavabını verdi və razılaşdılar. Eşitdiklərim bir anlıq məni düşüncələrimin tənha adasına atdı. Etiraf etməliyəm ki, bu gün bu sətirləri yazan şəxs də məktəb və universitet illərində hamı kimi dərsdən də qaçıb, hər yeniyetmənin və gəncin yoldaşları ilə birlikdə yaşadığı macəraları da azdan-çoxdan yaşayıb. Burada məni təəccübləndirən şey ondan ibarət idi ki, biz dərsdən qaçmaq planlarını qurarkən kənardan bizi kiminsə eşitməsindən utanardıq, hətta etiraf edim ki, qorxardıq. Çünki bir vaxtlar cəmiyyətdə "ictimai qınaq" adlanan bir məfhum vardı və bu məfhum vadar edirdi ki, ayaqüstü yeyilən qida tullantılarını heç kim küçəyə atmasın, ictimai yerlərdə söyüş söyülməsin, heç kim yolun ortasında maşınını saxlayaraq düşüb mağazaya girməsin, məktəblilər dərsdən qaçma planlarını xəlvət yerdə qursunlar. Bu gün isə "ictimai qınaq" məfhumu demək olar ki, sıfıra bərabərdir. Cəmiyyətimizdə belə bir halın yaranması və getdikcə vərdişə çevrilməsi çox acınacaqlıdır. Müşahidələrimə əsasən deyə bilərəm ki, məsələn, Rusiyada küçədə gedərkən yediyin konfetin kağızını yerə atsan, o dəqiqə səni görən yaşlı adamlar hərəsi bir tərəfdən danlamağa başlayacaqlar ki, bu nə biabırçılıqdır. Bu qədər məzəmməti görüb ikinci dəfə heç kəs küçəni zibilləməyəcək. Yenə bir neçə ay bundan əvvəl qardaş Türkiyədə bir mənzərənin şahidi oldum: İstanbulda hava qaralmağa başlamışdı. Məşhur ca-

melərdən birinin yaxınlığında oturub dilənən bir adam vardı. Elə hey dil töküb yanından keçənlərdən nə isə istəyirdi. Bu qədər yalvar-yaxardan sonra hər halda istədiyinə nail olmadığını görüb bu səfər belə deməyə başladı: "Verənə dua edirəm, verməyənə bəd-dua". Bu cümləni bir-iki dəfə demişdi ki, yol keçən cavan bir oğlan cəld yanına yaxınlaşıb "qardaşım, niyə camaata bəd-dua edirsən" deyib, danlamağa başladı. Səsləri ətrafa yayıldı. Bir neçə saniyənin içində hərə bir tərəfdən qınaq atəşinə tutdu o dilənçini. Adamı söylədiklərinə peşman etdilər. Zənn etmirəm ki, o dilənçi bir daha eyni sözü təkrar edə. Bizdə isə eyni mənzərə qarşısında hərə üzünü bir tərəfə çevirib müəyyən bəhanələrlə özünü görməməzliyə vurardı məncə.

Neçə vaxtdır məni düşündürən bir məsələni də oxucu ilə paylaşmaq istəyirəm. Ümumiyyətlə metro, avtobus və s. kimi ictimai nəqliyyat vasitələrinə minəndə hər dəfə beynimə bir fikir hakim kəsilir. Yadıma gəlir, biz hələ onda balaca idik, avtobusa minənlər arasında kimin əlində çanta və ya yük olardısa, oturanlardan biri mütləq bu yükü ondan alar, onsuz da ayaq üstə getmək məcburiyyətində olan bu adamın daha çox əziyyət çəkməsinə imkan verməzdilər. Yaşadığımız dövrdə isə ictimai nəqliyyat vasitələrinə belə nəcib duyğularla minən adamlar həddən artıq azalıb. (Hələ böyüklər üçün ayağa qalxmayan, yaşlılara, qadınlara, hətta əliuşaqlılara yer verməyənləri demirəm. Çünki artıq bu mövzular o qədər çox sadalanıb ki, təkrar edib başınızı ağrıtmaq istəmirəm). Hətta acınacaqlı haldır ki, əliçantalı və oturmuş bir gənc özündən yaşlı biri üçün ayağa qalxdıqda belə hörmət görən adam yerində oturduğu alicənab insanın əlindəki çantasını ondan alıb bir növ yaxşılığa yaxşılıqla qarşılıq verməyə tənəzzül etmir. Nədir görəsən bunun səbəbi? Düzdür, hər kəsi günahlandırmaq doğru deyil. Az da olsa hərdən kiminsə (maraqlıdır ki, bu hərəkəti edənlər çox vaxt gənc oğlanlar olur) arxadan başqa bir adamın çantasını dartdığını, çevrildikdə isə "qardaş, ver çantanı saxlayım" dediyini də görmüşəm. Hətta bunda israr edənləri də görürük hərdən. Amma ümumi götürdükdə bu göstərici təəssüf ki, yox deyəcək qədər azdır. Zamanla bu kimi nəcib adamların digərlərinin təsirinə düşərək tədricən onların sıralarına keçəcəyi narahatlıq hissi yaradır adamda.

Bir vaxtlar cəmiyyətdə "ictimai qınaq" adlanan bir məfhum vardı və bu məfhum vadar edirdi ki, ayaqüstü yeyilən qida tullantılarını heç kim küçəyə atmasın, ictimai yerlərdə söyüş söyülməsin, heç kim yolun ortasında maşınını saxlayaraq düşüb mağazaya girməsin, məktəblilər dərsdən qaçma planlarını xəlvət yerdə qursunlar.

Sonda məqaləmə başlıq olan ibarənin tarixçəsini birlikdə oxuyaq: Ustad Nəcib Fazilin "Aynadaki Yalan" romanının qəhrəmanı Naci vicdani arayış içində olduğu bir vaxt ona: "Sənin axtardığın yaxşı adamlar yaxşı atlara minib getdilər..." deyirlər və bu kiçik hekayə anladılır: "Bir gün cins atlara marağı olan bir nəfər cins atları ilə məşhur olan bir yerə gedir. Hansı ki, uzun illər bundan əvvəl orada olmuşdur... Tanıdığı adamlardan kimi soruşsa, "öldü" deyirlər. Filan ağa, filan dayı?.. Cavablarsa eyni: "köçdü", "öldü". Bəs filan atın balası, filan dayça… Bir cavab var: "kökü kəsildi". Ən sonda at həvəskarına belə deyirlər: Sözün qısası, yaxşı adamlar yaxşı atlara minib getdilər…

Mübariz ƏLİOĞLU

İNSAN OLMAĞIN MƏSULİYYƏTİ

Uca Allah Qurani-Kərimdə belə buyurur:

"And olsun əncirə və zeytuna; And olsun (Allah-Təalanın Musa ilə danışdığı) Tur dağına; And olsun bu təhlükəsiz (qorxusuz-xətərsiz) şəhərə (Məkkəyə) ki, Biz insanı ən gözəl biçimdə yaratdıq!" *(ət-Tin, -4)*

Rəbbimiz olan Allahın Qurani-Kərimdə insanın yaradılışı haqqında buyurduqları, Adəm övladının varlıq səbəbini dərindən düşünməyə vadar edən məqamları özündə birləşdirir. İnsan ilahi istəklə fövqəladə məsuliyyət dairəsinin mərkəzində öz yerini tutmaqla bu məsuliyyətin tələblərinə ciddi şəkildə əməl etmək məcburiyyəti ilə qarşı-qarşıyadır. Bəli, insan onu yaradan Rəbbinə qulluq etmə və Onu inanılmaz ölçülərdə tanıma keyfiyyətinə sahib olan bənzərsiz varlıqdır.

"Mən cinləri və insanları yalnız Mənə ibadət etmək üçün yaratdım!" (əz-Zəriyət, 5 6) -buyuran Rəbbimizin insan övladını qəflətdən oyandırmaq üçün Quranın mənliyimizə nüfuz edəcək ifadələri ilə bizi bir daha qulluq məsuliyyətinə dəvət etməsi ağlı olan hər bir varlıqda inkar təşəbbüslərini yerindəcə məhv etmə iqtidarındadır:

"(Ey İnsanlar!) Məgər Allahın göylərdə və yerdə olanları (günəşi, ayı, ulduzları və buludları; meyvələri, bitkiləri, dənizləri, çayları və gölləri) sizə ram etdiyini (sizin istifadənizə verdiyini), aşkar (görmə, eşitmə, sağlamlıq) və gizli (əql, şüur, fəhm, elm və i. a.) nemətləri sizə bolluca ehsan etdiyini görmürsünüzmü? İnsanlar içərisində eləsi də vardır ki, nə bir elmi, nə bir doğru yol göstərən rəhbəri, nə də bir nurani (ilahi) kitabı olmadan Allah barəsində mübahisə edər." (Loğman /20)

Təbiidir ki, Quran ayələrini və kainatdakı möhtəşəmliyi üsyan girdabına yuvarlanmış nəfsimizlə tanıma yolunu tutsaq, bu bizi əbədi rəzillik girdabına sürükləyəcəkdir. Lakin Uca Allahın təsəvvür sərhədlərini aşan mərhəməti çılğın insan təbiətini faydasız bağlantılardan qurtaracaq və ona əbədi qurtuluşun nəfəsini hiss etdirəcək bütövlükdədir:

"Allah sizi analarınızın bətnlərindən heç bir şey bilmədiyiniz (dərk etmədiyiniz) halda çıxartdı. Sonra sizə qulaq, göz və qəlb verdi ki, (Allahın əmrlərini eşidib, qüdrətini və əzəmətini görüb, vəhdaniyyətini duyub) şükür edəsiniz! Məgər (müşriklər) yerlə göy arasında (uçaraq Allaha) ram olmuş quşları görmürlər?! Onları (havada) yalnız Allah saxlayır (bütün hərəkətlərini ancaq Allah idarə edir). Həqiqətən, bunda möminlər üçün ibrətlər vardır! Allah evlərinizi sizə məskən (yaşayıb dincəlmə yeri) etdi, heyvanların dərilərindən həm köç vaxtı, həm də bir yerdə qaldığınız zaman (daşınması) sizin üçün yüngül (asan) olan evlər-çadırlar düzəltdi, onların yunundan, tükündən və qılından müəyyən vaxta qədər (ömrünüzün sonuna kimi və ya onlar köhnələnədək) istifadə edəcəyiniz ev əşyası (pal-paltar,

xalça-palaz) və (satlıq) mal verdi. Allah yaratdığı şeylərdən (ağaclardan, evlərdən, dağlardan və buludlardan) sizin üçün (günəşin hərarətindən qorunmaq məqsədilə) kölgəliklər əmələ gətirdi, sizdən ötrü dağlarda sığınacaqlar (mağaralar, kahalar), sizi istidən (və soyuqdan) saxlayacaq (yun, kətan, pambıq) köynəklər, (sizi müharibədə) qoruyacaq zirehli geyimlər düzəltdi. Allah nemətini sizə belə tamamlayıb verdi ki, bəlkə, Ona itaət edəsiniz (müsəlman olasınız)! (Ya Rəsulum! Əgər bütün bunlardan sonra müşriklər) yenə də (səndən) üz döndərsələr (ürəyini qısma)! Çünki sənin vəzifən ancaq (Mənim dinimi, hökmlərimi) açıq-aşkar təbliğ etməkdir!". (ən-Nəhl, 78-82)

Son dövrün ən böyük İslam alimlərindən olan Musa Topbaş bəyəfəndinin insanlıq məsuliyyətinə yanaşma tərzi xüsusi bir cazibəsi ilə seçilməkdədir. Qulluğa məsul olan hər bir insanın hərtərəfli tərəqqisi üçün etibarlı bir inkişaf rəhbərinə çevrilmiş dəyərli məqalələrində Musa Əfəndi bunları bildirməkdədir: *"Allah-Təala bizi Özünə qul etdi. Yerlə sürünən bir həşərat da edə bilərdi. Sevimli Rəsuluna ümmət etdi. Bunlar bizim üçün böyük nemətlərdir. Bunlardan istifadə etmək lazımdır. İnsanlar iki qisimdir: Allah-Təalaya vasil olanlar və Allah-Təalaya vasil olmayanlar. Allah-Təalaya vasil olmayanlar zahirən ibadət edərlər. İbadətləri çoxdur. Səhərə qalxanları belə vardır. Fəqət qəlbi cəhətdən inkişaf etməmişlər. Hər şeyi özlərindən görərlər. Mən etdim, mən düzəltdim və s. deyərlər. Qardaşlarını layiqincə sevməzlər. Halbuki həqiqi bir qul hər şeyin Allah-Təaladan olduğunu bilir. Madam ki, Allah-Təala bizi Özünə yaxınlıq gözəlliyinə qərq etmişdir, biz də uzaq qalanları bu yaxınlığa nail olmağa təşviq edəcəyik".*

Allaha vasil olan ariflərin, yəni ilahi rəhmət və məhəbbət nurları ilə bəsləndiklərindən dolayı, fərqli bir mənəviyyat şüuruna sahib olan bu mötəbər insanların hallarından xəbər verən Abdulqadir Ceylani belə buyurur:

Allah-Təala bizi Özünə qul etdi. Yerlə sürünən bir həşərat da edə bilərdi. Sevimli Rəsuluna ümmət etdi. Bunlar bizim üçün böyük nemətlərdir. Bunlardan istifadə etmək lazımdır. İnsanlar iki qisimdir: Allah-Təalaya vasil olanlar və Allah-Təalaya vasil olmayanlar.

"Arifin əxlaqı Allah-Təalanın əxlaqı cümləsindəndir. O, şeytanın, nəfsin və istəklərin əlindən günahkarı qurtarmaq üçün çalışır. Sizdən biriniz övladını bir kafirin əlində əsir olaraq görsə, tələşlanmazmı? Elə arif də tələşlanmaqdadır. Onun nəzərində bütün insanlar övladları kimidir. O, insanlara Allahın (c.c) əmrlərini və yasaqlarını bildirər. Sarsılmaz iman sahibi olan arif qəlbi, içi və mənası ilə digər insanlardan ayrıdır. Arif insan qəlbini dünyalıqdan və insanlardan təmizlədiyi zaman sanki maddi varlığı ortadan qalxar. Maddi və bədəni mənfəət əndişələrini hiss etmə duyğusu ortadan qalxar. Özləri üçün əsla bir şey təmənni etməz. Heç bir şeyə həris olmaz. Ariflərin Allah-Təalanın nəzərində necə dəyərləri olmasın ki, onlar Ona vasil olmuşlar, hər şeylərini Onun yolunda fəda etmişlər. Hər işlərini Haqla, Haqqın rizası yolunda sərf etmiş, Allahın xas qulları olmuşlar və arif ləqəbini almışlar."

Uca Allahın əmrlərini yerinə yetirmək və bu vəzifənin icrasında nöqsanlardan qurtulmağın Allaha gözəl bir şəkildə vasil olmaqla mümkün olacağı şübhəsizdir. Tərəddüd içində olanlara isə Rəbbimiz qətiyyətlə bildirir:

"Ey insanlar! Allahın sizə olan nemətini yada salın. Allahdan başqa sizə göylərdən və yerdən ruzi verən bir xaliq varmı?! Ondan başqa heç bir tanrı yoxdur. Elə isə necə (aldanıb haqdan) döndərilirsiniz?" (əl-Fatir, 3)

Osman Nuri TOPBAŞ
www.osmannuritopbas.com

MƏDƏNİYYƏTİMİZDƏ XEYRİYYƏÇİLİK

İslamın ruh etibarı ilə canı inancda tövhid, yəni Allahın birliyi, əməldə isə ədəb, istiqamət və mərhəmətdir. Mərhəmət imanın ilk meyvəsidir. Ondan uzaq olan bir könül diri sayılmaz. Bütün xeyrin başı olan bəsmələ və Qurani-Kərimin ilk surəsi olan Fatihə Allahın rəhmət və mərhəmətini ifadə edən «Rəhman» və «Rəhim» adları ilə başlayır. Peyğəmbərlər və vəlilərin həyat hekayələri də mərhəmət mənqibələri ilə doludur. Mərhəmətin ən açıq əlamətlərindən biri isə «infaq»dır.

Zərif, gözəl və yetkin insan yetişdirməklə əmin-amanlıq içində yaşayan bir cəmiyyət mühiti yaratmaq dinin başlıca hədəflərindən biridir. Bu yetkinlik ancaq könüllərin mərhəmət, şəfqət duyğusu ilə dolması və bunun ən gözəl əlamətləri olan zəkat, infaq və xidmətlə mümkündür. Belə ki bütün bunlar qulun Rəbbinə olan ən önəmli şükür borcudur.

Mübarək əcdadımızın səmimiyyətlə qurduğu vəqflər fəaliyyətlərinin qiyamətədək davamlı olması üçün dua edilməsi təmənnası ilə yaradılmışdır. Bu vəqflər bügünkü və sabahkı insanımızın came, məktəb, xəstəxana, kazarma və bulaq kimi ehtiyaclarını təmin etməkdə və bir çoxu hələ də xidmət göstərməkdədir. Bunlar mübarək əcdadımızın mübarək ruhlarını şad edəcək savabı tükənməyən sədəqə (sədəqeyi-cariyə), iman və nəciblik nişanəsidir.

Gerçək bir sevginin ən böyük əlaməti fədakarlıqdır. Sevən sevdiyinin yolundakı fədakarlığını sevgisi ölçüsündə bir zövq və vəzifə olaraq qəbul edər. Bu baxımdan mömin bir ürəyin, bu ürəyi Yaradanın xatirinə bütün yaradılmışları şəfqət və mərhəmətlə qucaqlaması zəruridir.

Qardaşlıq duyğularının zəiflədiyi, ictimai asayişin və əmin-amanlığın yoxa çıxdığı, kin və düşmənçiliyin çoxaldığı zamanımızda ciddi bir infaq və xidmət səfərbərliyinə ehtiyac var. Ancaq təəssüflər olsun ki, bu gün yaşadığımız cəmiyyətdə bir yandan ictimai və iqtisadi böhranlar, başqa yöndən də fərdlərin çoxunun maddiyyata təslim olmasına görə ən çox unudulub, önəm verilməyən məsələlərin başında dinin malı fədakarlıqla vermək buyruğu durur. Bununla bağlı ağla gələn ilk məsələlər isə zəkat-infaq kimi yerinə yetirilməsi zəruri olan işlərlə vəqf kimi şəfqət müəssisələridir.

Buna görə biz də çox ciddi bir maddi-mənəvi sıxıntı yaşayan cəmiyyətimizdə vəqf, zəkat və infaq səfərbərliyi yolu ilə yenidən yaralara məlhəm olacaq bir şövq, həyəcan və düşüncəni təmin etməyə çalışmalıyıq. Çünki mədəniyyətimiz bizdən bunu tələb edir.

Mərhəmət və məhəbbəti vəqf xidmətlərinə, xeyirxahlıqlarına ən ideal ölçülərlə

yerləşdirən əcdadımız kimsəsizlərin, yoxsulların, dulların, yetimlərin şərəf və ləyaqətini qorumaq üçün də böyük bir diqqət, nəzakət və səy göstərmişlər. Sədəqəni verənlə alanın bir-birini görməməsini təmin etmək məqsədilə məscidlərdə «sədəqə daşları» qoymuş və ehtiyacı olanlara veriləcək yemək onların ləyaqətini incitməmək üçün gecə qaranlığında paylamaq kimi həssas davranış mərhəmət və məhəbbətin ideal ölçüdə həyata keçirildiyi örnək bir yanaşma üslubudur. Hətta evlərdə xidmət edən insanların qəlbi qırılmasın deyə təsadüfən sındırdıqları, ya da zərər verdikləri əşyaları təmir edən bir vəqfin qurulması çox ibrətli və xəyal edilməsi belə çətin olan bir duyğu dərinliyidir. Bunlar da yaşadığımız dövrdə insanlığın şərəf və ləyaqətini layiqincə qiymətləndirmək üçün xatırlanması, əldə edilməsi zəruri olan həyati düsturlardır. Vəqflər bu sevgi, şəfqət və mərhəmətin cəmiyyətə yönəldilməsində – xüsusi ilə əcdadımızın təcrübəsi baxımından – bugünkü insanımız üçün bir ibrət tablosudur.

Vəqf Yaradandan ötrü yaradılmışlara mərhəmət, şəfqət və sevginin bir göstəricisi olan infaqın davamlı bir işə çevrilmiş müəssisəsidir. Bu da malın yalnız Allaha aid edilməsini, yəni bir malın başqasına mülk olaraq verilməsini və o mülkün Allahdan başqa sahibinin olması fikrini qəbul etməyərək, bu malın həmişə mənəvi bir hədəf üçün istifadə olunmasını bildirir. Hədəf isə bütün yaradılmışların möhtac olanlarına səxavətlə vermək, onlara şəfqət və mərhəmətlə yanaşaraq Uca Allahın rizasını qazanmaqdır. Əsasən malın, zəruri olduqda canın Allah yolunda fəda edilməsi kamil bir imanın şərti olaraq hər möminin yerinə yetirməsi zəruri olan ilahi bir əmrdir.

Qurani-Kərimdə belə buyurulur: **«Gerçək möminlər ancaq Allaha və rəsuluna iman edən, sonra da şübhəyə düşməyərək malları, canları ilə Allah yolunda cihad edən kimsələrdir. Elə sadiq olanlar bunlardır».** (əl-Hucurat, 15)

«O təqva sahibləri özlərinə ruzi olaraq verdiyimiz hər şeydən (Allah yolunda) infaq edərlər». (əl-Bəqərə, 3)

«Allah möminlərdən cənnətin əvəzində canlarını və mallarını satın almışdır…» (ət-Tövbə, 111)

«İnsanlardan eləsi də var ki, Allahın rizasını qazanmaq uğrunda özünü və malını fəda edər…» (əl-Bəqərə, 207)

Dünyanı axirətə hazırlıq məkanı, axirəti də bu dünyanın davamı olaraq qəbul edən İslam bu iki aləm arasında bədən-ruh, maddə-məna baxımından ən gözəl və mükəmməl tarazlıq qurmuş, bununla da dinc, ahəngli və rifah içində yaşayan bir cəmiyyətin ən sağlam bünövrəsinə çevrilmişdir.

Geniş bir sahəyə yayılaraq xidmət göstərən vəqflər ən gözəl müəssisələrdir. Vəqf yaradılmış hər şeyə münasibətdə İslamın şüarı olan şəfqət və mərhəmətin ən gözəl bir göstəricisidir. Qurani-Kərimdə kamil bir mömin olaraq Allahın rizasını qazana bilməyimiz üçün ən çox sevdiyimiz şeylərdən infaq etməyimiz əmr edilmişdir.

İnsan üçün dünyaya aid varlıqların dəyər baxımından ən uca və önəmli olanı «can» və «mal»dır. Cənnəti satın ala bilmək və

Allahın rizasını qazanmaq bu göstərilənləri Allah yolunda infaq etməklə mümkündür. Ona görə də malını və canını, yəni sahib olduğu hər şeyi Allah yolunda səxavətlə verən insanlara «vəqf insanı» deyilmişdir. Həqiqətən də belə insanlar özlərini bütün imkanları ilə xeyir işlərə vəqf etdiklərinə görə yad edilməyə layiqdirlər.

Yaşadığımız zamanın ictimai və iqtisadi səbəblərə görə min bir sıxıntıya səhnə olması, bir az da qədim, zəngin vəqflərin alt-üst edilib yox olmasından və yeni qurulanların isə ehtiyacları ödəyə bilməməsindən irəli gəlir. Bu ehtiyacı ödəyə bilməməyin aradan qaldırılması üçün yaşadığımız dövrün varlı insanları qeyrətə gəlməlidir. Belə ki bu məsələdəki məsuliyyət birbaşa onlara aiddir.

Hədisi-Şərifdə buyurulur:

«İnsan öləndə üç əməlindən başqa bütün əməllərinin savabı sona çatır: Savabı tükənməyən sədəqə (sədəqeyi-cariyə), istifadə edilən elm, arxasınca dua edən övlad» (Müslim, Vasiyyə, 14)

İslam alimləri savabı tükənməyən sədəqə (sədəqeyi-cariyə) deyiləndə çox halda vəqfin nəzərdə tutulduğunu bildirmişlər. Savabı tükənməyən sədəqə (sədəqeyi-cariyə) Allah rizası üçün daimi olaraq xidmət göstərən bir əsər yaratmaqdır.

Bir sıra çay və bulaqlar vardır ki, dünya yaranandan bəri saf, həzin nəğmələrlə axır. Susamış sinələrə həyat, dərdli ürəklərə həzz və ümid, aşiq ruhlara da ilham verərcəsinə sərin, dadlı şırıltılarla qiyamətə qədər də axmağa davam edər. Elə Allah Rəsulu (s.ə.s) Allah yolunda görülən bir sıra xeyir işləri də bu axan suya bənzətmişdir. Ancaq Rəsulullahın bəhs etdiyi axar su bir başqa mənadadır. Belə ki o, qiyamətə qədər deyil, əbədiyyətədək axacaq bir bulaqdır. Durmadan axan, qula dua və savab gətirən bir xeyir bulağıdır. Axdıqca sahibinin əməl dəftərini və xeyir hovuzunu dolduracaq, onu əbədi nura qərq edəcək bir bulaqdır. Yəni savabı tükənməyən sədəqədir.

Zərif, gözəl və yetkin insan yetişdirməklə əmin-amanlıq içində yaşayan bir cəmiyyət mühiti yaratmaq dinin başlıca hədəflərindən biridir. Bu yetkinlik ancaq könüllərin mərhəmət, şəfqət duyğusu ilə dolması və bunun ən gözəl əlamətləri olan zəkat, infaq və xidmətlə mümkündür. Belə ki bütün bunlar qulun Rəbbinə olan ən önəmli şükür borcudur.

Yunus Əmrənin:

Mal sahibi, mülk sahibi,
Hanı bunun ilk sahibi?
Mal da yalan, mülk də yalan,
Var bir az da sən oyalan!

-deyərək çox gözəl və ifadəli bir şəkildə bildirdiyi kimi mülk gerçək mənada Allahındır. Qula ancaq bəlli bir zaman dilimi üçün ondan istifadə etmək haqqı verilmişdir. Elə buna görə də, kamil bir mömin olmağın şərtlərindən biri də «sərvət bir əmanətdir» düşüncəsi ilə yaşaya bilməkdir.

Bu baxımdan sərvətin infaq ölçülərindən kənar istifadə edilməsi əmanətə xəyanət sayılır. Bu xəyanətin axirətdəki hesabı ağır olacağı kimi, dünyada da fərd və cəmiyyət baxımından çoxsaylı böhranlara yol açacağı aydındır. Başqa sözlə infaq sərmayənin bir xərçəng mikrobu kimi cəmiyyətin sülh və əmin-amanlığını pozmasının, fərdlər arasındakı həsəd və düşmənçiliklərin qarşısının alınmasının ən təsirli bir çarəsidir.

Allah yolunda, Onun rizası istiqamətində görülən xeyir işlərin gerçək bərəkəti niyyət və səmimiyyətə görədir. Önəmli olan əməllərin səmimiyyət (ixlas) və təqva ilə yerinə yetirilməsidir. Belə ki, Uca Allah Onun rizası yolunda edilən ən kiçik bir xeyirxahlığa belə çox böyük bərəkətlər ehsan edər. Ayeyi-kərimədə buyurulur:

«Mallarını Allah yolunda xərcləyənlərin halı yeddi sünbül bitirən və hər sün-

bülündə yüz dənə olan bir tək toxum kimidir. Allah kimə dilərsə, ona çox verər. Allah ehsanı bol olan, haqqı ilə biləndir». (əl-Bəqərə, 261)

Allah Rəsulu (s.ə.s) buyurur:

«Kim Allah rizası üçün bir məscid tikərsə, Allah da onun üçün cənnətdə bir köşk tikər». (Müslim, Məsacid, 24)

Vəqflərin ən önəmli faydalarından biri də sərvət sahiblərini israfa sürüklənməkdən çəkindirməsidir.

Vəqfin qurulmasındakı əsas hədəf Allahın rizasını qazanıb axirət qurtuluşunu əldə etməkdir. Başlanğıcdan bəri vəqflər bu hədəfə uyğun olaraq qurulmuş və belə də davam etmişdir. Belə ki, bu hədəf **«ət-təqərrub ilallah»** (Allaha yaxınlıq vasitəsi) şəklində mənalandırılmış və vəqfin sağlam prinsiplərə uyğun qurulmasının şərtlərindən biri olaraq qəbul edilmişdir.

Belə ki, böyüklərimiz: «Vavlardan (yəni vallahi deyərək lüzumsuz yerə and içməkdən, məsuliyyət düşüncəsi və həssaslığı olmayan bir validən, haqqını yerinə yetirə bilməyən bir vasi olmaqdan, hədəfinə uyğun xərclənməyəndə ağır bir yükə çevrilən vəqf malından) çəkinin, məsuliyyətindən qorxun!..», buyurmuşlar.

Ancaq bu ifadədəki mənanı yanlış anlamaq olmaz. Məsələn, zəruri şərtlərini yerinə yetirə biləcək imkan və ləyaqət sahibi olanların vəqf xidmətindən uzaq durmaları böyük bir axirət məsuliyyətidir. Burada qorxmaq deyilərkən bu müəssisələrdən istifadə edənlərin haqlarının və vəqf mallarının diqqətlə, ləyaqətlə qorunması başa düşülməlidir. Çünki vəqf mülkiyyəti Uca Allaha faydası ümmətin möhtaclarına aid olan daşınan və daşınmaz əmlaklardır.

Yəni vəqf edilən mal onun sahibinin mülkiyyətindən çıxar, satılmaz, bağışlanmaz və varisi olmaz. Bunların məqsədinə uyğun istifadə edilməsi məsələsindəki ciddiliyin daima yaddaşda saxlanılması üçün ümumiyyətlə, vəqfnamələrin başında, ya da sonunda həm xeyir-dua, həm də bəddualar olur. Xeyir-dua vəqfə xidmətdə qüsuru olmayan üçündür. Bəd-dua isə vəqfiyyədə göstərilən xidməti yerinə yetirməyən, yəni vəqfə pisliyi, zərəri dəyən kimsələrə aiddir:

«Hər kim bu vəqfin şərtlərini pozar, ya da dəyişdirərsə, Allahın, peyğəmbərlərin, mələklərin, insanların və bütün yaradılmışların lənəti onun üzərinə olsun!..»

Aləmlərə rəhmət və örnək şəxsiyyət (üsvei-həsənə) olaraq göndərilən Peyğəmbərimiz:

«Yer üzündəkilərə mərhəmət edin ki, göy üzündəkilər də sizə mərhəmət etsin!» (Tirmizi, Birr, 16), buyurmuş və vəqfin əməli nümunələrini də öz həyatında göstərmişdir. Bilindiyi kimi, O, bütün sahələrdə ümmətinə kamil bir örnəkdir. Belə ki Mədineyi-Münəvvərdə sahib olduğu yeddi xurma bağçasını, daha sonra da Fədək və Xeybər xurmalıqlarından öz payına düşəni Allah yolunda vəqf etmişdir. Bunu görən səhabələr əllərindəki imkanlardan çox gəlir gətirən əmlakı eyni qaydada vəqf etmişlər.

Belə ki, Həzrət Cabir demişdir:

«Mühacir və ənsardan imkan sahibi olub, vəqfi olmayan bir insan tanımıram». (İbn Qudamə, əl-Muğni, V, 598)

Allah yolunda infaq edərkən sevilən şeylərdən və ürəkdən vermək çox önəmlidir. Bir gün əshabi-kiram Məscidi-Nəbəvidə toplanaraq Rəsulullahın söhbətini dinləyirdilər. Peyğəmbərimiz (s.ə.s) söhbət zamanı bu ayəni oxudu:

«Sevdiyiniz şeylərdən infaq etmədikcə əsla xeyrin ən gözəlini («birr»i) əldə edə bilməzsiniz. Hər nə infaq etsəniz, Allah onu haqqıyla bilir!» (Ali-İmran, 92)

Dərin bir şövqlə Rəsulullahı dinləyən səhabələr bu ayəni də öz iç dünyalarının dərinliklərində duymağın və bu ilahi dəvətin mahiyyətindən çıxış edərək əllərində nə varsa hamısını infaq edə bilməyin yollarını axtarırdılar. Bu mübarək səhabələrdən biri



də Əbu Talha (r.a) idi. Onun Məscidi-Səadətə yaxın, altı yüz xurma ağacı olan qiymətli bir bağçası var idi. O, bu bağçanı çox sevirdi. Rəsulullahı tez-tez qonaq çağırıb, ona pay verərək bağçasını bərəkətləndirirdi.

Əbu Talha (r.a) bu ayənin təsiri ilə Rəsulullahın yanına gələrək dedi:

- Ya Rəsulallah! Allah-Təala kitabında:

«Sevdiyiniz şeylərdən infaq etmədikcə əsla xeyirin ən gözəlini («birr»i) əldə edə bil-məzsiniz!...» (Ali-İmran, 92), buyurur. Sərvətimin içərisində ən dəyərli və mənə ən sevimli olanı Beyruha adı ilə tanınan bağçamdır. Bu andan başlayaraq onu Allah və Rəsuluna verirəm. Ümid edirəm ki, bunun sayəsində Rəbbim məni xeyrin ən gözəlinə («birr»ə) qovuşdurar və bunu mənə axirət azuqəsi edər. Ya Rəsulallah, artıq bu bağçadan Allahın sənə göstərdiyi yolda istifadə et». (Buxari, Vəsaya, 17)

Rəvayətə görə bu sözlərdən sonra Əbu Talha verdiyi qərarını dərhal yerinə yetirmək üçün bağçaya yollandı. Bağçaya çatanda xanımının bir ağacın kölgəsində oturduqlarını gördü. Əbu Talha bağçaya girmədi. Xanımı soruşdu:

- Ey Əbu Talha! Çöldə nə gözləyirsən? İçəri girsənə!

Əbu Talha:

- Mən içəri girə bilmərəm, sən də əşyalarını toplayıb çıx, -dedi.

Gözləmədiyi cavabı eşidən xanımı təəccüblə soruşdu:

- Niyə, ey Əbu Talha? Bu bağça bizim deyilmi?

Əbu Talha:

- Xeyr, artıq bu bağça Mədinə yoxsullarınındır, deyərək ayənin müjdəsini və etdiyi infaqın bərəkətini sevinc və şadlıq içində anlatdı.

Xanımının:

- Bağçanı ikimizin adından, yoxsa öz adından bağışladın?, -sualına da:

- İkimizin adından, deyərək cavab verən Əbu Talha bu dəfə xanımından sevinc içində bu sözləri eşitdi:

- Allah səndən razı olsun, Əbu Talha! Ətrafımızdakı yoxsulları görəndə eyni şeyi düşünürdüm, ancaq sənə söyləməyə heç cür cəsarət etmirdim. Allah xeyrimizi qəbul etsin. İndi mən də bağçanı tərk edib gəlirəm!

Əbu Talhanı bu fədakarlığa yönəldən gözəl əxlaqın ruhlarda kök salması nəticəsində ortaya çıxacaq gözəlliyin insanlıq içində yayılması ilə yer üzündə bir səadət əsri iqliminin yaranacağını düşünmək elə də çətin deyil.

Hz. Peyğəmbər və onun mübarək səhabələrinin getdiyi yolu izləməkdə böyük bir diqqət və həssaslıq göstərmiş olan Osmanlılar onların zamanlarına gələnədək bəlli bir ölçüdə davam etmiş vəqf qurmaq fəzilətində zirvəyə yüksəlmişlər. Gerçəkdən, vəqflər istər kəmiyyət, istərsə də keyfiyyət baxımından Osmanlı dövründə inkişafının ən yüksək zirvəsinə çatmışdır. Osmanlılarda vəqf millətin hesabına qazanılan sərvəti yenidən bu toplumun istifadə və xidmətinə təqdim edən bir «vəfa» təşkilatı kimi ortaya çıxmışdır. Bunlar qanuni yollarla əldə edilmiş maddi imkanları özünə, ailəsinə xərcləməkdən daha çox, onu xalqın

istifadəsinə vermək, bu yolla da Allahın rizasını qazanmaq məqsədi ilə qurulmuş təşkilatlardır.

Bu məsələdə elə böyük bir məsafə qət edilmişdir ki, vəqf təşkilatında kök atmış islami məhəbbət və şəfqət təkcə insanların ehtiyaclarını deyil, eləcə də heyvanları, bitkiləri belə əhatə etmişdir.

Dərin və ülvi duyğularla İslamı ən gözəl şəkildə anlayıb yaşayan bu əziz millət müsəlman qəlbindəki sonsuz şəfqət və mərhəməti bütün dünyaya bu yolla göstərmişdir. Onlar qurduqları minlərlə vəqf vasitəsi ilə toplumu bir tor kimi hörmüş və demək olar ki, məlhəm olmadıqları bir yara qalmamışdır.

Əcdadımız hədisi-şərifdə buyurulan:

«İnsanların ən xeyirlisi insanlara ən çox faydalı olandır» (Süyuti, əl-Camius-Sağir, II, 8), bəyanını özlərinə ölçü edərək vəqf yolu ilə çoxsaylı, əzəmətli və yaşayan əsərlər ortaya qoymuşlar.

Mədəniyyətimizdə qurulan vəqflərin çeşidlərini və xidmət sahələrini tam olaraq təsbit etmək və saymaq mümkün olmasa da, bunların hamısı haqqında bir fikir formalaşdırmaq üçün bir neçə önəmli misalı belə sıralaya bilərik:

- Came, məscid, təkyə, zaviyə və türbələrin tikilməsi, qorunması,
- Mədrəsə, hafizlərin yetişdirildiyi məktəb (darül-huffaz), hədisçilərin yetişdirildiyi məktəb (darül-hədis) və başqa elm müəssisələri,
- İmarətxanalar, karvansaralar, yolçular üçün qonaq evləri, hamamlar və sağlamlıq xidmətləri,
- Namaz yerləri, kitabxanalar və mehmanxanalar,
- Quyular, su yolları, su kəmərləri, bulaq və çeşmələr,
- Yeməkxanalar, uşaq əmizdirmək və böyütmək yuvaları,
- Yoxsulları yanacaqla təmin etmək,
- Ağaları tərəfindən incidilməməsi üçün xidmətçilərin qırdıqları saxsı qabların yerinə təzələrini almaq,
- Yetim qızlara cehiz hazırlamaq,
- Borcluların borclarını ödəmək,
- Dul qadınlara və möhtaclara yardım etmək,
- Məktəb uşaqlarını qida və geyim ilə təmin etmək,
- Yoxsul və kimsəsizlərin cənazə namazlarını qıldırmaq,
- Bayramlarda uşaqları və kimsəsizləri sevin-dirmək,
- Yaşlı və kimsəsiz xanımları qorumaq.

Bunlardan başqa ağla gələ biləcək bütün sahələrdə vəqf quran Osmanlılar öz mədəniyyətlərini demək olar ki, bir «vəqf mədəniyyəti» kimi tanıtdıracaq bir ölçüdə xeyir və gözəllik zənginliyi ortaya qoymuşlar. Gerçəkdən vəqflər Osmanlı mədəniyyətinin fərqli əlaməti sayıla bilər.

Mübarək əcdadımızın səmimiyyətlə qurduğu vəqflər fəaliyyətlərinin qiyamətədək davamlı olması üçün dua edilməsi təmennası ilə yaradılmışdır. Bu vəqflər bügünkü və sabahkı insanımızın came, məktəb, xəstəxana, kazarma və bulaq kimi ehtiyaclarını təmin etməkdə və bir çoxu hələ də xidmət göstərməkdədir. Bunlar mübarək əcdadımızın mübarək ruhlarını şad edəcək savabı tükənməyən sədəqə (sədəqeyi-cariyə), iman və nəciblik nişanəsidir.

Allahım! Bizə verdiyin əmanətlərin haqqını ləyaqətlə ödəməyi və Yaradandan ötrü yaradılanlara xidmət edən «vəqf insanı» ola bilməyi qismət et!

Amin!

Vəqfin qurulmasındakı əsas hədəf Allahın rizasını qazanıb axirət qurtuluşunu əldə etməkdir. Başlanğıcdan bəri vəqflər bu hədəfə uyğun olaraq qurulmuş və belə də davam etmişdir. Belə ki, bu hədəf «ət-təqərrub ilallah» (Allaha yaxınlıq vasitəsi) şəklində mənalandırılmış və vəqfin sağlam prinsiplərə uyğun qurulmasının şərtlərindən biri olaraq qəbul edilmişdir.

Niyaməddin MÜZƏFFƏROV

MƏRHƏMƏT

Mərhəmət məxluqatın yaxşılığını istəyib onlara kömək etmək arzusu duymaqdır. Bizim sahib olduğumuz imkanlara, haqq və hürriyyətlərə başqalarının sahib olmaması içimizdə onların halına acıma, yəni şəfqət və mərhəmət duyğusunu oyandırır. Bu kəslərin daha yaxşı həyat şərtlərinə qovuşmasını, hətta bizim kimi olmasını istəməliyik. Beləcə içimizdə ədalət duyğusu hərəkətə keçər. Deməli, mərhəmət eyni zamanda həm də bərabərlik duyğusunun mənbəyidir. Mərhəmət həmçinin bir duyğu, insanı yaxşılıq etməyə, adil olmağa sövq edən bir vasitədir. Mərhəmət duyğusunun hərəkətə keçməsindən sonra əqli və məntiqi bəzi nəticələrin hesabına ədalət və bərabərlik reallaşa bilər.

Mərhəmət duyğusunun əslində bir bütün olduğunu, sadəcə insanlara deyil, bütün varlıqlara onun çox az bir miqdarının verildiyini Hz. Peyğəmbər belə izah edir: *"Allah rəhmətini yüz parçaya ayırdı: 99 parçasını öz qatında saxladı, bir parçasını yerə endirdi. Beləliklə məhz bu bir parça rəhmət səbəbilə məxluqat bir-birinə rəhm edir. Hətta balalı heyvanın balasını incitməmək üçün ayağını qaldırması bu mərhəmətin əsəridir"*. (Buxari, Ədəb, 19)

Rəsulullah (s.ə.s) uzun bir müddət ibadət etmək niyyətilə namaza başlayardı, lakin ağlayan bir uşaq səsi eşidəndə uşağın anasının camaat arasında olub, uşağı ağladığına görə narahat ola biləcəyini düşünərək namazı tez qıldırardı. Müharibələrdə həm ana, həm də körpəsi əsir alınıbsa, onları bir-birindən ayırmamağı əmr edər, ana ilə uşağını bir-birindən ayıranı Allah-Təala qiyamət günündə sevdiklərindən ayırar, buyurardı. Bir gün yoxsul bir qadın Hz. Aişənin (r.anhə) evinə gəldi. Arxasında iki uşağı vardı. Hz. Aişə ona üç xurma verdi. O da uşaqlarının hərəsinə bir xurma verib digərini ağzına

salanda uşaqlar onu da istədilər. Qadın əlindəki xurmanı da onlara verdi. Bu yoxsul qadının mərhəmətinə heyran qalan Hz. Aişə gördüklərini Rəsuli-Əkrəmə xəbər verdi, o isə belə buyurdu: "Bu şəfqətinə görə Allah-Təala o qadına mütləq cənnəti verdi (və yaxud onu cəhənnəmdən azad etdi)."

Daş qəlbli cahiliyyə dövrü insanının arasında İslamın sabitləşib kök salması Rəsuli-Əkrəmin geniş mərhəməti sayəsində mümkün olmuşdur. Çünki şəfqət və mərhəmət sərtliyi yumşaldan, nifrətin yerinə sevgini dəvət edən, insanları birbirinə daha çox yaxınlaşdıran bir duyğudur. Qurani-Kərimdə buyurulur:

"Allahın mərhəməti səbəbinə sən onlarla yumşaq rəftar etdin. Əgər qaba, sərt ürəkli olsaydın, əlbəttə, onlar sənin ətrafından dağılıb gedərdilər. Artıq sən onları əfv et, onlar üçün bağışlanmaq dilə..." (Ali-İmran, 159) Uca Allah Peyğəmbərini insanlara qarşı şəfqətli və son dərəcə mərhəmətli yaratmışdır. Əgər qaba və qatı qəlbli olsaydı ətrafında qəlblər birləşməz və duyğular toplanmazdı. Çünki insanlar daim şəfqətli, üstün bir nəzarətə, gülər üzlü bir insanpərvərliyə, onları əhatə edən bir sevgi atmosferinə möhtacdırlar. Hər zaman qayğı, nəzarət, şəfqət, insanpərvərlik, sevgi və məmnunluq tapdıqları böyük bir qəlbə möhtacdırlar. Rəsulullah da məhz belə bir qəlbə sahib idi.

Həmcinsilə mehriban olan insan isə digər insanların da onunla eyni funksiyanı paylaşdıqlarını, eyni yolun yolçusu olduqlarını, hər kəsin başqalarına qarşı bəzi haqq və məsuliyyətlər daşıdığını, hansı irqdən olursa-olsun, hər kəsin eyni Allahın qulu olduğunu, xülasə bütün insanların bərabərhüquqlu olduqlarını öyrənir.

Abdullah İbnul -Amr İbnil-As (r.a.) Rəsulullahın (s.a.s) belə buyurduğunu rəvayət edir: *"Allah mərhəmətli olanlara rəhmətilə davranar. Elə isə, siz yer üzündəkilərə qarşı mərhəmətli olun ki, səmada olanlar da sizə rəhmət etsinlər. Rəhim (qohumluq əlaqəsi) Rəhmandan bir əlaqədir. Kim bunu qorusa, Allah onunla (rəhmət əlaqəsi) qurar, kim də qopararsa, Allah da ondan (rəhmət əlaqəsini) qoparar."* Tirmizi, Birr, 16, Əbu Davud, Ədəb, 66.

"Allah mərhəmətli olanlara rəhmətilə davranar. Elə isə, siz yer üzündəkilərə qarşı mərhəmətli olun ki, səmada olanlar da sizə rəhmət etsinlər. Rəhim (qohumluq əlaqəsi) Rəhmandan bir əlaqədir. Kim bunu qorusa, Allah onunla (rəhmət əlaqəsi) qurar, kim də qopararsa, Allah da ondan (rəhmət əlaqəsini) qoparar."

İslamda mərhəmət bütün məxluqatı əhatə edir. Uşaqlara, qadınlara, yaşlılara, yetimlərə, kimsəsizlərə, xəstələrə, yoxsullara və bütün insanlara, hətta digər canlılara da mərhəmətli davranmaq möminlərin vəzifəsidir. Üzünə damğa vurulmuş uzunqulağı görəndə, "Bu heyvanı dağlayana Allah lənət etsin" (Müslim, Libas, 107.) buyuran Hz. Peyğəmbər (s.ə.s) bir hədisində də pişiyini aclıqdan öldürən mərhəmətsiz bir qadının bu davranışına görə cəhənnəmə atıldığını (Buxari, Ədəb,18/27; Müslim, Fəzail, 65.) bildirərək mərhəmətin sadəcə insanlara aid olmadığını ifadə etmişdir. Heyvanlara yaxşı baxılması (Əbu Davud, İstizan, 39), zövq üçün döyüşdürülməməsi (Əbu Davud, Cihad, 51; Tirmizi, Cihad, 30) nişan alınan hədəflər yerinə qoyulmaması ilə (Müslim, Sayd, s. 59) əlaqədar əmrləri də İslamın bu məsələdəki ən geniş üfüqünü açıq-aşkar ortaya qoyur.

Müşfiq XƏLİLOV
muslimxalil@hotmail.com

Birinizin ölümü çatıb: "Ey Rəbbim! Mənə bir az möhlət versəydin, sədəqə verib salehlərdən olardım! - deməmişdən əvvəl sizə verdiyim ruzidən (Allah yolunda) xərcləyin. Və (bilin ki) Allah əcəli çatan heç kəsə möhlət verməz. Allah sizin nə etdiklərinizdən xəbərdardır!" (əl-Münafiqun, 10-11)

SƏDƏQƏ BƏLANI DƏF EDƏR

Bildiyimiz kimi zəkat ibadətini yerinə yetirə bilməyimiz üçün müəyyən miqdarda mala sahib olmağımız şərtdir. Bunun üçün zəkat yalnız varlı müsəlmanların yerinə yetirəcəyi bir ibadətdir. Sədəqə isə bir az fərqlidir. Hər bir müsəlman səmimiyyəti və sədaqəti nisbətində sədəqə verə bilər. Sədəqə verə bilmək üçün müəyyən bir mala sahib olmaq kimi bir şərt yoxdur. Hətta sədəqə yalnız mal ilə verilən bir ibadət də deyildir. Hz. Peyğəmbərin (s.ə.s) ifadəsi ilə desək: *"(Bir müsəlmanın) qardaşına göstərəcəyi təbəssüm sədəqədir. Yaxşılığı əmr edib pislikdən çəkindirmək sədəqədir. Yolunu azana yol göstərmək sədəqədir; gözü görməyən kimsə üçün kömək göstərmək sədəqədir; yoldan daş, tikan, sümük və bu kimi şeyləri götürüb kənara atmaq sədəqədir..."* (Tirmiz, Birr, 36, 1956)

Heç bir müsəlman sədəqə verməklə malının azalacağını düşünməsin. Əksinə, sədəqəsi verilən malın bərəkətini Allah-Təala artırar. Belə ki, Uca Allah belə buyurur: **"Allah sələmi (sələmlə qazanılan malın bərəkətini) məhv edər, sədəqələri (sədəqəsi verilmiş malın bərəkətini) isə artırar."** (əl-Bəqərə, 276)

Yalnız halal yolla qazanılan maldan verilən sədəqə qəbuldur. Əks halda haram yolla qazanılan maldan verilən sədəqənin Allah qatında heç bir dəyəri yoxdur. Rəsulullah (s.ə.s) belə buyurur: *"...Bir adam haramdan mal qazanar və onu xərcləyərsə, bu ona bərəkətli olmaz; sədəqə versə, qəbul edilməz. Arxasında saxladığı da onu ancaq atəşə yaxınlaşdırar. Çünki Allah-azzə və cəllə- pisliyi pisliklə silməz, lakin pisliyi*

yaxşılıqla yox edər. Heç şübhəsiz, xəbis xəbisi silib yox etməz." (Əhməd, I, 387)

Digər tərəfdən sədəqə dünyəvi və üxrəvi bir çox sıxıntını dəf edər. Bunların bir neçəsi hədisi-şəriflərdə belə xəbər verilir:

"Suyun odu söndürdüyü kimi, sədəqə də günahın əzabını söndürür." (Tirmizi, İman, 8, 2616)

"Sədəqə Rəbbin qəzəbini söndürür və insanı pis ölümdən uzaqlaşdırır." (Tirmizi, Zəkat, 28, 664)

"Sədəqə sahibi üçün qəbrin istilyini söndürür. Mömin qiyamət günü sədəqəsinin altında kölgələnər." (Heysəmi, III, 110)

İnsan özünə hər hansı bir şey verilərkən onun necə olmasını istəyərsə, başqasına verərkən də onun elə olmasına diqqət etməlidir. Bir gün Hz. Aişə anamız qoxusu azca dəyişmiş əti sədəqə olaraq vermək istədi. Rəsulullah (s.ə.s) ona: *"Özün yemədiyin bir şeyi sədəqə veərəcəksən?!"* buyurdu. (Heysəmi, III, 113) Həmçinin bir gün Hz. Aişə anamız Allah Rəsulunun xoşlamadığı bir qida məhsulu ilə bağlı: "-Ey Allahın Rəsulu, bunu yoxsullara verəkmi?"-deyə soruşdu. Rəsulullah (s.ə.s): *"-Onlara özünüzün yemədiyiniz şeyləri verməyin!"* -buyurdu. (Əhməd, VI, 105, 123)

Digər bir məsələ sədəqə verməyi gecikdirməməkdir. Daha sonra verərəm düşüncəsi şeytanın hiyləsidir. Xeyirli işləri gecikdirmək məqsədəuyğun deyil. Bunun üçün hər bir müsəlman sədəqə verməyi sonraya buraxmamalıdır. Hər kəs öləcək yaşdadır. Ölüm ərəfəsində verilən sədəqənin savabı isə çox az olar. Allah Rəsulu (s.ə.s) belə buyurur: *"İnsanın həyatında (sağ ikən) bir dirhəm sədəqə verməsi ölümü zamanı yüz dirhəm sədəqə verməsindən daha xeyirlidir."* (Əbu Davud, Vəsayə, 3, 2866) Bir ayədə isə Uca Allah belə buyurur: **"Birinizin ölümü çatıb: "Ey Rəbbim! Mənə bir az möhlət versəydin, sədəqə verib salehlərdən olardım! - deməmişdən əvvəl sizə verdiyim ruzidən (Allah yolunda) xərcləyin. Və (bilin ki) Allah əcəli çatan heç kəsə möhlət verməz. Allah sizin nə etdiklərinizdən xəbərdardır!"** (əl-Münafiqun, 10-11)

Sədəqə vermək hər zaman gözəl olmaqla yanaşı, ümumiyyətlə onu gizli vermək daha üstündür. Allah-Təala belə buyurur: **"Yoxsullara aşkarda sədəqə verməyiniz yaxşıdır, lakin onu gizlində versəniz daha yaxşı olar. Bu, günahlarınızın bir qismini örtər. Allah tutduğunuz hər bir işdən xəbərdardır!"** (əl-Bəqərə, 271)

Hz. Peyğəmbər (s.ə.s) sədəqəni gizli verməyin başqa bir faydasını belə bildirir: *"Gizli verilən sədəqə Rəbbin qəzəbini söndürər."* (Beyhəqi, Şuab, III, 244; VI, 255)

Sədəqə verməyin yuxarıda bəhs etdiklərimizdən başqa bir neçə ədəbi də var. Onlardan bir hissəsi bu şəkildə sıralana bilər:

1. Sədəqə verən kəsin onu kasıba şəxsən öz əli ilə təqdim etməsi daha yaxşıdır. İbn Abasın bildirdiyinə görə Peyğəmbərimiz (s.ə.s) sədəqəsini heç kəsə həvalə etməz, şəxsən özü verərdi. (İbn Macə, Təharət, 30)

2. Sədəqə verən şəxs başa qaxmaq, minnət qoymaq, incitmək və könül sındırmaqla sədəqələri boşa çıxarmamalıdır. (əl-Bəqərə, 262-264). Əksinə, zəkat və sədəqə verən şəxs sədəqəni alana təşəkkür etməlidir. Çünki onun mühüm bir borcdan qurtulmasına və savab qazanmasına səbəb olur.

3. Sədəqə verən müsəlman verdiyi sədəqəni daha sonra hansı səbəb olursa olsun, əsla geri almamlıdır. Çünki Hz. Peyğəmbər (s.ə.s) belə buyurmuşdur: *"Verdiyi sədəqəni geri alan şəxs, yediyini qusduqdan sonra qayıdıb onu yeyən köpəyə bənzər."* (Müslim, Hibat, 5)

4. Sədəqə vermə ədəblərinin ən mühümü isə sədəqəni səmimiyyət və ixlasla, sırf Allah rizası üçün verə bilməkdir. Özünü göstərmək və dünyəvi məqsədlər üçün verilən sədəqələr boşa gedər və insana heç bir fayda verməz. (əl-Bəqərə, 264)

Eldar KƏRIMOV
canyanar@yahoo.com

GÜNAHSIZ MƏHKUM

Hamı mənə yad olmuşdu. Doğma şəhərimdə yad insan kimi gəzib-dolaşırdım. Mənim tanıdığım insanlar belə məni tanımırdılar. Bir neçə il əvvəl atam-anam sağ olarkən bizə gəlib-gedən qohum-qardaşlar unutmuşdular artıq küçəmizin yolunu. Elə mən özüm də unutmuşdum evimizin ünvanını. Sonuncu dəfə əmim bacımla mənim əlimdən tutub uşaq evinə apararkən nəmli gözlərimlə seyr etmişdim atamın zəhmətlə tikib ərsəyə gətirdiyi evi. Atamın bir işçi maaşıyla bizim üçün tikdirdiyi bu ev başqa bir ailənin körpələrinin səadət ocağına çevrilmişdi artıq. Bizim tapmadığımız xoşbəxtliyi indi başqaları axtarırdı bu evdə. Biz də bir zamanlar xoşbəxt idik. Kasıb olsaq da xoş və firavan həyat yaşayırdıq. Özümüzə görə hər şeyimiz var idi. Atam evi tikdirib tam hazır edəndən sonra bir maşın da almaq istəyirdi. O zaman pulu çatmasa, anam bütün qızıllarını ona verəcəyinə söz vermişdi. Bu xoş ümidlərlə davam edirdi nağıla bənzər həyatımız.

Qaranlıq bir gecədə aldığımız xəbər elə bizim də həyatımızı qaraltdı. Toydan evə qayıdarkən atamın dostunun maşınında yaşanan yol qəzasında anamla atam öz şirin canlarını Haqqın rəhmətinə tapşırmışdılar. O zamanlar işin mahiyyətini hələ o qədər dərk edə bilmirdim. Ta ki, yetimliyimi hiss edib, ətrafımdakı insanlar tərəfindən laqeyd qarşılanana qədər.

Yol qəzasında rəhmətə gedən valideynlərimin yeddisi çıxmamış bacımla mənim uşaq evinə qoyulacağımız söz-söhbəti dolaşırdı qohumların dilində. Amma mən əmilərimin və dayılarımın bizə yiyə duracağına inanırdım. Çünki onlar bizi çox istəyirdilər. Hər zaman bizi öpüb qayğı göstərirdilər. Çox keçmədi ki, bu inamım da yox oldu. Bizə olan münasibət tamamilə dəyişdi. Hər kəs istədiyini deyir, hər kəs istədiyi işi gördürürdü bizə. Bacım uşaq olsa da, mən çox şeyi başa düşürdüm. Çox vaxt ona verilən işləri də özüm görürdüm ki, o çox yorulmasın. Çox keçmədi ki, bütün işlərini gördükdən sonra bizə verilən bir qarın yeməyi belə bizə çox gördülər. İlk əvvəl yeməyimizin yanındakı çörək dilimlərinin sayı, sonra isə çayımızın şəkəri azaldı. Nə istədiyimizi alan, nə də bir problemimizi dinləyən var idi. Hər gecə ana deyib ağlayan körpə bacımın göz yaşlarının ardı-arası kəsilmirdi. Ata və anamızın bir

gün qayıdacaqlarını ona dəfələrlə deyib aldatsam da uşaq sakitləşmirdi ki, sakitləşmirdi. Bacımın dərdi mənə bütün problemlərimi unutdurmuşdu. Hər şeyi ona görə edir, hər çətinliyə onunçün dözürdüm. Bəlkə də tək özüm olsaydım başımı götürüb gedəcək yer tapa bilərdim. Ancaq məndən başqa dərdini deyəcək və qayğısına qalacaq heç kimi olmayan bacımı tək qoyub gedə bilməzdim.

Elə uşaq evinə də bacımla birlikdə getmişdim. Əmim park adıyla aldadıb aparmışdı bizi. Ora çatdığımız zaman həyətdə oynayan uşaqların üzündən bizim dərdimizlə həmdərd olduqlarını anlamışdım. Nə qədər əl-ələ tutub oynasalar da dərin bir miskinlik yağırdı gözlərindən. Əmim bacımı uşaq evinə qoyub məni geri qaytarmaq istəyirdi. O bunu məni çox istədiyi üçün deyil, bacımın uşaq olub ələyağa dolaşdığı, mənim isə demək olar ki, bütün çətin işlərə gücüm çatdığı üçün etmək istəyirdi. Mən artıq qərarımı vermişdim. Məni nə qədər razı salmağa çalışsa da bacımdan bir dəqiqə belə ayrılmayacağıma söz vermişdim. Əmim bizi uşaq evinə tərk edəndən sonra sadəcə bir dəfə gəlmişdi yanımıza. Onda da mahiyyətini başa düşmədiyim –sonradan evimizin satılmasına öz əlimlə razılıq verdiyim –bir kağıza imza atdırmışdı mənə.

Sevinc və kədərimizi birlikdə bölüşdüyümüz uşaqların arasında illər elə sürətlə gəlib keçmişdi ki, bizim üçün doğmalaşan bu məkandan ayrılmaq yaşının gəlib çatdığının fərqinə belə varmamışdıq. Buradan ayrıldığımızda nə gedəcək ünvanımız, nə də qalacaq yerimiz var idi. Bacım artıq böyük bir qız olsa da mənə əvvəlkindən daha çox ehtiyacı vardı.

Kimsəziz biçarələr kimi dolanıb gəzirdim küçələrdə. Gündəlik fəhləliklə qazandığım pullar sadəcə bir qarın yeməyimizə çatırdı. Hər zaman qarşıdan gələn qış gecələrinin soyuğu qorxudurdu məni. Çünki əziz və doğma bacım bu soyuqların nəticəsində sağalmaz xəstəliyə mübtəla olmuşdu. Həkimlərin yazdığı dərmanları almaq üçün özümü oda-külə vuraraq qazandığım pullar kifayət etmirdi. Dünyada mənimçün ən əziz və yeganə insan gözümün qarşısında şam kimi əriyirdi. Ümid edərək dərdimi söylədiyim hər kəsdən rədd cavabı almışdım. Hər gün gözlərini qapıya dikib məndən xoş bir xəbər gözləyən bacım çox keçmədi ki, xəstəliyin ağuşunda aciz qalıb dünya işığına gözlərini əbədi yumdu. Məni həyata bağlayan yeganə varlıq indi yoxdur həyatımda. Bu, sadəcə mənim dərdim deyil, mənim kimi yüzlərlə yetimlərin və bu dünyada yaşayarkən günahsız məhkum olan insanların dərdidir. Bəlkə də ətrafımdakı insanlar bacardıqları qədər mənim dərdimə şəkir olub bacımın müalicəsinə kömək olsaydılar, mən də xoşbəxt ola bilərdim. Ancaq bu belə olmadı. Həm bacım, həm də mən bu xoşbəxtliyin dadını hiss edə bilmədik. Təki siz duyun, ey sadəcə özünüzü düşünüb bizim kimi yetimləri unudan insanlar!

Salih Zeki MERİÇ
salihzekimeric@yahoo.com

ZİKR VƏ HÜZUR

Bütün ibadətlərin ortaq xüsusiyyəti qulun Rəbbini xatırlayaraq o ibadəti məsuliyyətlə yerinə yetirməsidir. Bir xatırlama və o xatırlama nəticəsində yaxınlaşma və yalvarmadır. Məsələn, namaz, oruc bir xatırlamadır, həcc və zəkat bir xatırlamadır. Allah rizası üçün edilən hər bir xeyir əməl Onu xatırladığımız üçün ibadətdir.

İçində Allahın xatırlanmadığı bir ibadət ibadət olmaqdan çıxır və bəndənin özünü boş yerə yorması kimi ifadə edilir. Özünü göstərmək üçün edilən xeyir əməl, şüursuzca qılınan namaz və mənası dərk edilmədən tutulan oruc Allah-Təalanın qatında faydasız əməl olaraq görülür.

Zikrin davamlılığı həm ibadətlərlə, həm də Rəbbimizin adlarını tərənnüm və təfəkkür etməklə olur. Necə ki, kainatda yaradılan hər varlıq öz diliylə Rəbbini anır, insan da bir şükür və həmd ifadəsi olaraq Rəbbini davamlı anmalıdır.

Kamil bir mömin ola bilməyin ən ali nöqtəsi zikrin hüzurunu bütün hüceyrələrin hiss etməsidir. İnsanın iman dərəcəsi içində olduğu mənəvi səviyyəyə görədir.

Allahı anmaq, insanı Allahdan uzaqlaşdıran hər şeydən uzaq olmaq insanın daimi hüzur halını yaşamasına səbəb olur. Başqa cür desək, hüzur davamlı edilən zikrə bağlıdır.

Qurani-Kərim zikrin bütün ibadətləri əhatə edici bir xüsusiyyətinin olduğunu vurğulayır.

Ayələrdə vurğulanan zikrləri başlıqlar halında bu cür ifadə edə bilərik:

Zikr ən böyük ibadətdir.

Zikr qulun Rəbbi tərəfindən xatırlanmasına səbəbdir.

Zikrdən üz çevirəndən sən də üz çevir.

Zikrdən üz çevirəni çətin bir həyat gözləyir.

Zikr könüllərə hüzur verir.

İnsanı qəflətin girdabına aparan amillər hər addımda insanın önünə çıxır və mənzilə çatmağına mane olmaq üçün əlindən gələni edir.

Dünya sevgisi, mal sevdası, şöhrət həvəsi, sabahın qayğısı, eqoizm, insani zəiflik və saymaqla bitirə bilməyəcəyimiz qəflət yolları... Allahı anan adamın ürəyi zikr nurları ilə təmizlənib tərtəmiz olar. Zikrlə dolan

qəlbin döyüntüləri də başqadır, hissiyyatı da...

İbadət və zikr insanı Rəbbinə yaxınlaşdırır. Onda könül rahatlığı əmələ gəlir, üzərinə səkinət və dinclik enir. Rəsulullah (s.ə.s) belə buyurur:

"Allahı zikr etmək üçün bir qrup insan birlikdə oturarsa, mələklər onları əhatə edər, onları rəhmət bürüyər, üzərlərinə səkinə (rahatlıq, feyz) enər və Allah onları yanındakılara (mələklərə) zikr edər" (Müslim, Zikr 25, 30, № 2689, 2700)

Allahın zikri qulunu Ona yaxınlaşdırır, onu himayəsinə alır, nemət və rizasına yaxınlaşdırır, özündə inam və dinclik duyğuları yaradır.

Zikr qəlbdəki kədəri, qatılıq və zülməti aradan qaldırır. Qəm və kədəri, hüznü və dərdi, qəlbdəki sıxıntını dağıdır.

Allahı zikr edən insan nemətlərin fərqinə varıb şükür edən bəndəyə çevrilər. Zikrin gözəlliyi insanın üzündə əks olunar. Hal və hərəkətlərinə nizam verər və üzü davamlı zikr halında olan qəlbin aynası olar.

Zikr qəlbləri doyuran, iştahalarını, acgözlülüyünü aradan qaldıran bir ibadətdir. Zikr qul üçün sayıq olmaq, şüurlu olmaqdır. Zikr təqvaya çatdırar, təqvanı öyrədər, təqvaya dost edər.

Zikr sayəsində insanın daxili dünyası yenilənər. Yaranan dinclik, sükunət və ilahi aydınlığın köməyi sayəsində həyatın müvəqqəti çətinlikləri ilə mübarizə aparılar.

Quran oxumaq zikrdir. Quran oxumağın fəzilətini ortaya qoyan hədislər günahkarlıq duyğusundan doğan nəfsdəki stressdən xilas olmaq üçün Quranın çox əhəmiyyətli bir dərman olduğunu göstərir. Quran ürəklərdə olan, könüllərdəki şübhə və artıq istəklərin şəfasıdır.

Onda haqqın batili necə aydınlatdığının, əşyanı olduğu kimi görməyi təmin edən məlumat, düşüncə və anlayışı pozan şübhə xəstəliklərini necə yox etdiyinin açıqlaması vardır. Onda hikmət, qorxutma, təşviq etmə və ürəyin yaxşı olmasını təmin edəcək ibrət götürüləcək şeyləri təhkiyə yolları, gözəl öyüd-nəsihət vermə vardır.

Zikrin davamlılığı həm ibadətlərlə, həm də Rəbbimizin adlarını tərənnüm və təfəkkür etməklə olur. Necə ki, kainatda yaradılan hər varlıq öz diliylə Rəbbini anır, insan da bir şükür və həmd ifadəsi olaraq Rəbbini davamlı anmalıdır.

Qəlb əvvəlcə xətadan asılı, doğrunun düşməni olsa belə, beləcə doğrunu sevər, səhvdən nifrət edər. Quran iradə zəifliyinin səbəb olduğu xəstəlikləri aradan qaldırar, qəlbi gücləndirərkən iradə də gücləndirər.

Xülasə, mömin zikrə davam etdiyi müddətcə Allaha yaxın və Onun himayəsində olduğunu hiss edər. Bu vəziyyət möminin daxili aləmində sərbəstlik, dinclik və xoşbəxtlik duymasına səbəb olar. Allahın zikri insanın qəlbində güvən və təminat hissi oyandırar. Həyatın çətinlik, zəhmət və təhlükələrinin qarşısında acizlik duyulduğu zamanda, insanın hiss etdiyi çarəsizliyin dərmanı olar. Unutmaq lazım deyil ki, **"Qəlblər ancaq Allahın zikri ilə aram tapar".** (ər-Rəd, 28)



Göylər kəndinin ağsaqqalı Rəhimov Cəlil: HƏYATI LƏYAQƏTLƏ YAŞAMAQ LAZIMDIR



İrfan: *Cəlil dayı, əvvəlcə özünüz haqqında məlumat verin zəhmət olmasa.*

Cəlil dayı: Mən, Rəhimov Cəlil Xəlil oğlu 1940-cı ildə Şamaxı rayonunun Göylər kəndində anadan olmuşam. Mən hələ balaca ikən, 7 yaşımda anam dünyasını dəyişib. Atam çox dindar adam olub. Allahı, Peyğəmbəri tanıyan adam olub. Heç vaxt namazdan, orucdan, ibadətdən uzaq olmayıb. Hər addımını atanda Allahı yada salıb. Bilirsiniz, o dövrdə SSRİ hakimiyyəti ateizmi təbliğ edirdi. Dindarları tuturdular, incidirdilər. Ona görə də atam özü ibadət etsə də heç vaxt bizə namaz qılmağı, oruc tutmağı təbliğ etmirdi. Mən evin ən kiçiyi olmuşam. Bu gün isə şükürlər olsun ki, dinimizi rahatlıqla yaşayırıq.

İrfan: *Kəndin yerli sakinisiniz?*

Cəlil dayı: Bəli

İrfan: *Təhsili harda almısınız?*

Cəlil dayı: 10 illik təhsil almışam, ali təhsilim yoxdur.

İrfan: *O vaxt necə təhsil alırdınız? Bilirik ki, kənd yerində vəziyyət ağır olub, üstəlik indiki*

kimi bolluq yox idi, dolanışıq çətin idi. Bəs məktəbə vaxt ayıra bilirdinizmi?

Cəlil dayı: Düzdü, onda iş-güc çox idi. Həm oxuyurduq, həm mal-qara dalınca düşürdük, əkin-biçinə gedirdik. Amma pis oxumamışam. Yaxşı oxuyurdum. Yadıma gəlir, 4 və ya 5-ci sinifdə oxuyurdum. Müəllim dalımca uşaq göndərmişdi. Gələndən sonra tapşırdı ki, Rəhimov, çıx lövhəyə yaz, uşaqlar da dəftərə köçürsün. O qədər çətinlik olsa da oxumağa həvəs var idi. İndi isə hər cür şərait var, şükürlər olsun.

İrfan: *Atanız necə adam olub?*

Cəlil dayı: Halal çörəyini qazanan adam olub. Təsərrüfatla məşğul idi. Sovetlərin qıtlıq günlərini görməmişəm. Atam kolxozda taya qarovulçusu olub. Xırmanda yerə tökülən buğdaları süpürüb dolanışığımızı təmin edirdi. Hətta kasıb və imkansız ailələrə də əl tutub. Cəbhədə atasını itirən yetimlərə kömək edib həmişə. Kəndimizdə kimdən soruşsan necə adam olduğunu deyərlər.

İrfan: *Sizi ağsaqqal bir dindar kimi tanıyırıq. Bəs nə zaman ibadətə başladınız, bunun tarixçəsi necə olub?*

Cəlil dayı: Əvvəllər traktor sürən işləmişəm. Sonra xəstəlik keçirmişəm və bununla əlaqədar olaraq məni təqaüdə çıxardıblar. 4 övladım var. Onları böyütmək üçün çox çətinlik çəkmişəm. Təxminən 1975-77-ci illərdə ruzimi qazanmaq üçün Rusiyaya getmişəm. Bu yolla balalarımı saxlamışam. 3-4 ay Rusiyada olurdum, orada qazandıqlarımı da götürüb gəlirdim bura. Əlimdə olanlar qurtaranda yenə geri qayıdırdım. Bəziləri kimi ailəmi yaddan çıxarıb illərlə orda qalmamışam. 1994-cü ildə Rusiyadan birdəfəlik gəldim və öz-özümə qərar verdim ki, artıq burda ticarətlə məşğul olaram. Nəsimi bazarında alverə başladım. Xeyli pul qoymuşdum alverə, amma tamamilə müflis oldum. Ömrümdə birinci dəfə idi ki, ticarətdə əlim gətirmirdi. Bu hadisə mənə bərk təsir elədi. Öz-özümə fikirləşirdim. Hər şeyi götür-qoy edirdim. Keçmişdə olanları, həyatımı... Birdən ürəyimə gəldi ki, heyhat, mənim yaşım artıq 50-ni keçib. Sabah dünyamı dəyişəcəyəm. Allah məndən soruşacaq ki, sən dünyalıq işlərin ardınca düşmüşdün, sənə ruzi verirdim, məni niyə yada salmırdın. Elə bu hisslərlə düşündüm ki, Allahın əmrini tutmaq lazımdır. O gündən Allahın izni ilə ibadətə başladım. Şamaxıda İslam təmayüllü texnikum vardı. 1998-ci ildə ora ilə çox əlaqə saxlamışam, məktəbin müəllimlərindən də çox şey öyrənmişəm.

İrfan: *Siz Sovetlər dövrünü də görmüsünüz, indiki zəmanəni də yaşayırsınız. Nə fərq var bu iki rejim arasında?*

Cəlil dayı: Yerlə-göy qədər fərq var. Bu gün hər şey qaydasındadır, bolluqdur, əmin-amanlıqdır, bu günlərə şükür etmək lazımdır.

İrfan: *Sizin gənclik illərinizi yaşadığınız dövrdə böyük-kiçik münasibətləri necə idi? Bu gün ilə müqayisədə hansı mənzərə çıxır ortaya?*

Cəlil dayı: Həmişə atamdan misal verirəm, amma yenə deyəcəyəm, atam bir adamla danışanda həyasından başını qaldırıb adamın üzünə baxmazdı. Bizim vaxtımızda balacalar böyüklərin yanında çox danışmazdılar. Hər işə qarışmazdılar. Heç kim inciməsin, indiki dövrdə bir az fərqlidir hər şey.

İrfan: *Cavanlara nə tövsiyə edirsiniz?*

Cəlil dayı: Allah gənclərimizi qorusun. Dünya malının əsiri olmasınlar. Yaşlılara hörmətdə qüsur etməsinlər ki, özləri də yaşlananda hörmət görsünlər. Milli-mənəvi dəyərlərimizə sahib çıxsınlar. Vətənə, millətə sadiq olsunlar. İçki, qumar kimi mərəzlərdən uzaq dursunlar. Bir dəfə yaşadığımız bu həyatı ləyaqətlə başa vurmaq lazımdır.

Aqil ƏLİYEV
aqil_77@box.az

QARDAŞLIĞI ZƏDƏLƏYƏN QISQANCLIQ

Rəsulullah (s.ə.s)-in səhabələrindən biri olan Əbu Hüreyrədən (r.a) gələn rəvayətə görə Rəsulullah (s.ə.s) belə buyurdu: *"Bir-birinizi qısqanmayın. Bir-birinizin əleyhinə qiymətləri qızışdırmayın (nəcş etməyin). Bir-birinizə kin bəsləməyin. Bir-birinizə arxa çevirməyin. Bir kimsə başqasının alveri üstünə alver etməsin. Ey Allahın qulları! Qardaş olun, müsəlman müsəlmanın qardaşıdır. Ona zülm etməz, onu tərk etməz. Ona yalan söyləməz. -Üç dəfə sinəsinə(qəlbinə) işarə edərək- təqva buradadır. Bir möminə günah olaraq müsəlman qardaşını özündən aşağı görməsi kifayətdir. Müsəlmanın müsəlmana qanı, malı və namusu haramdır."* (Müslim, əl-Birr vəs-Sıla, 32)

Bu hədisin böyük faydaları və olduqca çox mənaları vardır. Qardaşlığı əmr etməkdə və bəzi əsaslarını ortaya qoymaqdadır. Qısqanclıq, yalan və aldatma, bir-birinə nifrət etmək, bir-birinə arxa çevirmək, başqalarını özündən aşağı görmək və buna bənzər xüsusiyyətlərdən, qardaşlıq və sevgini ortadan qaldıran müxtəlif mənfi xüsusiyyətlərdən çəkindirməkdədir.

Eyni şəkildə bu hədisi-şərif müsəlmanın malının, namusu və canının haram olduğuna da dəlil təşkil etməkdədir. Bu üç xüsusa isə kifayət qədər önəm vermədikcə heç bir cəmiyyət varlığını qoruya biməz. (Nəvəvi, Qırx Hədis Şərhi, 358)

Qısqanclıq:

Bizim burada haqqında danışacağımız qısqanclıq din qardaşını, onda olan üstün cəhətləri qısqanmaq haqqında olacaqdır.

Qısqanclıq bir insanın başqasının sahib olduğu nemətin zay olmasını istəməsidir. Məsələn, bir nəfər öz din qardaşında bir nemət, yaxud bir üstünlük olduğunu görüb, o nemətin ondan alınıb qardaşının ondan məhrum edilməsiylə birlikdə, yalnız özünün olmasını istəməsi bir qısqanclıqdır. Bu elə böyük bir xəstəlikdir ki, bundan xilas olan müsəlmanların sayı çox azdır. Çünki insan hər hansı bir xüsusda başqalarının özündən üstün olmasından xoşlanmaz. O halda müsəlmanın bu mənfi xəstəlikdən ruhunu təmizləməyə çalışması lazımdır. Bu şəkildə bir qısqanclıq haramdır. Çünki Rəsulullah (s.ə.s): *"Bir-birinizi qısqanmayın"* buyurmuşdur. Qısqanclığın haram olun-

masındakı hikmət isə odur ki, qısqanclıqda Uca Allaha qarşı bir etiraz var. Qısqanc adam öz halıyla: Ey Rəbbim, filan şəxsə necə olur ki, mənə vermədiyin vəzifə, mal və ya hər hansı bir neməti verirsən? deyir. Buna görə də şairlərdən biri belə demişdir:

"Məni qısqanmaqla gözü götürməyən şəxsə de ki: "Kimə qarşı hörmətsizlik etdiyini bilirsənmi?

Sən Allaha qarşı Onun hökmündə hörmətsizlik edirsən, çünki, sən Allahın mənə bağışladığı nemətlərə razı deyilsən.

Rəbbim mənə nemətini artırmaqla və sənin qarşına da (bu nemətləri) əldə etmək yollarını bağlayaraq səni cəzalandırdı." (Qurtubi, V, 251)

Qurtubi qeyd edir ki: "Digər tərəfdən qısqanclıqda Uca Yaradanın hikmətsiz iş gördüyü ittihamı vardır. Bu ittiham Onun layiq olmayan şəxsə nemət ehsan etdiyi iddiası daşımaqdır. (Qurtubi, II, 71)

Qısqanc insanlar iki növdür:

1. Bəzisi söz və davranışı, qardaşına qarşı haqsızlıq etməsi ilə və sonra da bu neməti öz əlinə keçirməsinə çalışması ilə olur.

2. Bəzisi o nemətin öz əlinə keçməsi üçün çalışmadan, qısqandığı şəxsdən o nemətin getməsi üçün söz və davranışlarla kifayətlənir. Yəni gecə-gündüz çalışır ki, nə olursa-olsun, bu üstün hal ondan yox olsun. Nəticədə mən ondan üstün olum. Bu da insanı psixoloji cəhətdən xəstə edir.

Eyni zamanda bilinməlidir ki, qısqanclıq münafiqlərin xüsusiyyətidir.

Uca Allah belə buyurur: **"Kitab əhlindən bir çoxu həqiqət onlara bəlli olduqdan sonra belə, təbiətlərindəki həsəd (paxıllıq) üzündən sizi, iman gətirmiş olduğunuz halda, yenidən küfrə sövq etmək istərlər."** (əl-Bəqərə, 109)

Qısqanclıq ən güclü bağları belə ortadan qaldırır.

Yaqub (ə.s)-ın oğulları qardaşları Yusif (ə.s)-ı qısqandılar. Onlar bunun nəticəsində də yaddaşlardan silinməyəcək dərəcədə çirkin bir işə əl atdılar və hər kəsə dərs olacaq rüsvayçılıqla qarşı-qarşıya qaldılar. Gördüyümüz kimi həqiqətən də qısqanclıq həddindən artıq pis bir xüsusiyyətdir. Qardaşların Yusif (ə.s)-ı quyuya atmaqlarına səbəb atalarının ona olan sevgisini qısqanmaları olmuşdur. Qurani-Kərimdə qısqanclığı pisləyən və bu haqda xəbər verilən misallardan biri də Adəmin (ə.s) iki oğludur. Bu misalda görürük ki, qısqanclıq o qədər pis bir xüsusiyyətdir ki, hətta insanı doğma qardaşı belə öldürməyə vadar edir. İçindəki qısqanclıq atəşi o dərəcəyə çatdı ki, öz doğma qardaşını öldürdü və ziyana uğrayanlardan oldu.

İstər dünyada, istərsə də axirətdə acı və rüsvayedici bir hadisə ilə qarşılaşmamağımız üçün çirkin bir xüsusiyyət olan qısqanclıqdan uzaq olmalıyıq.

Rəsulullah (s.ə.s): "Bir-birinizi qısqanmayın" buyurmuştur. Qısqanclığın haram olunmasındakı hikmət isə odur ki, qısqanclıqda Uca Allaha qarşı bir etiraz var. Qısqanc adam öz halıyla: Ey Rəbbim, filan şəxsə necə olur ki, mənə vermədiyin vəzifə, mal və ya hər hansı bir neməti verirsən? deyir.

Adem ŞAHİN
ameha0@hotmail.com

OLMAQ

Xəbərlərə baxsaq, qan, müharibə və göz yaşlarının heç əskik olmadığını görərik. Bazarda, qonum-qonşu arası münasibətlərdə, evlilik və boşanmalarda, ticarət sahəsində fitnə-fəsad və eqoizmin hakim olduğuna, yaxşılıq və yaxşıların səsinin zəif qaldığına şahid oluruq.

Məhkəmə, xəstəxana və həbsxanalardakı adamların sayı kitabxana və ibadət məkanlarını çoxdan keçib. Stres və depressiya hər yerdə və hər evdə hava kimi mövcuddur. Bu gedişatla depressiya əleyhinə dərmanları şəhərin içməli suyuna qataraq bütün əhaliyə içirmək məcburiyyətində qalacaqlar.

Hələ insan yaradılmamışdan əvvəl mələklər bu hadisələrdən xəbər vermişdilər:

"Rəbbin mələklərə: "Mən yer üzündə bir xəlifə (canişin) yaradacağam", - dedikdə (mələklər): "Biz Sənə şükür etdiyimiz, şəninə tərifər dediyimiz və Səni müqəddəs tutduğumuz halda, Sən orada (yer üzündə) fəsad törədəcək və qan tökəcək bir kəsmi yaratmaq istəyirsən?"- söylədilər…" (əl-Bəqərə, 30)

Bir gün Harun ər-Rəşid Bəhlul Danəndə daxmasına gəlir və ondan nə üçün insanlardan uzaqlaşdığını, sarayda qalmamasının səbəbini soruşur. Bəhlul susur. Harun onun saraya gəlməsi üçün çox israr etdikdə Bəhlul "məsləhətləşməliyəm", -deyir.

Harun ər-Rəşid "kiminlə istəyirsən məsləhətləş", -cavabını verir.

Bəhlul daxmadan çıxır, yaxınlıqdakı ayaqyoluna üz tutur, amma içəri girməyi ilə çıxmağı bir olur. Haruna "məsləhətləşdim, tövsiyə etmirlər", -deyir. Harun təəccüblə "başa düşmədim, kiminlə məsləhətləşdin, nəyi tövsiyə etmirlər?", -deyə özünü itirir. Bəhlul bu cavabı verir:

"Ayaqyolundakı nəcasət hal dili ilə deyir ki, əsla insanların içinə girmə. Biz təzə meyvələr, gözəl qoxulu çörəklər və ləzzətli kabablar idik. İnsanlar bizi əldə etmək üçün çox əlləşib-vuruşdular. Bir dəfə insanların içinə girdik, ondan sonra belə olduq. Sən sən ol, onlardan uzaq dur!".

Xəlifə Bəhlulu razı sala bilməyəcəyini başa düşərək geri qayıdır.

İnsanın burnundan, qulağından, boğazından, ağzından, bir sözlə vücudundan çıxan hər şey çirklidir. İnsan bədənindən təmiz heç nə çıxmaz. Çıxan hər şey insanları diksindirir. Bu, yağış üçün də belədir. Yuxarıdan aşağı düşən və rəhmət olaraq adlandırılan tərtəmiz su aşağıda kirlənir.

Yağışın yağması və vəhyin enməsini ifadə etmək üçün eyni feil işlənir. İnzal:

yuxarıdan aşağı lütf olaraq endirilmək deməkdir. Eynilə yağış sularının aşağılarda kirlədilməsi kimi 4 böyük kitabdan 3-ü insanlar tərəfindən təhrif edilmişdir.

Bədənindən kir çıxardan insandan diksindirməyən və göylərə yüksələ bilən iki təmiz şey çıxır: gözəl söz və saleh əməl. Kəsilən qurbanın da qanı və əti göyə çıxmaz. Dünyada qalar.

"…Gözəl söz Ona tərəf yüksələr və gözəl sözü də (Allah dərgahına) yaxşı əməl qaldırar." (əl-Fatir, 10)

Dua, zikr, fikir sözlərin ən gözəlidir. Allaha yüksələn bu sözləri insanın saleh əməli yüksəldir. Gözəl söz söyləmək asandır. Gözəl sözə saleh əməllərdən qanad taxılmalıdır ki, yüksələ bilsin.

İnsan köhnəlmə və köhnəltmə, kirlənmə və kirlətmə xüsusiyyətinə sahibdir. İnsanın yaşlanması ilə əşyaları köhnəltməsi, kirlənməsi ilə kirlətməsi birbirinə paraleldir, əsla bir-birindən ayrılmaz.

Dünyada yaşanan zövq-səfanın da vəfası yoxdur. Ləzzət alınan hər şey birbir uçub gedər. Yatmaq, yemək, içmək, sağlamlıq və cinsi duyğular gündən-günə sıfırı tükətməyə başlayar. Tükəndiyini hiss edən insan saçlarını rəngləməyə, estetik əməliyyatlara, enerji verən içkilər və dərmanlar qəbul etməyə başlayar. 24 saatın 15 dəqiqəsini ibadətə ayıra bilmədiyi halda səhər idmanı, üzmə və futbola asanlıqla vaxt tapır. Belə adamlara iki söz demək lazımdır: Haraya qədər? İki kəlmədən ibarət bu sualın cavabını çox yaxşı bilirlər, amma etiraf etməyə və lazım olanı etməyə gücləri çatmaz.

Həyatda nəfəslər sayılı olsa da yaşanan acılar və həzlər sayıya gəlmədiyi üçün çoxluqla ifadə edilir. Son nəfəs alınmadan bu həyatdan getmək mümkün olmadığı kimi sonuncu acı və ya sonuncu həzz də yaşanmadan da getmək mümkün deyil.

Yatmaq, yemək, içmək, sağlamlıq və cinsi duyğular gündən-günə sıfırı tükətməyə başlayar. Tükəndiyini hiss edən insan saçlarını rəngləməyə, estetik əməliyyatlara, enerji verən içkilər və dərmanlar qəbul etməyə başlayar. 24 saatın 15 dəqiqəsini ibadətə ayıra bilmədiyi halda səhər idmanı, üzmə və futbola asanlıqla vaxt tapır. Belə adamlara iki söz demək lazımdır: Haraya qədər?

Kədər və həzz nəfəs adlanan varlığın tərkibinə qoyulmuşdur. Çəkilən təsbehi, qılınan namazı və tutulan orucu israf etməmək lazımdır. İbadətlər insan bədənindən çıxan kirə bənzəməməlidir. İbadətlərin kirlənməsi niyyətin pozulması, qaydalarına riayət edilməməsi və ədəbsizlik nəticəsində ortaya çıxar. İbadət və itaətlərin kirlənmə və qəbul edilməmə qorxusu hər zaman canlı tutulmalıdır. Sədi Şirazi belə deyir: Asilər günahlarından tövbə edərkən, ariflər ibadətdən istiğfar edərlər.

Qan tökən, fitnə-fəsad çıxardan, kirlənən və kirlədən insanı və onun həyatını Hz. Peyğəmbər məlun adlandırmışdır. Lənətin olduğu yerdə səadət, təbəssüm və xoşbəxtlik yoxdur. Xəbərlərdə seyr etdiyimiz mənzərələr və eşitdiklərimiz Allahın zikrindən və rizasından çox uzaqdadır. Bu keyfiyyəti daşıyanlar da hələ 1400 il bundan əvvəl Peyğəmbər tərəfindən məlun adını almışdır:

"Xəbəriniz olsun ki, dünya məlundur. İçindəkilər də məlundur. Ancaq Allah-Təalanı zikr etmək və Onun rizasına uyğun əməllər müstəsnadır." (Tirmizi)

Məlunlardan olmadan, sadiqlərlə birlikdə olmaq duasıyla…

Polad POLADOV

HƏR ŞEY GÖRÜNDÜYÜ KİMİ DEYİL

Sosial normalar insan istəsə də, istəməsə də hər zaman mövcud olub və olmaqdadır. Bu normalara qarşı gəlmək insanı təhlükəyə ata bilər. Bəzən insanlar sosial normalara qarşı gəlmək istəyir, sanki "kompleks"siz olmalarını sübut etməyə çalışır və ya mövcud normaların yanlış olduğunu hər sözündə dilə gətirir. Düzü, sosial norma anlayışını mən də düzgün qavramamışdım, amerikan təşkilatında işlədikdən sonra bu qavramı tam dərk etdim və aşağıda sözügedən məsələ barədə ətraflı danışacağam. Sosial normalara dünyada ən çox diqqət edən ölkə Amerikadır, düzdür, bizə bir az şübhəli görünə bilər, amma bu bir faktdır. Onlar hər bir ölkədə bütün adətlərə əməl etməyə çalışır və ya özlərini belə göstərirlər, hazırda bunu ölkənin ideologiya müharibəsində işlətdiyi əsas silah hesab etmək olar. Ceyms Kameronun çəkdiyi Avatar filmindən misal verək. Bu film bizə adi cizgi filmi kimi görünə bilər, ancaq açılışında prezident Barak Obamanın da iştirak etdiyi bu film Amerikanın sosial normalara necə əməl etdiyini göstərir və gələcəkdə bu silaha ehtimal ki, daha çox sarılacağından xəbər verir. Filmdə bir bölgənin sirrlərini ələ keçirmək üçün şəxs həmin bölgənin dilini öyrənir və hətta özünü tamamilə onlara bənzədir. Bəli, Amerika təkcə həqiqi deyil, həm də ideoloji silahla bizə özümüz də bilmədən hücum edir. Sosial normaları bizimlə eyni olan şəxs bizim ideologiyamıza və inancımıza sahib anlamına gəlməz, çünki bunlar müəyyən mənfəətlər üçün üzümüzə gülən şəxslər ola bilərlər. Onlardan bir çoxu Azərbaycanda bizi tərifləyib, öz ölkələrində isə pisləyən şəxslərdir. İki il onlarla işlədikdən sonra təkcə mən yox, eyni zamanda oradakı bütün azərbaycanlı işçilər Amerika vətəndaşının reallığını, "iç üzünü" aşkarladı. Bu reallığa bir sözlə nankor demək olar. Bəli, onlar həqiqətdə çox nankor olurlar, sizin etdiyiniz yaxşılığı anidən unudar və sizə 3 qəpiklik belə qiymət verməzlər. Onlarda aşkarladığım başqa bir prinsip onların "ortaqlaşma" hissinin sıfıra bərabər olmasıdır. Yəni tam

olaraq materialist düşüncə tərzinə malikdirlər. Məsələn aldığı şokolad və sair kimi qida məhsulunu digər insanların gözü qarşısında yeyər, hətta yaxın dostuna belə təklif etməyə bilərlər. Və bu belədir. Onlara dərs keçərkən müşahidələrimdə belə halların həmişə şahidi olurdum, əvvəlcə bunu həmin şəxsin xarakteri olaraq bunu qiymətləndirirdim, amma 2 il ərzindəki təcrübəm təkcə mənim deyil, kolleqalarımın da eyni fikirdə olması fikirlərimin düz olmasını sübut etdi.

2 il müddətində Amerika səfirliyinin birbaşa nəzarəti və diqtəsi altında olan Amerika Səfirliyi Sülh korpusu təşkilatında mədəniyyət və dillərarası koordinator vəzifəsində çalışarkən Amerika vətəndaşlarının özünü gizlətmə (ingiliscə camouflage) qabiliyyətinin nə qədər yüksək olduğunu anladım. Ümumilikdə istənilən ölkədə fəaliyyət göstərən Amerika səfirliyində bu ölkənin vətəndaşları üçün hazırlanmış "olarlar və olmazlar" (ingiliscə Do`s and Dont`s) və ya sosial normalar siyahısı var, bu siyahıda rasional bir amerikan gəncinin bu ölkədə edə biləcəyi və edə bilməyəcəyi nüanslar öz əksini tapır, burada onların istifadəsi məsləhət bilinən nəqliyyat növünün, hətta restoranların belə adı var. Adi Amerika vətəndaşı bu siyahıya istəməyərəkdən də olsa əməl etməyə çalışır. Məsələn xanımlar üçün belə bir norma var ki, onlar hava qaralmamışdan əvvəl evdə olmalıdırlar, əks halda onlara qarşı arzuolunmaz diqqət ola bilər və vətəndaşlar bu növ qaydalara təkcə Azərbaycanda deyil, bütün ölkələrdə əməl edirlər. Onlar bunu təkcə öz təhlükəsizlikləri üçün deyil, eyni zamanda olduqları cəmiyyətdə daha yaxşı kök salmaq və sirləri daha yüksək səviyyədə götürmək məqsədi güdərək edirlər.

Azərbaycanın istənilən bölgəsində ən azı iki Amerika vətəndaşına rast gəlmək olar, onlar bölgələrdə öz dillərinin tədrisi, iqtisadi inkişaf, gənclərin rifahı layihələri və sair ilə məşğul olurlar. Bölgələrdə olarkən təbii ki, onlar Amerikadakı kimi deyil, tam əksinə, bölgənin qanun və mentalitetinə uyğun olaraq hər bir "addım"larını ölçərək və yuxarıdakı "özünü gizlətmə"nin təməl prinsiplərinə uyğun atırlar. Bununla da səmimi və ürəyiyumşaq insanların qəlbinə yol tapırlar. Onların inandığı ümumi prinsip budur: İnsan başqaları kimi eyni sosial normaları paylaşmasa, o cəmiyyətdən kənarlaşdırılacaq.. Bir növ gizli sosial müharibə, özünü sevdirərək mənfur fikirləri yaymaq. Mən onlara Azərbaycan dili dərsləri verərkən belə əməllərin dəfələrlə şahidi olmuşam. Və insan əgər özünü yaxşı kimi aparır və elə deyilsə, buna ikiüzlülük və riyakarlıq adı vermək yerinə düşər ki, bu da bəşər övladının prinsip və ənənələrinə tam ziddir.

Azərbaycanın istənilən bölgəsində ən azı iki Amerika vətəndaşına rast gəlmək olar, onlar bölgələrdə öz dillərinin tədrisi, iqtisadi inkişaf, gənclərin rifahı layihələri və sair ilə məşğul olurlar. Bölgələrdə olarkən təbii ki, onlar Amerikadakı kimi deyil, tam əksinə, bölgənin qanun və mentalitetinə uyğun olaraq hər bir "addım"larını ölçərək və yuxarıdakı "özünü gizlətmə"nin təməl prinsiplərinə uyğun atırlar.

Onlar insanların ən həssas nöqtələrinin sosial normaları və bu normalardan ən əsası dinə toxunmaqla öz planlarını dünyada həyata keçirmək istəyirlər.

P.S. Bunun üçün Peyğəmbərimizi (s.ə.s) təhqir videosu yayıldıqdan sonra istər Obamanın, istərsə də Klintonun media qarşısında az qala ağlamaları onların necə "kamuflaj" ustası olduqlarını bir daha göstərir. Ancaq onlar heç vaxt anlamırlar ki, bu şəxs elə bir şəkildə özünə hörmət qazanıb ki, hətta tarixdə onu canlı olaraq təhqir edənlər peşman olublar, şəkillə nə edə bilərlər ki...

Kamran MƏMMƏDOV
kamran_mz@mail.ru

Dua

Əbu Müslim Saftar böyük övliyalardandır. Bir gün gəmi ilə yola çıxmışdı. Yanında çox adam vardı. Birdən əks istiqamətdən bir külək çıxdı. Dalğalar yüksəldi. Gəmi az qala batacaqdı. Gəmidə olan yükü dənizə atdılar. Kömək istədilər.

Əbu Müslim deyir ki:

Bizimlə birlikdə gəmidə kim olduğu bilinməyən bir kəndli vardı. Yanında Quran kitabı vardı. Oradan qalxdı və kitabı əlinin üzərinə qoydu və belə yalvararaq dua etdi: (Ya Rəbbi! Əgər bir kimsənin əlində dünya sultanından bir məktub olsa, heç kim ona hücum edə bilməz, zərər verə bilməz, bəlalardan əmin olar.) Quranı qaldırdı və (Ya Rəbbi! Bu sənin kitabındır, bunu bizə verdin. Əllərində sənin kitabın olan qullarını suda boğmaq kərəminə yaraşmaz. Bizi təhlükədən qurtar.)

Dərhal dalğalar sakitləşdi və sağ-salamat yolumuza davam etdik.

Hər kəs özü gətirər

Bir gün Bəhlul Danəndə üst-başı toz-torpaq içində Harun Rəşidin hüzuruna çıxdı. Harun Rəşid soruşdu:

- Bu nə haldır, Bəhlul, haradan gəlirsən?
- Cəhənnəmdən gəlirəm, ey hökmdar.
- Nə işin vardı cəhənnəmdə?
- Od lazım idi, onunçün getmişdim.
- Yaxşı, gətirdinmi heç olmasa?
- Xeyr, gətirə bilmədim. Cəhənnəmin gözətçiləriylə görüşdüm, onlar: “Düşündüyünüz kimi burada od olmur, hər kəs öz odunu dünyadan gələrkən özü gətirir”, -dedilər.

Səxavətin zirvəsi

Yəmənin həddən artıq səxavətli bir hökmdarı vardı. Xeyirxah əmələri hər yerə yayılmasına baxmayaraq, Xatəmi Tainin comərdliyindən bəhs edilməsinə dözə bilməz, sarayında hər kəsə böyük bir ziyafət verərdi. Varlı-kasıb hər kəs bu süfrədə yeyər, camaatın (hökmdarın ziyafəti nə qədər möhtəşəm oldu, az qala Xatəmə yaxınlaşdı) dediyini eşitdikdə, Xatəm sağ qaldıqca, səxavətdə birinci olmasına imkan olmadığını anlayar, onu öldürtməyə qərar verər. gecle bir gənc tapıb ona 20 dinar verir. İşi başa çatdırdıqdan sonra da əlavə 20 dinar verəcəyini söyləyir.

Gənc soruşa-soruşa Tay qəbiləsinə qədər gəlib çıxır. Gülər üzlü, özü kimi igid bir gənclə qarşılaşır. Bu sevimli gənc: "Xoş gəldin, igid. Deyəsən, çox yorğunsan. Bu gecə qonağım ol!", -deyərək onu evinə aparır. Gecə qonağına çox böyük ziyafət verir. Səhər olanda qonaq getmək istədiyini bildirdikdə, bir neçə gün də qalmasına israr edir. Qonaq mühüm işi olduğunu və təcili getməli olduğunu bildirir.

Yaxşılıq və xidmət etməkdən həzz aldığı aydın olan ev sahibi deyir:

- İşin nədir, sənə bir köməyim toxuna bilərmi?

- Ey alicənab insan, sən çox səxavətlisən, xeyirxahsan, görürəm ki, səndən sirr çıxmaz. Xatəm adlı bir nəfəri axtarıram. Tanıyırsanmı?

- Xatəm ilə nə işin var?

Qonaq nə üçün gəldiyini izah edib belə deyir:

- Bu işdə mənə kömək edə bilərsənmi?

- Əlbəttə, edərəm. Bu işi tək görmək asan olmaz. Dediklərimə diqqət etsən, kərə yağından tük çəkirmiş kimi zəhmətsiz olar.

- Nə etməliyəm?

- Xatəm də sənin kimi igiddir. Bəlkə öldürə bilməzsən. Mən sənə onun yerini başa salım. Ancaq öldürə bilməzsən və işin üstü açılarsa, yerini söylədiyim üçün məni öldürə bilər. Bu baxımdan mənim əllərimi, ayaqlarımı bağla. Məcbur etdirdiyin aydın olsun.

Qonaq ev sahibinin əl-ayağını möhkəm bağladıqdan sonra soruşur:

- Xatəm haradadır?

- Xatəm mənim. Madam ki, mənim başım sənin işinə yarayacaq, nə üçün onu verməyim? Qonağın arzusunu yerinə yetirmək, könlünü almaq mənim ən böyük arzumdur. Dərhal öldür, heç kim xəbər tutmadan buradan çıx get!

Gənc bu işə təəccüblənib çaşır. Dərhal Xatəmin ayaqlarına düşüb belə deyir:

- Sənə gül yarpağı ilə vuran namərddir. Nə olar məni bağışla!..

Gənc halallaşıb oradan ayrılır və hökmdarın hüzuruna çıxır. Baş verənləri danışır. Hökmdar da xeyirxah və comərd olduğu üçün səhvini başa düşüb "Daşıma su ilə dəyirman fırlanmaz. Səxavət mal ilə deyilmiş. Xatəmin comərdliyi yaradılışından, fitrətindən, gözəl xasiyyətindən irəli gəlirmiş. Sən verilən vəzifəsi artıqlaması ilə yerinə yetirdin", -deyərək ona 20 əvəzinə 40 dinar verir.

Ülvi MƏMMƏDOV

KİÇİK DƏRS

Böyük bir hədiyyə bağlamasını xarab etdiyi üçün üç yaşı yeni olmuş qızına çox hirslənmişdi. O boyda bağlamanı kağız bir qutunu necə gəldi qablaşdırmaq üçün zay etmişdi…

Bayram səhəri üç yaşlı qızı həmin bağlamanı gətirib "Atacan, bu sənə çatacaq" dedikdə bir gün əvvəl ona hirsləndiyinə peşman oldu, deyəsən, həddən artıq kobud hərəkət etmişdi. Etdiyi bu hərəkətə görə özünü qınadı, çox utandı…

Amma bağlamanı açar-açmaz təkrar hirsləndi. Qutunun içi bomboş idi… Qəzəblə qışqırmağa başladı:

- Kiməsə hədiyyə verəcəksənsə, bağlamanın içinə nə isə qoymalısan. Bunu hələ öyrənmədinmi?

Kiçik qız yaşlı gözlərlə atasına baxdı və bunları deyə bildi:

- O qutunun içi boş deyil ki, ata. Öpüşlərimlə doldurmuşdum onu.

Bu cavab qarşısında özünü çox pis hiss etdi… Yerindən sıçrayıb qızına tərəf atıldı, bağrına basdı, bir-birini möhkəm qucaqladılar… Birlikdə ağladılar o gün…

İllər keçsə də, həmin qutunu ömrünün sonuna qədər yatağının baş ucunda saxladı. Nə zaman özünü pis hiss etsə, həyatdan bezsə, qutunu açar, içindən kiçik qızının sevgi ilə dolu xəyali öpüşlərindən birini çıxardardı…

HAVADA UÇAN ŞAR



Qaradərili bir uşaq bayram şənliyinin keçirildiyi meydançada gəzişən yaşlı bir satıcının əlindəki şarları seyr edirdi. Müxtəlif rəngdə və hər formada olan şarlar onun kimi bütün uşaqların baxışını oxşayırdı. Şarsatan müştərinin bəyəndiyi qırmızı bir şarı seçib açarkən birdən əlindən buraxdı. Şar sallanan uzun ipiylə sağa sola yellənərək göyə doğru yüksəlir və hər kəs "Ora bax, şar, şar" deyə qışqıraraq havada uçan şarı bir-birinə göstərirdi.

Uşaq yuxarı yüksələn şarı diqqətlə izlədi və onu gözdən itirmək üzrə idi ki, bu səfər yaşıl rəngli bir şarın havaya uçduğunu gördü.

İşinin ustası olan satıcı sürüşüb əlindən çıxan ilk şarın bütün diqqətləri özünə cəlb etdiyini görmüş və yaxşı bir reklam olacağını düşündüyü üçün ikinci şarı havaya buraxdıqdan dərhal sonra sarı rəngli şarı da onun ardınca göndərmişdi. Qaradərili uşaq ürkək addımlarla satıcının yanına gələrək:

- Əmi, görəsən, bir dənə də qara rəngli şar buraxsanız, digərləri kimi havaya yüksələr?

Yaşlı satıcı bu azyaşlı uşağın nə demək istədiyini çox yaxşı anlamışdı. Onun əsmər yanaqlarından öpərək qara rəngli bir şarı səmaya buraxdı və:

- Bu şar bəlkə də digərlərini keçər, oğlum, -dedi.

Çünki bizim kimi şarları da yüksəldən rəngləri deyil, daxilindəki cövhərdir!

BAYRAM HƏDİYYƏSİ

Fəryadlar, ağılar və hıçqırıqlar bürümüşdü hər tərəfi. Hamı ağlayır, lakin içlərindən birinin səsi bütün səsləri batırırdı. Onun fəryadı daha ağrılı, daha tükürpədici idi.

Qucağında bir cüt ayaqqabı vardı. Onları möhkəm qucaqlamış, körpə uşaq kimi bağrına basmışdı. Sonra öz-özünə deyirdi:

- Geyinə bilmədin, balam, geyinə bilmədin…

Bir cüt ayaqqabını nə üçün doğma balası kimi qucaqladığını hamı yaxşı bilirdi.

Bağrına basdığı ayaqqabılar bayrama bir gün qalmış traktorun altında qalaraq can verən oğluna aid idi.

Ona bayram hədiyyəsi alınan o bir cüt ayaqqabını uşağın bütün israrlarına və yalvarmalarına baxmayaraq, bayramdan əvvəl geydirməmişdilər və səbirlə gözləməsini istəmişdilər.

Heç kimin ağlına bu yaşda uşağın ölə biləcəyi gəlməmişdi. Heç kim bayrama çıxmadan ölə biləcəyini hesablamamışdı. Hətta belə bir ehtimal heç kimin ağılına gəlməmişdi.

Amma qoca-cavan demədən qəfil gələn əcəl azyaşlı bir uşağı da ayırmışdı onlardan.

...Və bir cüt ayaqqabı. Bütün israrına baxmayaraq uşağa geyindirilməyən ayaqqabılar… Bir anda ondan qalan ən acı xatirə olmuşdu.

*****

Heç kim nə vaxt öləcəyini bilmir. Əslində bu məchul böyük nemətdir, lütfdür. Eyni zamandan bir o qədər də böyük imtahandır. Ölənə də, qalana da böyük dərsdir.

Lakin ölənlər üçün vaxt bitmişdir. Qalanlar üçün daha nə qədər vaxt qaldığı hər kəsə məchuldur.

Zamir Erkin AGAZADE

VİCDAN NƏDİR?

Vicdan – içimizdə olan səsdir. Bizi doğru yola səsləyən səs. Nə yazıq ki, bəzi insanlar onun səsini duymayacaq qədər kardırlar. Vicdanı biz duymadıqca, bütün həssasiyyətimizi itirəcək, ətrafda baş verən hər şeyə laqeyd olacağıq.

Vicdan – içimizdə olan işıqdır. Bizim gözümüzü həqiqətə açan işıq. Nə yazıq ki, bəzi insanlar öz içlərində onu görməyəcək qədər kordurlar. Vicdan bizə işıq olmadıqca, kor-koranə yanlış addımlar atacağıq.

Vicdan – içimizdə olan bələdçidir. Bizi günahlardan çəkindirən, cənnətə aparacaq bələdçi. Nə yazıq ki, bəzi insanlar şeytanın izindən gedəcək qədər axmaqdırlar. Vicdan bizə bələdçi olmadıqca, biz şər işlər görəcək, pis yollara düşəcək, özümüzü cəhənnəm deyilən bataqlığa sürükləyəcəyik.

Vicdan – içimizdə olan bir hakimdir. Bizim üçün ən doğru olanı seçəcək hakim. Nə yazıq ki, bəzi insanlar nəfsinə hakim olmayacaq qədər acizdirlər. Vicdan bizə hakim olmadıqca, biz nəfsimizə hakim ola bilmərik.

Vicdanımıza qulaq asaq. Əgər içimizdə azacıq da olsa Allah qorxusu və mərhəməti varsa, o bizə hər yöndə kömək edəcək.

Vicdanın rahat olmalıdır. Vicdanın rahat olmadıqca, hüzur tapa bilməyəcəksən. Gecələr başını yastığa yox, sanki bir daşa qoyubmuş kimi hiss edəcəksən özünü. Ta ki, vicdanın dediyini edənə qədər. Doğrular bəzən bizim əleyhimizə olur və biz onu öz xeyrimizə dəyişirik. Burada vicdanımız bizə əngəl olmağa çalışsa da ambissiyamız onu üstələyir. Biz nələrisə kimlərdənsə gizlədə bilərik, lakin özümüzdən – vicdanımızdan gizlətməmiz mümkün deyil. Vicdan hər dəfə üzümüzə vuracaq etdiyimiz bu yanlışı, hər dəfə bizə peşmanlıq duyğusu yaşadacaq. Vicdanın varlığından məhrum bir insan kompası olmadan səhranın ortasında yolunu azmış kimidir. Vicdan sahibi olmaq, iman sahibi olmaq deməkdir. Vicdanı olmayanın imanı da olmaz. Vicdanı olan vətənini, ailəsini sevən insandır. Şair Abbas Səhhət demişkən: "*Vətəni sevməyən insan olmaz, / Olsa da, ol şəxsdə vicdan olmaz*". Vicdanı olan Yaradanı da sevər, Onun yaratdığını da.

Allah- Təala Bizə nəyə görə mərhəmət hissi verib?! Bir düşünün. Nəyə görə sevgi verib? Nəyə görə? Biz əgər bir dünyada yaşayırıqsa, nəyə görə özümüzü başqa dünyanın insanı kimi aparmalıyıq. Hamının sonu və axırı bəllidir... Heç vaxt kömək etməkdə gecikməyin... Sizi gözləyən var, tutun onun əlindən. Qaldırın, köməyə ehtiyacı var onun. Sən onu görmürsənsə, deməli, o, sənin vicdanındır ki, hələ qalxmayıb... Qaldır o vicdanını. Qaldır ki, köməyə ehtiyacı olanlara əl tutsun.

TIKA BAŞQANI SERDAR ÇAM GƏNCLİYƏ YARDIM FONDUNU ZİYARƏT EDİB

Oktyabr ayının 4-də Azərbaycanda rəsmi və işgüzar səfərdə olan Türk Əməkdaşlıq və İnkişaf İdarəsinin (TİKA) başqanı Dr. Serdar Çam Gəncliyə Yardım Fondunu ziyarət edib.

Fondun rəhbərliyi ilə görüşən qonaqlara günü-gündən inkişaf edən Azərbaycan haqqında geniş məlumat verilib.

Çay süfərsi ərtafında davam edən görüşdə Fondun həyata keçirdiyi fəaliyyətləri özündə əks etdirən video-rolik nümayiş etdirilb.

Görüşdə iştirak edən T.C. Türk Əməkdaşlıq və İnkişaf İdarəsinin (TİKA) Azərbaycan təmsilçisi Dr. Salih Polat, Gəncliyə Yardım Fondunun prezidenti Ahmet Tecimə bu uğurlu fəaliyyətlərinə görə öz təşəkkürünü bildirib və Gəncliyə Yardım Fondu ilə birgə həyata keçirdikləri layihələr və bu ləyihələrin iki dövlət arasındakı qardaşlıq əlaqələrinin daha da güclənməsindəki əhəmiyyətindən danışıb.

Görüşün sonunda qonaqlara hədiyyələr təqdim edilib və xatirə şəkilləri çəkilib. Qonaqlar da öz növbələrində fond rəhbərliyinə dostluq xatirəsi olaraq hədiyyələr təqdim ediblər.

FİLARMONİYA BAĞINDA KİTAB YARMARKASI AÇILDI

18 oktyabr tarixində Filarmoniya bağında Bakı Şəhər Mədəniyyət və Turizm İdarəsinin təşkilatçılığı ilə Dövlət Müstəqilliyi Gününə həsr olunmuş "Müstəqilliyimiz əbədidir" mövzusunda kitab sərgi-yarmarkası açılıb. SİA-nın məlumatına görə, yarmarkada Bakıda fəaliyyət göstərən 40-a yaxın nəşriyyat evi, kitab mağazaları və mərkəzləri iştirak edirdi. Bu möhtəşəm sərgidə İpəkyolu Nəşriyyatı da öz nəşrləri ilə iştirak etmişdir. Yarmarkanın keçirilməsində məqsəd əhalinin kitaba marağını artırmaq, gənc nəslin şəxsiyyət kimi formalaşmasında kitabın əhəmiyyətli rol oynadığını diqqətə çatdırmaq və müstəqillik dövründə nəşriyyatların çap etdiyi kitabları nümayiş etdirmək olmuşdur.

GYF YENƏ ƏLİLLƏRİ SEVİNDİRDİ

Bir insanı sevindirməyin və ehtiyac sahiblərinə əl tutmağın nə qədər dəyərli bir əməl olduğunu hər birimiz çox yaxşı bilirik. Hələ sevindirdiyimiz insanın fiziki qüsurlu olması, özünü kifayət qədər istədiyi kimi idarə edə bilməməsi və onun digər insanlardan daha çox qayğıya ehtiyacı olması işin əhəmiyyətinin daha da böyüklüyündən xəbər verir.

İnsanları sevmək, onlara qayğı göstərmək, ən azından onların dərdlərinə şərik olmaq, bununla yanaşı öz yurd-yuvalarından didərgin düşmüş soydaşlarımıza, onların timsalında imkansız ailələrə imkanımızın çatdığı qədər yardımların edilməsi ən azından insanlıq və vətəndaşlıq borcumuzdur. Gəncliyə Yardım Fondu uzun illərdir ki, bu xeyirxah missiyanı həyata keçirərərk saysız ailələrə sevinc və səadət bəxş edir. Fondun xeyriyyə fəaliyyətləri arasında fiziki qüsuru olanlara əlil arabaları paylamağı xüsusilə vurğulamaq yerinə düşərdi. Elə bu yaxınlarda, oktyabr ayının 3-də Gəncliyə Yardım Fondunun əməkdaşları o cümlədən fondun vitse-prezidenti Salman Əliyev İsmayıllı rayonunda iki əlil ailəsi ilə görüş keçirdilər. Əlil arabası tələbilə fonda ünvanlanan məktublar əsasında bölgəyə səfər edən nümayəndə heyəti tələb olunan əlil arabalarını birbaşa əlil həmvətənlərimizə təqdim ediblər.

Görüş əsnasında bir neçə ildir əlil arabasına məhkum olan 1959-cu il təvəllüdlü Bədirov Vaqif Niyaz oğlu və 1979-cu il təvəllüdlü Şahməmmədov Rasim Eldar oğlu ehtiyaclarını qarşıladığına görə Gəncliyə Yardım Fondunun bütün əməkdaşlarına öz təşəkkürlərini bildiriblər.

AFRİKALI GƏNCLƏR GYF-Nİ ZİYARƏT ETDİLƏR

23-29 sentyabr tarixində Azərbaycanın Misirdəki səfirliyi, Afrika İttifaqı yanında müşahidə missiyası və Gənclər və İdman Nazirliyinin birgə təşkilatçılığı ilə Afrika İttifaqının rəhbərliyi altında Afrika dövlətlərinin gənc mütəxəssislərinin ölkəmizə səfəri baş tutub.

Səfər çərçivəsində Afrika İttifaqı Komissiyasının əməkdaşları və Efiopiya, Kamerun, Misir, Benin, Svazilend, Keniya, Sudan, Nigeriya, Qabon, Mozambik və s. ölkələrin nümayəndələri Gəncliyə Yardım Fondunun nümayəndələri ilə görüşüblər.

Görüşdə Gəncliyə Yardım Fondunun prezidenti Ahmet Tecim qonaqları salamlayaraq fondun fəaliyyəti, strukturu, baş tutan layihələr və gələcəkdə görüləcək işlər haqda ətraflı məlumat verib.

Gəncliyə Yardım Fondunun beynəlxalq tədbirlərdə müntəzəm iştirakını vurğulayan Ahmet Tecim xarici ölkə gəncləri ilə əməkdaşlıq və ortaq layihələrdən söhbət açıb.

Daha sonra Afrika nümayəndə heyətinin rəhbəri xanım Ngvenya öz təşkilatları barəsində məlumat verib. Xanım Ngvenya əməkdaşlıq istiqamətlərindən danışaraq gələcəkdə Gəncliyə Yardım Fondu ilə ortaq layihələrin həyata keçirilməsindən məmnun olacaqlarını bildirib.

Görüş qarşılıqlı diskussiya şəklində davam edib, birgə əməkdaşlıq çərçivəsində görüləcək layihələr müzakirə olunub və qonaqları maraqlandıran suallar cavablandırılıb.